RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 262 (8285) ÇƏRŞƏNBƏ AXŞAMI, 26 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Yüksələn xətlə inkişaf edən ikitərəfli əməkdaşlıq

## Azərbaycan-Rusiya əlaqələri belə səciyyələnir

**Qonşu ölkələrlə qarşılıqlı etimada əsaslanan münasibətlərin möhkəmləndirilməsi, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi Azərbaycan Respublikasının yürütdüyü xarici siyasətin prioritet istiqamətlərindəndir.**

Dövlətimiz müstəqilliyini bərpa edəndən bəri bu məqsədə nail olmaq üçün əhəmiyyətli məsafə qət etmiş, qonşularını mehriban dost kimi qəbul edərək onlarla sıx əlaqələr qurmağa müvəffəq olmuşdur. Nəticə etibarilə təcavüzkar Ermənistan istisna olmaqla, Azərbaycanı bütün qonşu ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq, qarşılıqlı hörmət bağları birləşdirir.

Bu baxımdan Azərbaycan-Rusiya əlaqələrinin hazırkı mərhələsi səciyyəvidir. İki ölkənin maraq dairəsində olan məsələlərin spektri kifayət qədər genişdir və ona görə də Bakı və Moskva daim təmasda olur, bu və ya digər problemin həlli üçün qarşılıqlı səylər göstərir. Bir məqamı xüsusi olaraq vurğulamaq yerinə düşər ki, ikitərəfli əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə çatmasında iki dövlətin başçıları İlham Əliyev və Vladimir Putinin siyasi iradəsi və şəxsi səmimi münasibətləri həlledici rol oynamışdır. Prezidentlər mütəmadi olaraq bir araya gəlib ikitərəfli əlaqələrin dərinləşdirilməsi naminə yeni-yeni təşəbbüslər irəli sürür, konkret addımlar atırlar. Artıq Bakı ilə Moskva arasında əməkdaşlığın yetərli müqavilə-hüquqi bazası yaradılmış, 200-dən çox sənəd imzalanmış, tərəflər iki ölkənin və xalqın mənafeyinə cavab verən strateji tərəfdaşlıq mərhələsinə qədəm qoymuş və nəticələr də özünü çox gözlətməmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına başa çatmış rəsmi səfəri ikitərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində atılmış növbəti addım oldu. Bəri başdan qeyd etmək lazımdır ki, səfərin nəticələri gözləntiləri tamamilə doğrultdu. Azərbaycanın Birinci vitse-prezidenti Moskvada Rusiya Prezidenti Vladimir Putin, hökumətin başçısı Dmitri Medvedev və parlamentin yuxarı palatasının - Federasiya Şurasının sədri Valentina Matviyenko ilə bir araya gələrək ikitərəfli əməkdaşlığı möhkəmləndirib inkişaf etdirməyin yollarını müzakirə etdi.

Təqdirəlayiq haldır ki, iki ölkə arasında əməkdaşlıq get-gedə intensivləşir. Moskvada keçirilmiş görüşlər zamanı razılıqla vurğulandı ki, son illər müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafı istiqamətində ardıcıl addımlar atılmışdır. Xüsusilə əməkdaşlığın əsas istiqamətlərindən olan ticarət əlaqələrinin yüksələn xətlə inkişafı nəzərə çarpır. Rəqəmlər bu reallığı əks etdirir: keçən ilin yekunlarına görə, qarşılıqlı ticarət dövriyyəsi 19 faiz artaraq 2,6 milyard ABŞ dollarına bərabər olmuş, cari ilin 9 ayı ərzində isə artım 26 faizə çatmışdır.

İnvestisiya sahəsində də ikitərəfli əməkdaşlıq genişlənir. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın müəssisə qeydə alınmış, Rusiya investisiyalarının həcmi 4,9 milyard ABŞ dollarına çatmışdır. Eyni zamanda Azərbaycan Rusiya iqtisadiyyatına 1,2 milyard dollar sərmayə qoymuşdur. Hazırda maşınqayırma və avadanlıq istehsalı, kimya sənayesi, əczaçılıq, nəqliyyat kimi sahələrdə müştərək layihələr həyata keçirilir. Belə ki, "SOCAR Polymer" zavodu inşa edilmişdir, "Azərikimya" müəssisələri modernləşdirilir, Gəncə Avtomobil Zavodunda "KamAZ" səhmdar cəmiyyətinin və "Ural" avtomobil zavodunun yük avtomobillərinin istehsalı və yığılması həyata keçirilir. Hacıqabul Sənaye Məhəlləsində QAZ markalı avtomobillərin yığılması üzrə zavod tikilir. "P-farm" əczaçılıq preparatları zavodunun birinci növbəsinin tikintisi başa çatmaq üzrədir. Rusiya şirkətləri Azərbaycanın neft-qaz sektorunda iştirak edir. Elektrik enerjisi mübadiləsi həyata keçirilir. Azərbaycan, Rusiya və İran arasında "Şimal-Cənub" enerji dəhlizinin yaradılması işi davam edir.

Ardı 4-cü səh.

## Mehriban ƏLİYEVA: "Rusiya ilə Azərbaycanın münasibətləri həqiqətən heç vaxt indiki qədər sıx olmayıb və bu münasibətlərin kökləri, doğrudan da, uzaq keçmişə gedib çıxır"

### Azərbaycanın Birinci vitse-prezidentinin TASS agentliyinə, "Rossiyskaya qazeta"ya və "Rossiya-24" telekanalına müsahibəsi

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 21-24-də Rusiyada rəsmi səfərdə olub. O, Prezident Vladimir Putin ilə görüşüb. Vladimir Putin onu iki ölkənin münasibətlərinin inkişafında və möhkəmlənməsində xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif edib. Bundan əlavə, Mehriban Əliyeva Rusiya Hökumətinin başçısı Dmitri Medvedev və Federasiya Şurasının sədri Valentina Matviyenko ilə də görüşüb.*

Ardı 3-cü səh.



## Gələn ilin dövlət büdcəsi layihəsində dəyişiklik ediləcək

### Milli Məclis 2020-ci ilin büdcə zərfinə daxil olan sənədləri ikinci oxunuşda təsdiqlədi

Noyabrın 14-də Milli Məclisdə birinci oxunuşda təsdiq edilən "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan digər sənədlər dünən parlamentin plenar iclasında ikinci oxunuşda müzakirəyə çıxarıldı. Deputatlar bir daha fikir və təkliflərini səsləndirdilər və müzakirələrin sonunda sənəd ikinci oxunuşda təsdiqləndi.

Milli Məclisin Sədri Oqtay Əsədov dedi ki, gündəliyə daxil edilən 19 məsələdən 9-u büdcə zərfinə aid sənədlərdir. Bu sənədlər ilk oxunuşda müzakirəyə çıxarılıb və 79 deputat çıxış edərək təklif irəli sürüb.

### Ən böyük büdcə

İkinci oxunuşda müzakirəyə çıxarılan sənədlərlə bağlı öncə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi. Bildirdi ki, Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsindədir. İllər keçdikcə Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə öz büdcə parametrlərinin daha da yaxşılaşdırılması üçün tədbirlər görür. Büdcə layihəsi Milli Məclisdə geniş şəkildə müzakirə edilib və deputatlar tərəfindən maraqlı təkliflər irəli sürülüb. Maliyyə və İqtisadiyyat nazirlikləri bu təkliflərə bugünkü iclasda cavab verəcəklər.

Ardı 5-ci səh.

## VƏTƏN SEVDALILARI, DÖNÜKLƏR VƏ SATILMIŞLAR

**PREZİDENT İLHAM ƏLİYEV:** *"Biz bu tarixi yaddan çıxarmamalıyıq və gənclər bu tarixi bilməlidirlər. Bugünkü reallıqları düzgün təhlil etmək, bu reallıqlara düzgün qiymət vermək üçün biz bu acı dövrü yaddan çıxarmamalıyıq. Elə etməliyik ki, gənclər də bunu bilsinlər, hesab etməsinlər ki, bugünkü inkişaf, bugünkü tərəqqi göydən düşüb. Bilsinlər ki, biz buna qanımız, canımız bahasına nail olmuşuq. Biz tariximizin ən rüsvayçı səhifələrini də vərəqləməliyik. Ona görə ki, o rüsvayçı dövr təkrarlanmasın".*

**Əsl həqiqət müqayisədə daha aydın görünür.**
**Odur ki, bəzən müqayisəolunmazları belə müqayisə etmək zorunda qalırsan.**
**Xüsusən zaman bir sıra hadisələrə aydınlıq gətirəndən, hərəni öz yerinə qoyandan, kimin kim olduğuna əlahəzrət tarix əsl qiymətini verdikdən sonra.**
**Gəlin müqayisəolunmazlara zamanın prizmasından bir daha müqayisəli nəzər salaq.**

### ÖNCƏ VƏTƏNDİR

*İnsan nə anasını seçir, nə də Vətəni!*
*Bu, Tanrı qismətidir!*
*Ana da, Vətən də müqəddəs sayılır!*
*Odur ki, Ana Vətən deyirik!*

Təəssüf ki, bəzən doğma anasına nankor çıxanlara, hətta onun qatilinə çevrilənlərə, habelə Vətənə xəyanət edənlərə də rast gəlirik!

Xoşbəxtlikdən belələrinin sayı çox azdır!

**Amma əməlləri və murdarlıqları hamıda eyni nifrət doğurur - anaya əl qaldırıb, Vətəni satanların!**

Səbəblər müxtəlif olsa da...

❖ ❖ ❖

Həyatın müəyyən dönəmlərində anadan ayrı düşürük: qızlar gəlin köçəndə, oğlanlar orduya xidmətə, başqa şəhərdə oxumağa gedəndə və ya yaşayış yerini dəyişəndə.

Vətəndən də gen düşənlər olur: ruzi dalınca başqa ölkəyə üz tutanda, yaxud müxtəlif dövlətlərdə daimi yaşamaq istəyəndə.

Hər ikisi qismət, tale yazısıdır!

*Əslində, bu ayrılıqlar (müvəqqəti və ya daimi) nə anaya, nə də Vətənə olan məhəbbəti azaltmalı deyil!*

*Bəlkə də əksinə, həsrət hesabına bu istək daha da güclənməlidir!*

Ardı 7-ci səh.

## Erməni təxribatının "Sumqayıt ssenarisi"

Ermənilər tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərə imza atmışlar. 1988-ci ilin fevralında Sumqayıtda baş verən hadisələr də ermənilərin və onların havadarlarının Azərbaycan xalqı ilə bağlı dünyada mənfi imic yaratmaq məqsədi güdən qanlı cinayətlərindən biri idi.

Bu hadisə nəticəsində Sumqayıtda müxtəlif millətlərdən olan 32 adam, o cümlədən 26 erməni həlak olmuş, 400-dən çox insan bədən xəsarəti almış, 200-dən çox mənzil talan edilmiş, 50-dən artıq mədəni-məişət obyekti dağıdılmış, 40-dan çox avtomaşın sındırılmış və qismən yandırılmış, şəhərə ovaxtkı qiymətlərlə 10 milyon Amerika dolları məbləğində maddi ziyan vurulmuşdu.

### Sumqayıt hadisələri 70 il hökm sürmüş milli əsarət siyasətinin təzahürü idi

Yaşlı və orta nəslin nümayəndələri 31 il əvvəl - 1988-ci il fevralın 27-28-də Sumqayıtda erməni millətçilərinin xaricdə yaşayan havadarlarının və "Daşnaksütyun" partiyasının dəstəyi ilə qanlı aksiya törətdiklərini yaxşı xatırlayırlar. Erməni şovinistlərinin hadisəni törətməkdə başlıca məqsədləri azərbaycanlıları başkəsən, quldur və qaniçən bir millət kimi dünya ictimaiyyətinə təqdim etmək idi.

Ardı 9-cu səh.

## H.H.Qatsalovun “Dostluq” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi sahəsində səmərəli fəaliyyətinə görə Qatsalov Hacımurad Harumoviç “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 noyabr 2019-cu il*

## V.F.Ələsgərovun Ələt azad iqtisadi zonasının müvəqqəti idarəetmə qurumunun sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Valeh Feyruz oğlu Ələsgərov Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu və onun İdarə Heyəti formalaşana qədər Ələt azad iqtisadi zonasının müvəqqəti idarəetmə qurumunun sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2019-cu il*

## “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1180) aşağıdakı məzmunda 32-ci maddə əlavə edilsin:

**“Maddə 32. Keçid müddəası**

Bu Qanunda nəzərdə tutulmuş Azad Zona səlahiyyətli qurumu və onun İdarə Heyəti formalaşana qədər Azad Zona səlahiyyətli qurumunun və İdarə Heyətinin hüquqlarını və vəzifələrini müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan müvəqqəti idarəetmə qurumu həyata keçirir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2019-cu il*

## “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1670-VQD nömrəli Qanununun tətbiqi, “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 iyun tarixli 107 nömrəli Fərmanında dəyişiklik edilməsi və Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1670-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini, habelə Ələt azad iqtisadi zonasının idarə edilməsini və inkişafını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 iyun tarixli 107 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1197) 2-ci hissəsində “və 19.1-ci maddəsində” sözləri “, 19.1-ci və 32-ci maddələrində” sözləri ilə əvəz edilsin.

2. Ələt azad iqtisadi zonasının (bundan sonra - Azad Zona) müvəqqəti idarəetmə qurumu yaradılsın.

3. Müəyyən edilsin ki:

3.1. Azad Zonanın müvəqqəti idarəetmə qurumu “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununa (bundan sonra - Qanun) uyğun olaraq Azad Zonanın fəaliyyətinə məsul olan, Azad Zonada tənzimləməni və nəzarəti həyata keçirən inzibati qurumdur;

3.2. Qanunun 32-ci maddəsinə uyğun olaraq Azad Zonanın səlahiyyətli qurumu və onun İdarə Heyəti formalaşana qədər həmin səlahiyyətli qurumun və İdarə Heyətinin hüquqlarını və vəzifələrini müvəqqəti idarəetmə qurumu həyata keçirir;

3.3. müvəqqəti idarəetmə qurumuna Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müvəqqəti idarəetmə qurumunun sədri (bundan sonra - sədr) rəhbərlik edir;

3.4. sədr Azərbaycan Respublikasının Prezidentinə tabedir və ona hesabat verir;

3.5. müvəqqəti idarəetmə qurumunun idarə olunması ilə bağlı müvafiq sənədləri sədr qəbul edir;

3.6. müvəqqəti idarəetmə qurumunun idarə olunmasına, strateji məqsədlərinə çatmasına və fəaliyyətinə görə sədr məsuliyyət daşıyır;

3.7. müvəqqəti idarəetmə qurumunun maliyyə məsələləri Qanunun 8-ci maddəsinə uyğun olaraq tənzimlənir.

4. Sədrə tapşırılsın ki:

4.1. üç ay müddətində:

4.1.1. müvəqqəti idarəetmə qurumunun təşkilati strukturunu müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.1.2. müvəqqəti idarəetmə qurumunun büdcəsini təsdiq etsin;

4.2. Azad Zonanın idarə edilməsi və inkişafı ilə bağlı Qanundan irəli gələn digər səlahiyyətlərin həyata keçirilməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Qanunun 8-ci maddəsinə uyğun olaraq müvəqqəti idarəetmə qurumunun öz hüquq və vəzifələrini həyata keçirməsi üçün maliyyələşmə məsələlərinin həllini təmin etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

6.1. müvəqqəti idarəetmə qurumunun öz hüquq və vəzifələrini həyata keçirməsi üçün onun müvafiq inzibati bina ilə təmin edilməsi ilə bağlı tədbirlər görsün;

6.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət adından yaradılan publik hüquqi şəxslər və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər bu Fərmandan irəli gələn məsələlərin həlli ilə bağlı müvəqqəti idarəetmə qurumuna lazımi kömək göstərilməsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2019-cu il*

## Bakı Dövlət Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Bakı Dövlət Universitetinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**“Şərəf” ordeni ilə**

Xələfov Abuzər Alı oğlu

**“Şöhrət” ordeni ilə**

Babaxanov Neron Aslan oğlu
Əliyev Bəxtiyar Həmzə oğlu
Əli-Zadə Hikmət Abdul oğlu
Həsənov Ralfrid Əhədoviç
İbrahimov Vaqif Rza oğlu
İsmayılzadə Qüdrət Seyfulla oğlu
Kazımzadə Aydın Həsən oğlu
Mehdiyev Məhəmməd Fərman oğlu
Məmmədov Cahangir Abduləli oğlu
Mənsimov Kamil Bayraməli oğlu
Paşayeva Nərgiz Arif qızı

**2-ci dərəcəli “Əmək” ordeni ilə**

Məhərrəmov Abel Məmmədəli oğlu
Məmmədov Yusif Əbülfət oğlu

**3-cü dərəcəli “Əmək” ordeni ilə**

Abasov Abdulla Əsgər oğlu
Abdinov Əhməd Şahvələd oğlu
Babayev Məcnun Şıxbaba oğlu
Əhmədli Nəsir Abbas oğlu
Əhmədov Eldar İsa oğlu
Əhmədov Əli Mustafa oğlu
Əliyev Ələkbər Əli Ağa oğlu
Əlizadə Yalçın Mustafa oğlu
Əzizov Elxan Zəkəriyə oğlu
Xasayev Adil İmran oğlu
İsayev Sokrat Abbasəli oğlu
İsgəndərov Nizaməddin Şirin oğlu
Qocayev Niftalı Mehralı oğlu
Mehdiyeva Qalina Yuryevna
Məmmədov Musa Nəsib oğlu
Məmmədova Əsmətxanım Bəyəhməd qızı
Məsimov Eldar Əli oğlu
Mirzəyev Sabir Sultanağa oğlu
Muxtarova Əsməd İmamməmməd qızı
Mütəllimov Təhsin Mütəllim oğlu
Paşayeva Ədibə Mir Cəlal qızı
Vahidov Fazil Qulam Mirzə oğlu
Vəliyev Həmid Alı oğlu
Zeynalov İbrahim Xudaverdi oğlu

**“Tərəqqi” medalı ilə**

Abbasov Vahid Hacıbəy oğlu
Abbasova Firuzə Məmməd qızı
Ağayev İsfəndiyar Bəhlul oğlu
Ağayev Şahin Sabir oğlu
Aslan Knyaz İlyas oğlu
Cavadov Rövşən Əli oğlu
Cəfərov Mikayıl Məhəmməd oğlu
Əliyeva İfrat Səlim qızı
Əliyeva Kamilə Ramiz qızı
Hacıyeva Sevinc Rafiq qızı
Hüseynova İradə Mehtiqulu qızı
Xəndan Aydan Rəfiq Zəka qızı
İbrahimbəyova Rəna Fuad qızı
İsmayılov Xəlil İsmayıl oğlu
İsmayılova Sima Paşa qızı
Qasımov Vaqif Əli Muxtar oğlu
Qasımova Aidə Şahlar qızı
Quliyeva Lalə Hüseyn qızı
Qurbanov Azad İsa oğlu
Lebedeva Nelli Nikolayevna
Mehdiyeva Nisbət Canməmməd qızı
Məmmədov Alxan Bayram oğlu
Məmmədov Elçin Əli oğlu
Məmmədov Hüseyn Mikayıl oğlu
Məmmədov Kərəm Cahangir oğlu
Məmmədov Rüstəm Fəxrəddin oğlu
Məmmədova Məhluqə Arif qızı
Məmmədova Sevinc İbrahimxəlil qızı
Miriyeva Nuridə Telman qızı
Mirzəyev Əmirxan Nizam oğlu
Mirzəyev Fərhad Əlif oğlu
Muradov Mustafa Bayram oğlu
Ramazanov Məhəmmədəli Əhməd oğlu
Sultanlı Nərmin Əli qızı
Şəmilov Nazim Telman oğlu
Yusifov Məmməd Rəşid oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2019-cu il*

## Bakı Dövlət Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Bakı Dövlət Universitetinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Əməkdar elm xadimi”**

Əliyev Fikrət Əhmədəli oğlu
Əzizov Abdulsəyid Əbdülhəmid oğlu
Qurbanov Elşad Məcnun oğlu
Səlimov Arif Ağacan oğlu
Şəmsizadə Nizaməddin Şəmsəddin oğlu
Yaqubov Məmməd Haqverdi oğlu

**“Əməkdar müəllim”**

Abbasova İpək Soltan qızı
Abdullayev İmran Məmmədəli oğlu
Abdullayev Rizvan Əhməd oğlu
Ağakişiyev Əliheydər Yunis oğlu
Allahverdiyeva Səfurə Bayram qızı
Bayramov Rafael Vəli oğlu
Bədəlbəyli Ülfət İsmayıl qızı
Cəfərov Yasin İsa oğlu
Cəlilov Abutalıb Hümbət oğlu
Fiqarova Sofya Rüstəm qızı
Hüseynov Hidayət Məmməd oğlu
Qocamanov Məqsəd Hüseyn oğlu
Quliyev Hamlet Fərman oğlu
Mahmudzadə Ramin Əlinazim oğlu
Məmmədov Kərəm Hətəm oğlu
Məmmədov Knyaz Şiraslan oğlu
Məmmədov Nuru Zeynalabdin oğlu
Məmmədova Afət Oqtay qızı
Orucov Elşar Qurban oğlu
Orucov Həmzağa Davud oğlu
Rzayev Etibar Abasəli oğlu
Vəliyev İslam Dini oğlu
Yusubov Şakir Şıxı oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2019-cu il*

## Bakı Dövlət Universitetinin əməkdaşlarına Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və “Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Bakı Dövlət Universitetinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Abdullayev Sərhəddin Qubaddin oğlu
Göyçayskiy Şövqisəfa Yusifziya oğlu
Quliyev Akif Ələkbər oğlu
Rüstəmov İzzət Əşrəf oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2019-cu il*

## Bakı Dövlət Universitetinin əməkdaşlarının “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Bakı Dövlət Universitetinin aşağıdakı əməkdaşları “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin:

Babazadə Vasif Məmməd Ağa oğlu
Əliyeva İradə Nurəddin qızı
İbrahimova Sara Hökmulla qızı
İsgəndərov Anar Camal oğlu
Qurbanov Əsədulla Cücü oğlu
Məlikova Məsumə Fazil qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2019-cu il*

## “Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 fevral tarixli 927 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 fevral tarixli 927 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 258; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 oktyabr tarixli 1481 nömrəli Sərəncamı) Əlavə - “Lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulmuş çoxmənzilli binaların şəhər və rayonlar üzrə bölgüsünə dair siyahı”nın “Binaların sayı, ədəd” sütununda “237” rəqəmləri “266” rəqəmləri ilə, “146” rəqəmləri “170” rəqəmləri ilə, “İstismara yararsız liftlərin sayı, ədəd” sütunlarında “751” rəqəmləri “798” rəqəmləri ilə, “542” rəqəmləri “581” rəqəmləri ilə, “620” rəqəmləri “664” rəqəmləri ilə, “413” rəqəmləri “449” rəqəmləri ilə, “131” rəqəmləri “134” rəqəmləri ilə, “129” rəqəmləri “132” rəqəmləri ilə, “Sayı, ədəd” sütunlarında “192” rəqəmləri “218” rəqəmləri ilə, “103” rəqəmləri “124” rəqəmləri ilə, “45” rəqəmləri “48” rəqəmləri ilə, “43” rəqəmləri “46” rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2019-cu il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

İcazə verin Dünya dini liderlərinin II Bakı Sammitinin yüksək səviyyədə təşkil edilməsinə və məhsuldar keçirilməsinə, həmçinin sammitin qonaqlarının və iştirakçılarının səmimi qəbuluna görə Rusiya Federasiyası Müsəlmanları Mərkəzi Ruhani İdarəsi adından və öz adımdan Sizə səmimi təşəkkürümü bildirim.

Azərbaycan Respublikasında İslam mənəvi irsinin əbədi dəyərlərinin layiqincə bərqərar olması, Azərbaycan xalqının bənzərsiz mədəniyyətinin inkişafı, Rusiya Federasiyası ilə dostluq əlaqələrinin möhkəmlənməsi və inkişafı üçün Sizin fədakar səyləriniz sayəsində hər cür şərait yaradılıb.

Sizə və bütün Azərbaycan xalqına səmimi ehtiramımı və xoş arzularımı bildirirəm.

Sizə xoş dualar edir və mehriban qonşular kimi əməkdaşlığımızın davam edəcəyinə ümid bəsləyirəm.

***Şeyxülislam Talqat Səfa TACUDDİN,***
***Ali müfti, Rusiya Federasiyası Müsəlmanları Mərkəzi Ruhani İdarəsinin sədri***

Hörmətli cənab Prezident!

Dünya dini liderlərinin II Bakı Sammitinin gözəl təşkili və keçirilməsi münasibətilə Sizə çoxmilyonlu Rusiya müsəlmanları ümməti adından və şəxsən öz adımdan dərin ehtiramımı və təşəkkürümü bildirmək istəyirəm.

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri və Bakı Sammitinin iştirakçısı kimi qeyd etməliyəm ki, bu əlamətdar tədbir ən yüksək dünya standartları səviyyəsində keçirildi. Dünya dini liderləri, aparıcı ekspertlər, görkəmli alimlərlə görüşmək və konfessiyalararası və sivilizasiyalararası dialoqun ümdə problemlərini müzakirə etmək üçün yaradılmış nadir imkana görə də Sizə səmimi təşəkkürümü bildirirəm. Sammitdən aldığımız ən gözəl təəssüratlar Azərbaycana xas olan misilsiz qonaqpərvərlik və xoşniyyətlilik rəylərini daha da artırdı.

Cənab Prezident, Sizin rəhbərlik etdiyiniz bu illər ərzində ölkədə bərqərar olmuş dövlət-din əməkdaşlığının bütün xalq naminə xüsusi ab-hava yaratmasını sevinclə qeyd edirəm. Mənim İslamda din qardaşım və yaxın dostum Şeyxülislam Allahşükür Paşazadə bizim hər görüşümüzdə bunu qeyd edir və biz Sizin bütün xalqlar arasında sülh və əməkdaşlığın möhkəmlənməsinə yönəlmiş əməlisaleh işlərinizi xatırlayaraq Sizə dua edirik.

Dünya dini liderlərinin II Bakı Sammiti Sizin Azərbaycanda tolerantlığı və multikulturalizmi inkişaf etdirmək mövqeyinizin dəyişmədiyini təsdiqlədi. Azərbaycan ümumbəşəri əhəmiyyət kəsb edən bu istiqamətlərdə inamla dünya liderinə çevrilir.

Cənab Prezident, icazə verin dünya miqyaslı və dünya əhəmiyyətli tədbirin təşkilinə görə Sizə və Sizin timsalınızda qonaqpərvər, əməksevər və çox tolerant Azərbaycan xalqına bir daha təşəkkür edim.

Sizə əmin-amanlıq, Allahın şəfqət və mərhəmətini diləyirəm. Amin.

*Hörmətlə və xoş dualarla,*

***Müfti Şeyx Ravil QAYNUTDİN,***
***Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri, Rusiya Müftilər Şurasının sədri, Rusiya Federasiyasının Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü***

Hörmətli cənab Prezident!

Biz - Çin Taoist Assosiasiyasının vitse-prezidenti Yuan Jihonq və baş katibin müavini Liu Shitian bu il noyabrın 14-15-də Dünya dini liderlərinin II Bakı Sammitində iştirak etdik. Mən sammitin təşkilat komitəsinin səmimi qəbuluna görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Sammit çox uğurla keçdi, multikultural ünsiyyət və müxtəlif dinlər arasında inteqrasiyanın təşviqində böyük irəliləyiş əldə olundu. Bu, ölkənizin dünyada sülhü qorumaq sahəsində məsuliyyətini əks etdirir.

Assosiasiyamız ölkənizlə daha da sıx əlaqə saxlamağa, iki ölkənin dini mədəniyyəti arasında ünsiyyət və əməkdaşlığı artırmağa, bütün bəşəriyyətin harmonik inkişafına birlikdə səy göstərməyə və töhfələr verməyə ümid bəsləyir.

Sonda assosiasiyamızın Sizə olan dərin hörmət və minnətdarlığını qəbul etməyinizi xahiş edirik.

***Yuan JİHONQ,***
***Çin Taoist Assosiasiyasının vitse-prezidenti***

Zati-aliləri!

Mən noyabrın 14-15-də Bakı şəhərində keçirilən Dünya dini liderlərinin II Sammitində Vatikanın Dinlərarası Pontifik Şurasının İslam ilə dialoq departamentini təmsil etmək şərəfinə nail olmuşam.

Siz birinci xanım Mehriban Əliyeva və qızınız Leyla Əliyeva ilə birlikdə tədbirin açılış mərasimində iştirak etməyinizlə ona öz himayə və dəstəyinizi vermiş oldunuz. Siz həmçinin Dünya dini liderlərinin II Bakı Sammitinin iştirakçılarını rəsmi ziyafətə dəvət edərək, xanımınız və qızınızla birlikdə həmin tədbirdə iştirak etdiniz.

Siz həmin sammitin keçirilməsi ilə ölkənizin görkəmli xadimi Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illik yubileyini qeyd etmək kimi daha bir məqsədə nail oldunuz.

Zati-aliləri, hər hansı ölkənin gücü və sərvətlərini bir neçə məqsədlər üçün istifadə etmək olar. Bakı Sammitinə gəldikdə isə, tədbirin təşkilatçıları öz yüksək bacarıq və əzmkarlıqları ilə, eləcə də mühüm resurslardan istifadə etməklə qarşıya müxtəlif dinləri təmsil edən dini liderlər və xadimlər arasında anlaşma, qarşılıqlı hörmət və dostluğun təşviq olunması kimi nəcib məqsəd qoymuşdular. Tədbir zamanı iştirakçılar arasında mövcud olan xoş mühit Sizin rəhbərliyiniz sayəsində ölkənizdə müxtəlif dini icmalar arasında yaradılmış sabit və harmonik münasibətləri nümayiş etdirir.

Bu xeyirxah fəaliyyətinizə görə zati-alinizə dərin təşəkkürümü və səmimi minnətdarlığımı bildirirəm.

Uca Tanrı Sizi, ailənizi, ölkənizi qorusun və bol ruzi-bərəkət bəxş etsin.

***Xaled AKEŞ,***
***Vatikanın Dinlərarası Pontifik Şurasının İslam ilə dialoq departamentinin sədri***

Əs-səlamu-əleykum və rəhmətullahi və bərəkətuhu.

Möhtərəm Prezident.

Zati-alinizin rəhbərliyi ilə təşkil olunmuş və açılışına təşrif buyurduğunuz Dünya dini liderlərinin II Bakı Sammitində iştirak etmək şərəfinə nail oldum. Bu sammit müasir dövrümüzdə İslam dünyasında ən əhəmiyyətli tədbirlərdən biri hesab olunur. Zirvə görüşü bəşəriyyətə xidmət edən, İslam dininin təməl prinsiplərinin qorunmasına daim səy göstərən, bəşəriyyəti düzgün məcrasından çıxarmağa, nəcib hədəflərindən yayındırıb məhv etməyə çalışanlara və dini təhrif edənlərə qarşı mübarizə aparan mömin şəxslərin iştirakı ilə fərqlənirdi.

Bakı Bəyannaməsi İslam dünyasının mövcud vəziyyətinin, zati-alinizin dinin bəşəri roluna verdiyi önəm və rəğbəti əks etdirir. Uca Allah Sizə daim uğurlar bəxş etsin. Arzu edirəm ki, bu və digər tədbirlərdə söylədiyiniz fikirlərin davamı olaraq aramızda dinin bəşəriyyətə xidmətini təşviq edən birgə əməkdaşlıq, qarşılıqlı əlaqələr daha da möhkəmlənsin.

Zati-aliləri, sammitdə iştirak etdiyinizə, göstərdiyiniz qonaqpərvərliyə, Sizdən, xalqınızdan və təşkilatçılardan gördüyümüz xoş münasibətə görə təşəkkür edirik. Sizinlə bir daha görüşmək şərəfinə nail olmağımı arzulayıram. Ümid edirəm ki, Bakı Bəyannaməsinin prinsiplərinə və dəyərlərinə sadiq qalacağıq.

Uca Allah Sizi və Azərbaycanı qorusun.

***Dr. Xalid Əbdülvahhab Əl-MULLA,***
***İraq Üləmaları Cəmiyyətinin sədri, İraq Baş Nazirinin dini məsələlər üzrə müşaviri***

# *Mehriban ƏLİYEVA:* “Rusiya ilə Azərbaycanın münasibətləri həqiqətən heç vaxt indiki qədər sıx olmayıb və bu münasibətlərin kökləri, doğrudan da, uzaq keçmişə gedib çıxır”

## Azərbaycanın Birinci vitse-prezidentinin TASS agentliyinə, “Rossiyskaya qazeta”ya və “Rossiya-24” telekanalına müsahibəsi

*Əvvəli 1-ci səh.*

*Mehriban Əliyeva səfər müddətində Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bərpa olunmuş “Azərbaycan” pavilyonunun açılışında iştirak edib.*

*Birinci vitse-prezident TASS agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusmana TASS, “Rossiyskaya qazeta” və “Rossiya-24” telekanalı üçün müsahibəsində səfərinin yekunları barədə danışıb. AZƏRTAC müsahibəni təqdim edir.*

**- Hər vaxtınız xeyir, Mehriban xanım. Sizinlə görüşmək imkanına görə çox sağ olun. Sizin Moskvaya, Rusiyanın paytaxtına rəsmi səfəriniz başa çatır. Səfərinizin proqramı son dərəcə zəngin olub, çoxlu görüşlər, o cümlədən Rusiyanın rəhbərliyi ilə görüşlər keçirmisiniz. Səfərin yekunlarını necə qiymətləndirirsiniz? Bu günlər ərzində Moskvada Sizin üçün ən çox yadda qalan nə olub?**

- Hər vaxtınız xeyir, hörmətli Mixail Solomonoviç. Sizi görməyimə çox şadam. Yenidən Moskvada olmağıma çox şadam. Mən ilk növbədə Rusiya Federasiyasına rəsmi səfərə dəvətə, səmimi qəbula, maraqlı görüşlərə və danışıqlara görə Rusiya Federasiyasının rəhbərliyinə, Prezident Vladimir Vladimiroviç Putinə, hökumətin başçısı Dmitri Anatolyeviç Medvedevə, Federasiya Şurasının sədri Valentina İvanovna Matviyenkoya dərin minnətdarlığımı bildirmək istəyirəm.

Ölkələrimizi möhkəm dostluq və mehriban qonşuluq ənənələri bağlayır. Bu gün biz Azərbaycan-Rusiya münasibətlərini strateji tərəfdaşlıq kimi səciyyələndiririk. Hesab edirəm ki, hazırda ölkələrimiz arasında münasibətlər öz tarixi ərzində ən yüksək səviyyədədir.

Fəal siyasi dialoq mövcuddur, Azərbaycan və Rusiya prezidentləri arasında mütəmadi görüşlər bizim münasibətlərin çoxvektorluluğunu təyin edir və demək olar ki, bütün sahələrdə qarşılıqlı əlaqələrin inkişafına təkan verir.

Qeyd etdiyim kimi, Azərbaycan ilə Rusiyanı qədim və möhkəm dostluq, mehriban qonşuluq ənənələri bağlayır, ölkələrimiz dinamik inkişaf edir. Bu, dövlətlərarası əlaqələrin genişlənməsi üçün yeni imkanlar yaradır. Siz qeyd etdiyiniz kimi, mənim səfərim dolğun, maraqlı oldu. Əlbəttə, ilk növbədə Rusiya Federasiyasının Prezidenti, hörmətli Vladimir Vladimiroviç Putin ilə görüşümü qeyd etmək istəyirəm. Bu, bizim ikitərəfli münasibətlərin bir çox aspektlərini müzakirə etmək üçün gözəl fürsət idi. Bu görüş zamanı Rusiya Federasiyasının Prezidenti mənə “Dostluq” ordenini təqdim etdi. Bu mükafatı almaq mənim üçün böyük şərəfdir, mən onu Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyəsinin daha bir təsdiqi kimi qiymətləndirirəm. Əlbəttə, şadam ki, bizim strateji tərəfdaşlığımızın inkişafı işində mənim də müəyyən töhfəm var.

**- Mehriban xanım, Siz tamamilə haqlı olaraq dediniz ki, Rusiya ilə Azərbaycanın münasibətləri həqiqətən heç vaxt indiki qədər sıx olmayıb və bu münasibətlərin kökləri, doğrudan da, uzaq keçmişə gedib çıxır. Lakin digər tərəfdən, bugünkü münasibətlərə görə biz, əlbəttə, ilk növbədə, - bunu Siz də qeyd etdiniz, - ölkələrimizin liderlərinin, Prezident Vladimir Vladimiroviç Putinin və Prezident İlham Heydər oğlu Əliyevin sıx qarşılıqlı əlaqələrinə borcluyuq. Onlar bu əlaqələri daha da möhkəmləndirirlər. Bununla belə, - Siz çoxvektorluluq barədə danışdınız, - Sizin fikrinizcə, bizim əməkdaşlığımız hansı sahələrdə daha perspektivlidir? Hansı sahələrdə bu əməkdaşlıq daha real bəhrələr verir və harada, ola bilsin, Sizin fikrinizcə, hələ reallaşdırılmamış potensial var?**



- Qeyd etdiyim kimi, Rusiya-Azərbaycan münasibətləri çox geniş spektri əhatə edir. Buraya iqtisadi blok, humanitar sahədə qarşılıqlı fəaliyyət daxildir. Azərbaycan və Rusiya beynəlxalq arenada bir-birini dəstəkləyir. İqtisadi sahəyə, bu sahədə qarşılıqlı əlaqələrə nəzər salsaq, burada uğurlu qarşılıqlı fəaliyyət artıq öz bəhrələrini verir. Rusiya Azərbaycanın ticarət tərəfdaşlarından biridir, qeyri-neft məhsullarının idxalına görə birinci yeri tutur. Sevindirici haldır ki, ölkələrimiz arasında əmtəə dövriyyəsinin durmadan artması müşahidə olunur. Ötən il Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsi 19 faiz artaraq 2,6 milyard dollara bərabər olub. Cari ilin doqquz ayı ərzində bu göstəricinin artıq 26 faizə çatması müşahidə olunur, qarşılıqlı sərmayə qoyuluşu göstəriciləri də yaxşıdır. Rusiyanın Azərbaycanda sərmayə qoyuluşunun həcmi 4,9 milyard dollardır. Azərbaycan Rusiya iqtisadiyyatına 1,2 milyard dollar investisiya yatırıb. Çox sevindirici haldır ki, son vaxtlar neft sektorunda ənənəvi qarşılıqlı fəaliyyətlə bərabər, qeyri-neft sektorunda, maşınqayırma, istehsal avadanlığı, kimya sənayesi, əczaçılıq, energetika, nəqliyyat kimi sahələrdə çoxsaylı müştərək layihələr inkişaf etdirilir.

Konkret nümunələr kimi “SOCAR Polymer” müəssisəsinin, “Azərikimya” müəssisələrinin modernləşdirilməsi, “KamAZ” yük avtomobillərinin yığılması və istehsalı, “P-Farm” dərman preparatları zavodunun birinci növbəsinin tikintisini göstərə bilərəm.

Tranzit-nəqliyyat sistemi bizim qarşılıqlı fəaliyyətdə çox mühüm və perspektivli istiqamətdir. Burada Qərbi Avropa bazarlarını asiyalı istehlakçılarla birləşdirəcək “Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi”nin yaradılması ən mühüm müştərək layihələrdən biridir. Bu layihənin reallaşdırılması başlayandan bəri ötən il uzunluğu yeddi min kilometrdən çox olan bu marşrut üzrə yükdaşımaların həcmi səkkiz dəfə, cari ilin altı ayı ərzində isə 60 faiz artıb. Gələn il həmin layihə çərçivəsində Bakıdan Rusiya Federasiyası ilə sərhədə qədər yeni dördzolaqlı magistral yol istifadəyə veriləcək. Bu ilin sonuna qədər sərhədyanı Samur çayı üzərindən birgə tikilən körpünün inşası başa çatacaq və o, istifadəyə veriləcək.

**- Mehriban xanım, mənim bildiyimə görə, Siz Birinci vitse-prezident kimi humanitar, sosial və mədəni sahələrin inkişafına xüsusi diqqət yetirirsiniz. Bu sahələr Sizin ciddi maraq obyektinizdir. Mənim fikrimcə, bu da Rusiya-Azərbaycan əməkdaşlığının çox mühüm amilidir. Bu baxımdan bizim qarşılıqlı münasibətlərimizin bu sahəsi necə inkişaf edir? Axı bu humanitar sahə bütün insanlara, mənəvi həyata, bizim, bir daha deyirəm, tarixi köklərimizə aiddir. Bu mənada indi Siz nəyi daha vacib hesab edirsiniz?**

- Siz tamamilə düzgün vurğuladınız. Humanitar sfera, humanitar sahə, dövlətlərarası münasibətlərdə belə adlandırıldığı kimi, şəxsiyyətlərarası ünsiyyətdir. Bunu qeyd etməyə çox şadam ki, humanitar sahədə Azərbaycan-Rusiya münasibətləri nümunəvi xarakter daşıyır. Bizim paytaxtımızda Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə yaradılmış Beynəlxalq Humanitar Forum mütəmadi keçirilir. Azərbaycanda rus mədəniyyətinə və rus dilinə qayğıkeş və hörmətli münasibət hamıya məlumdur. Bizim ölkəmizdə 300-dən çox məktəbdə tədris rus dilində aparılır, hər il rus dili olimpiadası keçirilir, 14 dövlət ali məktəbində rus dili kafedraları və rus bölməsi fəaliyyət göstərir. Keçən il 130 mindən çox orta məktəb şagirdi və 25 mindən artıq ali məktəb tələbəsi rus dilində təhsil alıb.

Ali məktəblər arasında əməkdaşlıq da yüksək səviyyədədir. Azərbaycanda, bizim paytaxtda Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birlikdə icrasına başlanıb.

Azərbaycanda çoxminli rusdilli icma var, bu icma ölkəmizin ümumi inkişafına layiqli töhfə verir, çoxsaylı sərgilər keçirilir. Bu il Azərbaycanda Rusiya Mədəniyyəti Günləri keçirilib. Gələn il qarşılıqlı tədbir - Rusiyada Azərbaycan Mədəniyyəti Günləri keçirilməsi planlaşdırılır. Dediyim kimi, bu sahədə bizim münasibətlərimiz nümunəvidir. Bu, çox vacibdir, çünki bu sahə həqiqətən insanları, xalqları yaxınlaşdırır. Biz də bu ortaq humanitar məkanı qoruyub saxlamaqda maraqlıyıq.

**- Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyev dəfələrlə deyib, - biz bunu müxtəlif tribunlardan kifayət qədər tez-tez eşidirik, - təəssüf ki, bir sıra Avropa ölkələrində özünü doğrulda bilməmiş multikulturalizm Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir, üstəlik, bu gün Azərbaycanda onu real olaraq müşahidə edirik. Belə adlandırılan çoxkonfessiyalılıq da multikulturalizmlə qarşılıqlı bağlıdır. Lap yaxın vaxtlarda Bakıda Dünya dini liderlərinin II Sammiti keçirildi. Həmin tədbirdə dünyanın ən müxtəlif dinlərinin nümayəndələri iştirak edirdi. Onlar hamısı Azərbaycanda heyrətamiz çoxkonfessiyalılığı qeyd etdilər. Buna nəyin hesabına nail olursunuz? Bu, yalnız tarixi köklərdən irəli gəlir, yoxsa bugünkü Azərbaycan iqtidarının məqsədyönlü fəaliyyətinin nəticəsidir? Bu baxımdan Siz gələcək inkişafı necə görürsünüz?**

- Azərbaycan Respublikasının Prezidenti öz çıxışlarının birində qeyd edib ki, “multikulturalizm” sözü bizim leksikonumuzda yetərincə təzə sözdür, lakin bu sözün arxasında dayanan ənənələrin çoxəsrlik tarixi var. Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin qovuşuğunda yerləşir və sözsüz ki, bu, onun çoxəsrlik tolerantlıq və multikulturalizm mədəniyyətinə də təsir göstərir. Müxtəlif millətlərə, mədəniyyətlərə və dinlərə mənsub insanlar əsrlər boyu ölkəmizdə sülh, həmrəylik və dostluq şəraitində yaşayıblar və yaşayırlar, bu gün də bu ənənə dövlət siyasəti ilə dəstəklənir. Buna görə Azərbaycan bu gün beynəlxalq aləmdə artıq dinlərarası, millətlərarası, mədəniyyətlərarası dialoqun möhkəmlənməsinə yönəlmiş çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyi tanınmış məkana çevrilib. Siz bu yaxınlarda bizim paytaxtda Dünya dini liderlərinin II Sammitinin keçirilməsini qeyd etdiniz.

Siz tamamilə düzgün olaraq vurğuladınız ki, müasir dünyada, təəssüf ki, ümumi gərginlik artır. Biz irqçilik, ksenofobiya, islamofobiya, antisemitizm, millətlərarası və dinlərarası qarşıdurmanın qızışdırılmasında dindən istifadə edilməsi kimi təhlükəli meyillərin artmasının şahidləriyik. Bu gün bütün bu məsələlər ümumbəşəri əhəmiyyət kəsb edir və Azərbaycanda bu məsələlərin ən yüksək dövlət səviyyəsində qaldırılması, zənnimcə, təsadüfi deyil, ona görə ki, mənim dediyim kimi, Azərbaycanda qədim ənənələr var. Bununla bərabər, belə beynəlxalq tədbirlərdə səslənən bu cür ismarıcların bütün dünya ictimaiyyətinə çatdırılması vacibdir. Dünya dini liderlərinin II Sammitində Moskvanın və bütün Rusiyanın patriarxı Kirill də iştirak və çıxış etdi. Hesab edirəm ki, onun bütün ismarıcları, müraciətləri bu gün aktualdır, bəlkə də həmişəkindən daha aktualdır, ona görə ki, dünyada bu təhlükəli hadisələrin artması meyli təəssüf doğurur. Mən əminəm ki, bu təhdidləri yalnız ümumi səylərlə, həm dövlət başçıları səviyyəsində, həm də adi vətəndaş cəmiyyəti arasında səylərlə dayandırmaq olar.

**- Mənim daha bir sualım var. Sizin Moskvada keçirdiyiniz çox mühüm görüşlər arasında, zənnimcə, bir görüş xüsusi fərqlənib və Rusiya mətbuatında geniş işıqlandırılıb. Mən əvvəllər Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi adlandırılan məkanda yeni “Azərbaycan” pavilyonunun açılışını nəzərdə tuturam. Bu pavilyonun da öz tarixi var və Siz açılışda bu barədə çox yaxşı danışdınız. Lakin mən bir məqama diqqət yetirdim ki, pavilyonun yenilənməsi, faktiki olaraq yenidən yaranması Sizin başçılıq etdiyiniz Heydər Əliyev Fondu ilə bağlıdır. Bu işdə çoxları, o cümlədən Moskvanın hakimiyyət orqanları, Moskva təşkilatları da iştirak ediblər, lakin mən belə başa düşürəm ki, bütün bunlara Sizin başçılıq etdiyiniz Heydər Əliyev Fondu himayədarlıq edib. Bununla əlaqədar mən sərginin ərazisində, digər tərəfdən moskvalılar üçün də tamamilə nadir məkana çevrilmiş pavilyon mövzusuna bir daha qayıtmaq istərdim və xahiş edərdim ki, Siz fond barədə bir neçə kəlmə deyəsiniz. Çünki o, iri beynəlxalq ictimai humanitar xeyriyyə təşkilatlarından birinə çevrilib. Bu gün o, dünyada çox nüfuzlu humanitar təşkilat imicinə malikdir və bütün bu illər ərzində fonda Siz başçılıq edirsiniz. Siz bu fondun gələcək inkişafını, deyək ki, bu pavilyon prizmasından necə görürsünüz?**

- Mən ilk növbədə Rusiya Federasiyasının rəhbərliyinə, Moskva şəhəri hökumətinə Azərbaycan dövləti üçün Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin ərazisində milli “Azərbaycan” pavilyonumuzun bərpasında iştirak etmək imkanı yaratdıqlarına görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Çox şadam ki, bu əlamətdar hadisə mənim rəsmi səfərim çərçivəsində baş verdi. Bizim milli pavilyonun açılışında iştirak etməkdən qürur duyurdum. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi bu gün dünyanın ən iri sərgi mərkəzlərindən biridir. Hər il Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə çoxsaylı qonaqlar gəlir və Moskvanın bu memarlıq-mədəniyyət mərkəzinin tarixi həqiqətən çox maraqlıdır. Bizim “Azərbaycan” pavilyonu 1939-cu ildə inşa edilib, sonrakı illərdə başqa pavilyonlar kimi, o da çoxsaylı dəyişikliklərə məruz qalıb. 1966-cı ildə pavilyon bütöv metal qutu ilə örtülüb, onun siması tamamilə dəyişib və o öz funksional və milli identikliyini, demək olar ki, itirib. Bərpa işləri 2017-ci ildə başlandı. Təbii ki, bu, Azərbaycan dövlətinin qərarı idi və Heydər Əliyev Fondunun rəhbərliyi altında həyata keçirilirdi. Qeyd etməliyəm ki, fondun komandası bu işə çox böyük qayğı və məsuliyyətlə yanaşıb, çünki pavilyonun ilkin simasını bərpa etmək, onun milli autentikliyini qaytarmaq məqsədi qarşıya qoyulmuşdu. Böyük işçi qrupu yaradıldı, həm Rusiyadan, həm də Azərbaycandan ən yaxşı mütəxəssislər cəlb edildi. Orijinal simanı bərpa etmək üçün hər incəliyə, hətta naxışlara da diqqət yetirilirdi. Əlbəttə, bizim bu gün gördüklərimiz çox sevindiricidir, əminəm ki, bu, hər bir azərbaycanlını sevindirir. Yenilənmiş “Azərbaycan” pavilyonu öz qapılarını Rusiya paytaxtının qonaqlarının da üzünə açır. Bununla bərabər, o, ölkələrimiz arasında, xalqlarımız arasında, o cümlədən humanitar sahədə əlaqələrin möhkəmlənməsinə xidmət edəcək daha bir məkandır.

Fonda gəldikdə isə, Heydər Əliyev Fondu 2004-cü ildə yaradılıb. Onun fəaliyyətinin əsas istiqamətləri təhsilin, səhiyyənin, gənclərin, ölkəmizin əhalisinin ən imkansız təbəqələrinin dəstəklənməsi, o cümlədən qaçqınlara və məcburi köçkünlərə kömək kimi mühüm sahələrdir. Zənnimcə, belə desəm yanılmaram ki, fond 15 illik fəaliyyəti ərzində həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda böyük hörmət qazanıb. Fondun əsas ideologiyası ondan ibarətdir ki, irimiqyaslı layihələri reallaşdırmaqla bərabər bu illər ərzində ölkəmizdə fondun xətti ilə həqiqətən çox işlər görülüb, yüzlərlə məktəb və uşaq bağçası tikilib, tarixi abidələr bərpa edilib, çoxsaylı tədbirlər təşkil edilib. Biz həmişə bir məqamı unutmamağa çalışırıq ki, bütün bu işlər ölkəmizdə insanların daha yaxşı yaşamasına yönəlib, biz konkret vətəndaşı görməyə və eşitməyə çalışırıq. Ona görə fondun hamıya məlum olan, yaxşı işıqlandırılan işindən əlavə, bizim elan etmədiyimiz işlər də var. Yəni bu gün Azərbaycanda vətəndaşlarımız bilirlər ki, onlar fonda müraciət etdikdə mümkün olan hər cür kömək edilməsi üçün maksimum səy göstəriləcək. Mən fəxr edirəm ki, fondda bu cür vətənpərvər, yaxşı təhsil görmüş, artıq müstəqil Azərbaycanda böyümüş gənclər komandası var və bizim uğurlarımız, əlbəttə ki, komanda şəklində işin uğurudur. Buna görə, mənim fikrimcə, Heydər Əliyev Fondunun əsas nailiyyəti ondan ibarətdir ki, o, Azərbaycan xalqının bu cür hörmətini və sevgisini qazanıb.

**- Hörmətli Mehriban xanım, söhbət üçün Sizə təşəkkür etmək istəyirəm. Artıq Yeni il yaxınlaşır. Onu həm Azərbaycanda, həm də Rusiyada qeyd edəcəklər. Sizinlə sağollaşmağa çox təəssüflənəcəyəm, çünki yeni ilə qədər bu sözləri eşidə biləcəyimizə əmin deyiləm. Ona görə sağollaşmazdan əvvəl Sizdən xahiş etmək istərdim, qarşıdan gələn ildə rusiyalılara və öz həmvətənlərinizə arzularınızı bildirəsiniz.**

- Mən həm Rusiya xalqına, həm də Azərbaycan xalqına ilk növbədə, əlbəttə, sülh arzulamaq istəyirəm. Dövlətlərimizin uğurlu inkişafını, onların qarşısında duran planların həyata keçməsini arzulamaq istəyirəm. Tamamilə adi insani istəklərimi - möhkəm cansağlığı, nurlu və xeyirli günlər arzulamaq istəyirəm. İstəyirəm ki, uğurlar kədərlərdən çox olsun. Kədər bizdən yan keçsin. İnsanlar müəyyən çətinliklərin öhdəsindən gəlmək üçün özündə qüvvə tapsınlar. Ona görə ki, həyatda çətinliklər, kədərli günlər də olur, amma istərdim ki, şad, parlaq, işıqlı günlər daha çox olsun.

**- İcazə verin bu arzularınıza görə Sizə təşəkkür edim və öz növbəmdə, Sizə də onları arzu edim. Sizə cansağlığı, uğurlar arzulayır, ən xoş diləklərimi bildirirəm. Çox sağ olun.**

- Sağ olun.

## Nüfuzlu “Rossiyskaya qazeta” nəşrində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın müsahibəsi dərc olunub

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində TASS İnformasiya Agentliyinə, Rusiyanın nüfuzlu rəsmi qəzeti olan “Rossiyskaya qazeta” nəşrinə və “Rossiya-24” telekanalına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidentinin müsahibəsi noyabrın 24-də TASS İnformasiya Agentliyinin və “Rossiyskaya qazeta”nın saytlarında yerləşdirilib. Noyabrın 25-də isə müsahibə geniş oxucu kütləsi olan rəsmi “Rossiyskaya qazeta” nəşrində dərc edilib.

Birinci vitse-prezident Mehriban Əliyeva müsahibəsində Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın suallarını cavablandırıb, Rusiya Federasiyasına rəsmi səfərindən danışıb, ölkələrimizi möhkəm dostluq və qonşuluq ənənələrinin birləşdirdiyini, Azərbaycan-Rusiya əlaqələrinin strateji tərəfdaşlıq münasibətləri kimi xarakterizə olunduğunu vurğulayıb, həyata keçirilən birgə layihələri qeyd edib.

Birinci vitse-prezident Mehriban Əliyeva müsahibədə iki ölkə arasında humanitar sahədə münasibətlərin dərinləşməsi istiqamətində görülən işlərdən, Azərbaycanda rus dilinə və mədəniyyətinə olan diqqətdən, ölkəmizdəki multikultural mühitdən, Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində yaradılan “Azərbaycan” pavilyonundan danışıb. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini qeyd edən Azərbaycanın Birinci vitse-prezidenti müsahibənin sonunda qarşıdan gələn Yeni il bayramı münasibətilə Azərbaycan və rus xalqlarına xoş arzularını çatdırıb.


Российская Газета
Не править, а служить


Отношения Москвы и Баку являются образцовыми

## “Rossiya 24” telekanalı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın müsahibəsini yayımlayıb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində TASS İnformasiya Agentliyinə, Rusiyanın nüfuzlu rəsmi qəzeti olan “Rossiyskaya qazeta” nəşrinə və “Rossiya-24” telekanalına müsahibə verib. Noyabrın 25-də “Rossiya-24” telekanalı Birinci vitse-prezident Mehriban Əliyevanın müsahibəsini yayımlayıb.




AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva müsahibəsində Rusiya Federasiyasına rəsmi səfərindən danışıb, ölkələrimizi möhkəm dostluq və qonşuluq ənənələrinin birləşdirdiyini, Azərbaycan-Rusiya əlaqələrinin strateji tərəfdaşlıq münasibətləri kimi xarakterizə olunduğunu vurğulayıb, həyata keçirilən birgə layihələri qeyd edib.

Birinci vitse-prezident Mehriban Əliyeva müsahibədə iki ölkə arasında humanitar sahədə münasibətlərin dərinləşməsi istiqamətində görülən işlərdən, Azərbaycanda rus dilinə və mədəniyyətinə olan diqqətdən, ölkəmizdəki multikultural mühitdən, Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində yaradılan “Azərbaycan” pavilyonundan danışıb. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini qeyd edən Azərbaycanın Birinci vitse-prezidenti müsahibənin sonunda qarşıdan gələn Yeni il bayramı münasibətilə Azərbaycan və rus xalqlarına xoş arzularını çatdırıb.

# Birinci vitse-prezident Mehriban Əliyeva 8-ci Moskva Beynəlxalq Müasir İncəsənət Biennalesi ilə tanış olub





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiyaya rəsmi səfəri çərçivəsində noyabrın 24-də Dövlət Tretyakov Qalereyasında olub.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva hazırda davam edən 8-ci Moskva Beynəlxalq Müasir İncəsənət Biennalesi ilə tanış olublar.

Birinci vitse-prezident Mehriban Əliyevanı Dövlət Tretyakov Qalereyasının direktoru Zelfira Trequlova və Moskva Beynəlxalq Müasir İncəsənət Biennalesinin kuratoru Yuliya Muzıkantskaya qarşıladılar.

Tretyakov Qalereyasının direktoru Zelfira Trequlova Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya qalereyada davam edən 8-ci Beynəlxalq Müasir İncəsənət Biennalesi haqqında məlumat verdi.

Bildirildi ki, biennaledə Rusiya, Avstriya, Bəhreyn, Almaniya, Səudiyyə Ərəbistanı, İtaliya, Almaniya, Çin, Niderland, ABŞ, Fransa rəssamları iştirak edirlər. Biennalenin əsas layihəsinin kuratoru Moskvadakı "Federasiya" və "Moskva-Siti" komplekslərinin müəllifi Dmitri Çernyakovdur. Müəllif bir neçə pavilyonda müxtəlif mövzu və janrları kiçik kapsullarda və evlərdə ümumi dialoqda birləşdirib. Bütün bu müxtəlifliyi bir-biri ilə uzlaşdırmaq asan olmadığından sərgi "Məkan oriyentasiyası" adlandırılıb. "Məkan oriyentasiyası" mövzusuna həsr olunan Müasir İncəsənət Biennalesində 11 ölkədən 34 rəssamın 50-dən çox əsəri nümayiş etdirilir.

Birinci vitse-prezident Mehriban Əliyeva ekspozisiyada Azərbaycan rəssamları Orxan Məmmədovun "Estetikanın saxlanması ideyası" və Leyla Əliyevanın "Əbədiyyət" multimedia instalyasiyaları ilə tanış oldu.



Orxan Məmmədovun təqdim etdiyi instalyasiyada müxtəlif dövrlərə aid 50-dən çox Azərbaycan xalçasının naxışları toplanıb. Rəssamın süni intellektdən istifadə edərək hazırladığı art-obyektdə naxışlar bir-birini əvəzləyir.

Leyla Əliyevanın rəhbərliyi ilə 20 nəfərdən ibarət yaradıcı kollektivin videoart janrında hazırladığı "Əbədiyyət" əsərində insan cəsarətindən söhbət açılır.

Qeyd olundu ki, Moskva Biennalesinin tərəfdaşı dünyanın ən sanballı qrafik əsərlər toplusu olan Avstriyanın məşhur Albertina muzeyidir. Sərgidə XX əsrin 11 məşhur rəssamının muzeydə saxlanılan əsərləri ümumi mədəni məkanda nümayiş etdirilir.

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri başa çatıb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri noyabrın 25-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, Moskvanın "Vnukovo 2" Beynəlxalq Hava Limanında Birinci vitse-prezident Mehriban Əliyevanı Rusiyanın Xarici İşlər nazirinin müavini Andrey Rudenko və digər rəsmi şəxslər yola saldılar.

## Baş Nazir Əli Əsədov Bibiheybət yolunda baş vermiş sürüşmə zonasında olub

Noyabrın 25-də Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Səbail rayonu ərazisində Bibiheybət yolunda baş vermiş sürüşmə zonasında olublar.

AZƏRTAC xəbər verir ki, Baş Nazir Əli Əsədov əraziyə baxış keçirərək vəziyyətlə yerində tanış olub.

Qeyd edək ki, ötən gün baş verən sürüşmə ilə əlaqədar yeni yolun Bibiheybət məscidindən paytaxtın mərkəzinə gedən istiqamətində hərəkət dayandırılıb.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Bu il noyabrın 14-15-də Bakıda keçirilən Dünya dini liderlərinin II Sammitinin uğurlu təşkili münasibətilə Sizi təbrik etmək istərdim.

Mən həmçinin Azərbaycan Respublikasının rəhbərliyinə öz səmimi minnətdarlığımı bildirirəm.

Fürsətdən istifadə edərək beynəlxalq ictimaiyyəti Dünya dini liderlərinin II Bakı Sammitində bir araya gətirmək istiqamətində Sizin liderliyinizi və yorulmaz fəaliyyətinizi yüksək qiymətləndirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Abdullah ƏL-MƏTUQ,***
***BMT Baş katibinin xüsusi nümayəndəsi, Küveyt Əmirinin humanitar məsələlər üzrə müşaviri və Beynəlxalq İslam Xeyriyyə Təşkilatının sədri***

---

Əs-səlamu-əleykum və rəhmətullahi və bərəkətuhu!

Möhtərəm Prezident!

Zati-alinizin rəhbərliyi ilə keçirilmiş Dünya dini liderlərinin II Bakı Sammitinin açılış mərasimində iştirak etməkdən böyük şərəf duydum. Həmçinin mənim üçün şərəf idi ki, bəşəriyyətə xidmət etdiklərinə inanan sadiq insanların iştirak etdiyi tədbirdə Əlcəzair Xalq Demokratik Respublikası adından çıxış etdim. Bu insanlar dinin ötəri və batil dünyəvi məqsədlər naminə təhrif edilməsinə, müqəddəs olanı ləkələyənlərə, dinin ruhaniliyinə xələl gətirənlərə, onu bəşəriyyətə xidmət edən nəcib hədəflərindən uzaqlaşdıraraq özlərinin bəd niyyətlərinə yönəldənlərə etiraz edirlər.

Bakı Bəyannaməsi Sizin dinə və bəşəriyyətə xidmət yolunda istəyinizi və fəaliyyətinizi nümayiş etdirdi. Uca Allah da işlərinizin uğurla başa çatmasına yardımçı oldu.

Gözəl qonaqpərvərliyə görə Sizə və tədbirin təşkilatçılarına dərin təşəkkürümü bildirirəm. Sizinlə bir daha görüşüb Bakı Bəyannaməsinin ifadə etdiyi prinsiplərə və dəyərlərə sadiq qalaraq birgə işləməkdən şərəf duyardıq.

Uca Allah Sizə qüvvət versin və müstəqil Azərbaycan Respublikasının qüdrətini daha da artırsın.

***Buabdullah QULAMULLAH,***
***Əlcəzair Xalq Demokratik Respublikası Ali İslam Şurasının sədri***

---

Əs-səlamu-əleykum və rəhmətullahi və bərəkətuhu.

Zati-aliləri, cənab Prezident!

Bu il noyabrın 14-15-də Bakıda keçirilmiş Dünya dini liderlərinin II Sammitində bizimlə birlikdə iştirakınıza görə Sizə minnətdarlığımı bildirirəm. Bu, mənim indiyədək qatıldığım ən maraqlı sammitlərdən biri idi. İkigünlük tədbir məndə dərin təəssürat və xoş duyğular oyatdı və burada səmimi qonaqpərvərliklə qarşılandım. Bakı mənim yaddaşımda heç vaxt unudulmayacaq gözəl bir şəhər kimi qaldı.

Tədbirin dünya ölkələrində müxtəlifliyə həsr olunmuş mövzusunu da yüksək qiymətləndirirəm. Şəxsən mən inanıram ki, İndoneziya tədbir zamanı müxtəlifliyi həqiqi mənada nümayiş etdirə bildi. Bu mövzu İndoneziyada yaşayan insanların həyat şəraitini tam şəkildə əks etdirir. Müxtəliflik Allahın bəşəriyyət üçün müəyyən etdiyi bir yoldur. İnsanlara qarşı dözümlülük nümayiş etdirmək icmalarımızın dini liderləri kimi bizim öhdəliyimizdir. Ümid edirəm ki, bu təşəbbüs sayəsində İndoneziya və Azərbaycan bir-birini tamamlaya bilərlər.

İndoneziya Gənc Alimlərin İnkişafı Təşkilatının Mərkəzi Şurası dünyanın müxtəlif ölkələrində yaşayan müsəlman qadınlarla əməkdaşlıq etməyə ümid bəsləyir. Təşkilatımız təkcə İndoneziyada deyil, həmçinin dünyada gənc müsəlman qadınların ən böyük təşkilatıdır. Onun əsas missiyası İndoneziyada qadınların hüquqlarını qorumaqdan, aləmlərə rəhmət olaraq göndərilmiş fikri inkişaf etdirməkdən və yaymaqdan ibarətdir.

İki ölkə arasındakı xoş və davamlı əməkdaşlığın gələcəkdə daha da möhkəmlənməsinə və güclənməsinə ümid edirəm.

Mənə göstərdiyiniz hörmətə və qonaqpərvərliyə görə Sizə bir daha təşəkkür edirəm.

Dərin ehtiramla,

***Anggia Erma RİNİ,***
***İndoneziya Gənc Alimlərin İnkişafı Təşkilatının Mərkəzi Şurasının sədri***

---

Zati-aliləri!

Hörmətli patriarxımız Mor İqnatius II Efrem Kerimi və Antakya Süryani Ortodoks Kilsəsini təmsil etmək üçün noyabrın 14-15-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin 70 illik yubileyi münasibətilə Dünya dini liderlərinin Bakıda keçirilən II Sammitində iştirak etmək məndə böyük şərəf və məmnunluq doğurub.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan dövlətində yurddaşlar arasında qarşılıqlı hörmət, sevgi və tolerantlıq şəraitindən çox təsirləndiyimi ifadə etmək istəyirəm.

İnanıram ki, Şeyxülislam Allahşükür Paşazadə həzrətləri ilə birlikdə fəaliyyətiniz mənəvi, mədəni və ictimai baxımdan dünyanın bir çox ölkələri üçün gözəl nümunədir.

Dini və etnik mənsubiyyət fərqi qoymadan plüralist bir düşüncə ilə insanlığa və ölkənizə xidmətlərinizdə zati-alinizə Uca Allahdan güc və cansağlığı arzu edirəm.

*Dərin ehtiram və xoş dualarla,*

***Filuksinos Saliba ÖZMEN,***
***Mardin və Diyarbəkir mitropoliti***

---

Zati-aliləri!

Müsəlman ölkəsi Mərakeşdə doğulmuş baş ravvin olaraq, Sizin himayənizlə Bakıda keçirilmiş Dünya dini liderlərinin II Sammitinin panel müzakirələrində iştirak etmək üçün məni dəvət etdiyinizə görə Sizə böyük məmnunluq hissi ilə minnətdarlığımı bildirirəm.

Müxtəlif ölkələrin dini liderlərinin, siyasi xadimlərinin və mütəxəssislərinin qatıldığı həmin tədbirdə iştirak etmək mənim üçün həqiqətən də şərəf idi.

Bu sammit müxtəlif mədəniyyətlər arasında münasibətlərin təşviqi, dinlərarası dialoqun, eləcə də qarşılıqlı anlaşma və hörmət kimi insani dəyərlərin inkişafı və insan ləyaqətinə hörmətin, həmrəyliyin önəmini vurğulamaq baxımından çox böyük əhəmiyyət kəsb edirdi.

Azərbaycanın birgəyaşayış üçün nümunəvi ölkə olması tədbirdə iştirak edən hər kəsə xoş təəssürat bağışladı.

Səmimi qonaqpərvərliyinizə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Gələcəkdə təşkil edəcəyiniz tədbirlərdə iştirak etməyi və zati-alinizlə şəxsən görüşməyi səbirsizliklə gözləyirəm.

Sizə dərin təşəkkürümü və ən xoş arzularımı çatdırıram.

***İzhak DAYAN,***
***İsveçrənin Cenevrə şəhərinin baş ravvini***

---

Hörmətli cənab Prezident!

Noyabrın 14-15-də Dünya dini liderlərinin II Bakı Sammitində iştirak edərkən zati-alinizin dərin məzmunlu açılış nitqi ilə başlayan tədbirə qatılmaqdan məmnunluq duyduğumu ifadə etmək istəyirəm.

Azərbaycan dövlətinin multikulturalizmə nə qədər əhəmiyyət verdiyi bir daha nümayiş olundu. Azərbaycan rəhbərinin tolerantlıq, müxtəlif mədəniyyətlər, din və məzhəblərlə bağlı çox geniş baxışa sahib olduğu bir daha müşahidə edildi.

Xüsusilə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinin 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyi bu sammitə xüsusi məna verdi.

Şeyx həzrətlərinin dünya dini liderlərinin böyük hörmətini qazandığı bu toplantıda bir daha göründü. Xüsusilə belə beynəlxalq tədbirlərdə Azərbaycan xalqının Qarabağ məsələsində haqlı mövqeyinin bütün dünyaya çatdırılması da çox faydalıdır.

Fürsətdən istifadə edərək belə bir mühüm tədbirə himayədarlıq etdiyiniz üçün zati-alinizə ən dərin ehtiramımı bildirir, Sizə və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinə uğurlar, cansağlığı və uzun ömür arzulayıram.

*Dərin ehtiramla,*

***Professor Dr. Halit EREN,***
***İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (IRCICA) baş direktoru Türkiyə Respublikası, İstanbul şəhəri***

---

Zati-aliləri!

Dünya dini liderlərinin Sammitində ikinci dəfə iştirak etmək üçün ölkənizə dəvətinizə görə təşəkkür edirəm. Bu görüşün bizim üçün çox mühüm olduğuna əminəm. Mən Yaponiya qəzetlərinə bu görüş barədə məlumatları göndərəcək və nəticələri sizinlə paylaşacağam.

Dünyada bir ilk olan bu konfransın gələcək inkişafı üçün dua edirəm.

*Dərin ehtiramla,*

***Azuma RYUŞİN,***
***Yaponiyanın İşikava Prefekturasındakı Daijoji məbədinin Soto Zen Buddizm məktəbinin baş kahini***

---

Zati-aliləri!

Fərqli inanclardan olan liderləri vahid platformada bir araya gətirmək təşəbbüsünüz təqdirəlayiqdir.

Dünya dini liderlərinin II Bakı Sammitinin uğurlu təşkilinə görə Sizi təbrik edir və gələcək fəaliyyətinizlə bağlı ən xoş arzularımı çatdırıram.

*Dərin hörmət və ehtiramla,*

***Sri-Sri Ravi ŞANKAR,***
***Hindistanın "Yaşamaq sənəti" beynəlxalq təşkilatının təsisçisi***

## Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü münasibətilə şəxsən öz adımdan və sədri olduğum Fides - Macar Vətəndaş İttifaqı Partiyası adından Sizi səmimi qəlbdən təbrik edirəm. Yeni Azərbaycan Partiyası 1992-ci ildən bəri Azərbaycanın demokratik transformasiyasında və ölkənin inkişafında aparıcı rol oynayıb.

Məmnuniyyətlə bildirirəm ki, ölkələrimiz və partiyalarımız arasında xalqlarımızın mənafeyinə xidmət edən münasibətlər Sizin dəstəyiniz və dostluğunuz sayəsində indi həmişəkindən daha güclüdür. Biz həmçinin Yeni Azərbaycan Partiyasının ölkənin Avropa İttifaqı ilə əlaqələrinin gücləndirilməsi yönündə səylərini dəstəkləyirik. Sizi əmin edirəm ki, qarşıdakı illərdə də Avropa Qonşuluq Siyasətinin inkişafı Macarıstanın prioriteti olaraq qalacaqdır. Həmçinin ümid edirəm ki, qarşılıqlı maraq doğuran məsələlərdə partiyalararası əlaqələrimizi daha da dərinləşdirəcəyik.

Son onilliklərdə Yeni Azərbaycan Partiyası Azərbaycanın və onun xalqının maraqlarına uğurla xidmət edib. Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və gələcək işlərinizdə yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Viktor ORBAN,***
***Macarıstanın Baş Naziri***

# Yüksələn xətlə inkişaf edən ikitərəfli əməkdaşlıq

## Azərbaycan-Rusiya əlaqələri belə səciyyələnir

*Əvvəli 1-ci səh.*

Kənd təsərrüfatı sahəsində ikitərəfli əlaqələri inkişaf etdirmək məqsədilə tədbirlər görülür. Məlum olduğu kimi, Rusiya Azərbaycandan ixrac edilən kənd təsərrüfatı məhsullarının əsas istehlakçısıdır. Azərbaycan isə Rusiyadan kənd təsərrüfatı texnikası və mineral gübrələr alır. Yaxın gələcəkdə 2020-2022-ci illər üçün aqrar sənaye kompleksində əməkdaşlıq proqramının imzalanması planlaşdırılır.

Başqa bir istiqamət - nəqliyyat-tranzit Azərbaycan-Rusiya əməkdaşlığının mühüm istiqamətlərindəndir. "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" layihəsi bu sahədə böyük əhəmiyyət kəsb edir. Layihənin reallaşdırılması ilə ötən il bu marşrut ilə tranzit daşımalarının həcmi 8 dəfə, cari ilin birinci yarısında isə 60 faizdən çox artmışdır. 2020-ci ildə yeni Bakı-Rusiya sərhədi avtomagistralının tikintisinin başa çatdırılması, habelə Samur çayının üstündə avtomobil körpüsünün birgə tikintisi planlaşdırılır.

Azərbaycan iqtisadiyyatının yüksələn sahəsi - turizm Rusiya ilə əməkdaşlıq əlaqələrində əhəmiyyətli rol oynayır. Rusiya ölkəmizə gələn turistlərin sayına görə birinci yeri tutur. Keçən il 900 minə yaxın rusiyalı turist Odlar yurdunu ziyarət etmişdir. Cari ilin yekunlarına görə bu göstəricinin artması gözlənilir. Öz növbəsində azərbaycanlı iş adamları Rusiyanın Şimali Qafqaz regionunda turizm infrastrukturuna sərmayə qoyurlar.

Eyni zamanda son illər iki ölkə arasında humanitar sahədə, xüsusilə təhsil sahəsində əməkdaşlığın fəallaşması müşahidə olunur. Bakıda Rusiyanın iki ali məktəbinin - M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları açılmışdır. Eyni zamanda Rusiyanın ali təhsil müəssisələrində 11 mindən çox azərbaycanlı gənc təhsil alır.

Azərbaycan-Rusiya əlaqələrinin inkişafında qonşu ölkənin regionları mühüm töhfə verir. Birinci vitse-prezident Mehriban Əliyeva səfərin gedişində X Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak etdi. Qeyd olundu ki, hazırda Rusiya Federasiyasının 72 subyekti Azərbaycanla ticarət münasibətləri, humanitar əlaqələr saxlayır. Moskva şəhəri, Moskva vilayəti, Sankt-Peterburq, Çelyabinsk, Volqoqrad, Saratov, Nijni-Novqorod, Həştərxan, Sverdlovsk vilayətləri, Stavropol və Krasnodar diyarları bu sahədə liderdir. Nəzərə çarpdırıldı ki, iki qonşu ölkənin regionları, işgüzar dairələri və təşkilatları arasında praktik əməkdaşlığın genişlənməsində əsas rol oynayan Azərbaycan-Rusiya Regionlararası Forumuna tələbat, onun iştirakçılarının sayı ildən-ilə artır.

Bakı və Moskva bütün bu uğurlarla kifayətlənmək niyyətində deyil, ikitərəfli əməkdaşlığın mövcud potensialını tamamilə hərəkətə gətirmək əzmindədir. Məlum olduğu kimi, ötən il 2024-cü ilədək olan dövr üçün Azərbaycan-Rusiya əməkdaşlığının əsas istiqamətləri üzrə plan imzalanmışdır. Plan özündə beş "yol xəritəsi"ni ehtiva edir. Bu sənədlər ticarətin və qarşılıqlı sərmayələrin həcminin artırılmasına, nəqliyyat potensialının inkişafına, birgə müəssisələrin yaradılmasına, rəqəmsallaşma sahəsində, büdcə-vergi sektorunda təcrübə mübadiləsinə, həmçinin humanitar əlaqələrə istiqamətlənmişdir. Yəni ki, ikitərəfli əlaqələrin yeni vüsət alması üçün imkanlar kifayət qədərdir. Şübhə etməmək olar ki, Birinci vitse-prezident Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri iki ölkə arasında əlaqələrin dərinləşməsinə təkan verəcək.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Gələn ilin dövlət büdcəsi layihəsində dəyişiklik ediləcək

## Milli Məclis 2020-ci ilin büdcə zərfinə daxil olan sənədləri ikinci oxunuşda təsdiqlədi

*Əvvəli 1-ci səh.*

Sonra iclasda müzakirələr başlanıldı. Deputatlardan Elmira Axundova, Sahib Alıyev, Elman Məmmədov, İlham Məmmədov, Əflatun Amaşov, Azay Quliyev, Sevinc Hüseynova, Məlahət İbrahimqızı çıxış edərək qeyd etdilər ki, büdcə mükəmməl hazırlanıb. Bildirilidi ki, 2020-ci ilin dövlət büdcəsi ən böyük büdcə olduğu üçün ənənəvi olaraq onun sosialyönümlülüyü təmin ediləcək. Bu əsasda əməyin ödənişi, təqaüdlər və sosial müavinətlər, o cümlədən əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin möhkəmləndirilməsi üzrə maliyyə təminatının yaradılması prioritet istiqamətlərdən olacaq.

### "Çap məhsulları üzərindən ƏDV-ləri götürmək lazımdır"

Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov dedi ki, Azərbaycanda mediaya subsidiyaların, güzəştli kreditlərin verilməsi gündəmə gətirilməlidir. Ən əsası isə çap məhsulları üzərindən ƏDV-lər götürülməlidir: "Azərbaycanda hər sahədə islahatlar gedir. Həmkarlarımız da çıxışlarında media sahəsində də islahatların aparılmasının vacibliyini səsləndirirlər. Bu fikirlərinə görə onlara təşəkkür edirəm, ancaq kimsə düşünməsin ki, mediamız zəifdir və jurnalistlərimizin peşəkarlığı aşağı səviyyədədir. Əsla belə deyil. Medianı daha da güclü görmək üçün ilk növbədə onun iqtisadi müstəqilliyini artırmalıyıq. Media imkanlı olmalıdır. Əgər media varlı olarsa, daha azad, müstəqil və peşəkar olar. Bu da əsasən reklamla bağlıdır. Dünyada medianın gəlirlərinin 80 faizi məhz reklam vasitəsilə formalaşır. Azərbaycanda isə bu göstərici çox aşağıdır. Hətta demək olar ki, yox dərəcəsindədir. Bunun da obyektiv və subyektiv səbəbləri var. Kölgə iqtisadiyyatına, monopoliyaya qarşı mübarizənin gücləndiyi, şəffaflığın artdığı bir şəraitdə reklam bazarının genişləndirilməsi üçün yollar axtarmalıyıq".

### "Məcburi köçkünlərlə bağlı bəzi qərarlar ləğv edilməlidir"

Deputat Elman Məmmdovun təklifi diqqət çəkdi. Deputat bildirdi ki, Prezident İlham Əliyev bütün çıxışlarında məcburi köçkünlərə, şəhid ailələrinə, əlillərə diqqətlə yanaşmağı tapşırır. Hökumət isə bu sahədə dövlət başçısının qarşıya qoyduğu vəzifələri icra edir və etməyə çalışır. Ancaq bəzən kimlərinsə mövqeyi nəticəsində elə qərarlar verilir ki, bu qərarlar məcburi köçkün statusuna malik olan bir qrup insanın yolunun bağlanmasına gətirib çıxarır. Bunlardan biri də Nazirlər Kabinetinin 2017-ci il 24 yanvar 11 nömrəli qərarıdır: "Bu qərarda müavinətlərin ödənilməsi qaydası öz əksini tapıb. İstəyirəm ki, hökumət üzvləri məcburi köçkün düşdükdən sonra mənzil qanunvericiliyinə və ya mülki-hüquqi əqdlərə əsasən ayrıca yaşayış sahəsi əldə edən, sonradan həmin yaşayış sahəsini başqa şəxsə satan, bağışlayan məcburi köçkünlərə və onlarla birlikdə yaşayan ailə üzvlərinə müavinət verilməməsini nəzərdə tutan qərara diqqət yetirsinlər. Bu, ziddiyyət təşkil edir axı...

Digər bir bənddə isə qeyd edilib ki, məcburi köçkün olan qadın məcburi köçkün olmayan birinə ərə gedibsə, onlardan olan uşağa müavinət verilməsin. Bu, hansı məntiqə sığır?"

Milli Məclis Sədrinin müavini Bahar Muradova da deputat həmkarına dəstək oldu. Parlamentin İnsan hüquqları komitəsinin sədri dedi ki, məcburi köçkün statusu ilə bağlı məsələlərdə bir sıra problemlər yaranır: "Statusun bu və ya digər səbəbdən ləğv olunması, yaxud kimlərəsə şamil edilməməsi müəyyən problemlər yaradır. Hər vətəndaş qəbulunda onlarla belə şəxs bizə müraciət edir. Bununla da bir növ qapalı dairə yaranır. Onlar bizə müraciət edir, biz də rayon icra hakimiyyətlərinə və "Qaçqınkom"a müraciət edirik. Müraciət edirik ki, problemlər həll olunsun. Problem də həll olunmadıqca üst-üstə yığılır və insanların haqlı narazılığına səbəb olur. Son vaxtlar belə müraciətlərin sayı artıb. Bu problem təkcə Fizuli rayonunda 12 min nəfəri əhatə edir. Misal olaraq, daxili işlər orqanlarında, dövlət qulluğunda çalışan və hərbi xidmətdə olan soydaşlarımıza dövlət tərəfindən verilən müavinətlər dayandırılır. Həmçinin bu və ya digər güzəştlərdən istifadə edə bilmirlər. Hesab edirəm ki, getdikcə ölkə rəhbəri tərəfindən sosial sahəyə yönələn diqqət və qayğı hər cür problemlərlə üz-üzə olan insanlardan yan keçməməlidir. Bir çətinlik də odur ki, eyni kənddə olan eyni statuslu şəxslərin bir qismi bundan istifadə edir, digər qismi isə hansısa yanaşmalara görə istifadə etmir".




















Milli Məclis Sədrinin müavini onu da qeyd etdi ki, hərbi xidmətdən qayıdan gənclərin yenidən həmin statusu bərpa etməsi məsələsində də problemlər yaranır. Bahar Muradova hökumətdən məsələni diqqətdə saxlamağı xahiş etdi.

### Siyasi partiyalar üçün nəzərdə tutulmuş vəsait 1 milyon manat artırıla bilər

Çıxışlardan sonra gələn ilin dövlət büdcəsinin əsas parametrləri barədə Maliyyə naziri Samir Şərifov məlumat verdi. Qeyd edildi ki, müzakirələr zamanı deputatların səsləndirdikləri bəzi təkliflər nəzərə alınıb.

Əksər deputatlar çıxışlarında təmsil olunduqları rayonlarda bəzi sosial infrastrukturların tikilməsi, yolların bərpası ilə bağlı təkliflər irəli sürüblər. Nazir dedi ki, ötən ilin dövlət büdcəsindən investisiya layihələrinin həyata keçirilməsi üçün 5 milyard 982 milyon manat ayrılıb. Bu il isə 4 milyard 909 milyon manat ayrılıb. Bu vəsaitlər əsasən regionlarda sosial infrastrukturların tikilməsi, yenilənməsi prosesinə sərf olunacaq.

Nazirin sözlərinə görə, deputatlar tərəfindən siyasi partiyalar üçün nəzərdə tutulmuş vəsaitin 1 milyon manat artırılaraq 4 milyon manata, ictimai birliklər üçün nəzərdə tutulmuş vəsaitin isə 900 min manat artırılaraq 5,5 milyon manata çatdırılması təklif olunub: "Bununla yanaşı, ölkə Prezidentinin sərəncamının icrasına uyğun olaraq, Şəmkir rayonunun tarixi ərazisində Qədim Şəmkir Şəhər Dövlət Tarix-Mədəniyyət Qoruğunun, Ağsu rayonu ərazisinlə Qədim Ağsu Şəhər Dövlət Tarix-Mədənyiyət Qoruğunun yaradılması ilə bağlı xərclər üçün də 600 min manat vəsaitin ayrılmasının büdcə layihəsində nəzərə alınması təklif edilib".

Nazir qeyd etdi ki, maliyyə təminatının daha da yaxşılaşdırılması ilə 2020-ci il üçün Milli Məclisin xərclərinin əlavə olaraq 1,9 milyon manat artırılması təklif edilir: "Eyni zamanda Naxçıvan Muxtar Respublikası tərəfindən hökumətə müraciət daxil olub. Həmin müraciətə əsasən, Naxçıvan muxtar respublikasında gəlirlər potensialının əlavə olaraq artırılması hesabına muxtar respublikanın öz gəlirlərinin 19 milyon manat artırılmasına və dövlət büdcəsində müvafiq olaraq muxtar respublikaya ayrılan dotasiya məbləğinin 19 milyon manat azalmasına imkan yaradır. Qənaət edilmiş 19 milyon manat vəsaitin dövlət büdcəsi kəsirinin azalmasına yönəldilməsi təklif olunur. Bu zaman muxtar respublikanın büdcəsinin gəlir və xərcləri dəyişməz olaraq 482 milyon manat səviyyəsində qalmaqla, dövlət büdcəsindən muxtar respublikanın büdcəsinə yönəldilən dotasiyanın məbləği 4,9 faiz azaldılacaq".

Samir Şərifovun fikrincə, aparılacaq dəyişiklik nəticəsində 2020-ci il icmal büdcənin gəlir və xərcləri təqdim olunmuş layihədəki kimi, müvafiq olaraq 27 milyard 552 milyon manat və 29 milyard 488 milyon manat səviyyəsində nəzərdə tutulur. İcmal büdcənin kəsiri isə 19 milyon azaldılaraq 1 milyard 936 milyon manat təşkil edəcək. Dövlət büdcəsinin gəlirləri təqdim olunmuş səviyyədə, yəni 24 milyard 134,5 milyon manat, xərcləri isə 19 milyon manat azaldılaraq 26 milyard 894,7 milyon manat təşkil edəcək: "Bunları nəzərə alaraq, təqdim olunmuş 2020-ci il dövlət büdcəsi layihəsində düzəlişlərin edilməsinə ehtiyac yaranır. Təklif edirik ki, bu təkliflər qəbul edildiyi təqdirdə qanun layihəsinin 7.1, 7.3, 7.7 və 7.12 maddələrində müvafiq dəyişikliklər əksini tapsın".

Müzakirələrdən sonra "2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

### Yaşayış minimumu və ehtiyac meyarının məbləği təsdiqləndi

Sonra iclasda "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2020-ci il dövlət büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2020-ci il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2020-ci il üçün ehtiyac meyarının həddi haqqında","Əmək pensiyaları haqqında", "Məşğulluq haqqında", "Sosial müavinətlər haqqında" və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri ikinci oxunuşda müzakirəyə çıxarıldı.

Sənədlərlə bağlı məlumat verən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli dedi ki, birinci oxunuşda müzakirələr zamanı deputatlar fikir və təkliflərini səsləndiriblər.

Sonra sənədlər bir-bir səsverməyə çıxarılaraq qəbul edildi. Beləliklə, gələn il üçün yaşayış minimumu ölkə üzrə 190 manat, o cümlədən əmək qabiliyyətli əhali üçün 201 manat, pensiyaçılar üçün 157 manat, uşaqlar üçün 170 manat, ehtiyac meyarı isə 160 manat məbləğində müəyyən edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2020-ci il üçün büdcəsinin gəlir və xərcləri isə 4 825 508 800 manat səviyyəsində nəzərdə tutulub.

### İcbari tibbi sığortaya keçid mərhələli şəkildə aparılacaq

Günün ikinci yarısında Milli Məclisdə "Tibbi sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı.

Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov sənədlə bağlı məlumat verərək bildirdi ki, gələn ildən ölkəmizdə icbari tibbi sığortanın tətbiqinə başlanacaq. Bir il öncə "Tibbi sığorta haqqında" qanuna 100-dən artıq dəyişilik edilib. Bu dəfə isə qanunun 8 maddəsinə 126 əlavə və dəyişiklik nəzərdə tutulur: "Prezident İlham Əliyevin 2020-ci il yanvarın 1-dən Azərbaycanda icbari tibbi sığortaya keçidlə bağlı sənəd imzalamasından sonra ölkəmizdə bununla bağlı böyük işlər görülüb. Bu sərəncamdan irəli gələrək "Tibbi sığorta haqqında" qanunun 8 maddəsinə 126 dəyişiklik təklif olunur. Bu dəyişikliklər əsasən icbari tibbi sığorta ilə bağlıdır". Dəyişikliklər 3 qrupa bölünür. Bunlar anlayışlar, stilistik və sığortaolunanlarla bağlı dəyişikliklərdir.

Bildirildi ki, bu dəyişikliklər vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Qanuna əlavə ediləcək 16-4-cü maddəyə əsasən icbari tibbi sığorta ölkənin inzibati ərazi vahidləri üzrə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən müəyyən edilmiş ardıcıllıq nəzərə alınmaqla, mərhələli şəkildə tətbiq olunacaq.

İclasda çıxış edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev isə bildirdi ki, 2018-ci ilin dekabr ayında qanuna dəyişikliklər edilib. 2019-cu il isə icbari tibbi sığortaya hazırlıq ili kimi nəzərdə tutulmuşdu. Bu il bir sıra məsələlər öz həllini tapdı və yenə də hazırlıq işləri görülür: "Prosesin mürəkkəbliyini, tibb müəssisələrinin maliyyələşməsini nəzərə alaraq, biz icbari tibbi sığortaya keçidi mərhələli şəkildə təklif edirik. Bu proses 4 rübə bölünür. I rübdə tibbi sığorta respublikanın şimal bölgəsində 20 rayonu, II rübdə qərb bölgəsində 17 rayonu, III rübdə cənub bölgəsində 14 rayonu, IV rübdə isə Bakı, Sumqayıt şəhərlərini və Abşeron rayonunu əhatə edəcək. Yəni ilin sonunadək bütün ölkə üzrə icbari tibbi sığortanın tətbiqi reallaşacaq".

Dəyişikliyə əsasən dövlət büdcəsi vəsaiti hesabına bütün əhalinin illik sığorta haqqı adambaşına 90 manat müəyyən edilib. Əvvəl baza 29 manat və əlavə xidmətlər 120 manat idi. İndi bu iki hissə ləğv edilib. Ümumilikdə 90 manat müəyyən edilib.

### Ciddi maarifləndirməyə və ictimai müzakirələrə ehtiyac var

Aydın Mirzəzadə, Vahid Əhmədov, Rafiq Məmmədhəsənov, Əflatun Amaşov, İlham Əliyev, Qənirə Paşayeva, Azay Quliyev çıxış edərək bildirdilər ki, Azərbaycanda dövlət səhiyyə sisteminə yeni yanaşma yaranır və gələn ildən çox mühüm prosesə start veriləcək. Ancaq bunun üçün insanların maarifləndirilməsi çox vacibdir.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deputat həmkarlarının fikirlərinə dəstək verərək dedi ki, prosesin ciddi şəkildə ictimai müzakirələrə ehtiyacı var: "Həkimlər, mütəxəssislər bununla bağlı ciddi iş görməlidirlər. Mütəxəssislər ezamiyyətə göndərilməli və insanlar maarifləndirilməlidir. Vətəndaşların çoxu bundan xəbərsizdir. Dünyanın ən aparıcı ölkələrində belə bu məsələlər tam həllini tapmayıb. Bizdə də bunun narazılıqlara səbəb olmaması üçün ciddi müzakirələr aparılmalıdır".

Müzakirələrin sonunda qanun layihəsi birinci oxunuşda səsverməyə qoyularaq təsdiqləndi.

### Məhkəmə-hüquq islahatları dərinləşdirilir

İclasda məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair Azərbaycan Prezidentinin fərmanının icrası çərçivəsində hazırlanmış ikinci qanunvericilik paketi müzakirəyə çıxarıldı. Qanunvericilik paketi barədə parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi. Bildirildi ki, dəyişikliklər edilməsi nəzərdə tutulan qanun layihələri "Məhkəmələr və hakimlər haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında", Mülki Prosessual, Cinayət-Prosessual, İnzibati Prosessual, İnzibati Xətalar məcəllələrində, "İnzibati icraat haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Lisenziyalar və icazələr haqqında" qanunlara dəyişiklik edilməsi barədədir.

Komitə sədri dedi ki, qanunvericilik paketi ilk oxunuşda müzakirəyə çıxarılarkən deputatlar maraqlı təkliflər səsləndiriblər. Onların bəziləri ikinci oxunuşda nəzərə alınıb, layihələrin hazırlanması ilə əlaqədar Ali Məhkəmə, Ədliyyə Nazirliyi və Baş Prokurorluğun nümayəndələrindən ibarət işçi qrupları yaradılıb, statistik məlumatlar və mövcud təcrübə təhlil edilib, qabaqcıl beynəlxalq təcrübə öyrənilib. Həmçinin hüquq ictimaiyyətinin, akademik dairələrin, sahibkarların iştirakı ilə geniş ictimai dinləmələr keçirilib.

Müzakirəyə çıxarılan layihələr vahid məhkəmə təcrübəsinin formalaşdırılması və məhkəmə ekspertizasının keçirilməsi ilə əlaqədar fəaliyyətin təkmilləşdirilməsi kimi iki əsas istiqaməti əhatə edir.

Müzakirələrdə iştirak edən deputat Tahir Kərimli, Vahid Əhmədov çıxış edərək qanun layihələrinə edilən dəyişiklikləri müsbət qiymətləndirdilər. Sonra qanun layihələri ayrı-ayrılıqda səsverməyə çıxarılaraq ikinci oxunuşda təsdiq edildi və Milli Məclisin plenar iclası başa çatdı.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

# Şimali Osetiya-Alaniyada Böyük Vətən müharibəsində canlarından keçmiş azərbaycanlıların xatirəsinin anım mərasimi olub

## Azərbaycan nümayəndə heyəti anım mərasimində iştirak edib

Noyabrın 24-də Rusiya Federasiyasının Şimali Osetiya-Alaniya Respublikasında Böyük Vətən müharibəsi zamanı Mozdokun azad olunmasında iştirak etmiş azərbaycanlılardan ibarət 223-cü atıcı diviziyanın tərkibində döyüşərək canlarından keçmiş azərbaycanlıların xatirəsinin anım mərasimi keçirilib.







AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndə heyəti Mozdokda keçirilən anım mərasimində iştirak edib.

Mərasim iştirakçıları 223-cü atıcı diviziyanın döyüşçülərinin şərəfinə ucaldılmış abidənin önünə əklillər qoyublar.

**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür PAŞAZADƏ** tədbirdə çıxış edərək dedi:

- Sizi 1942-ci ildə Şimali Osetiyada Mozdokun azad edilməsi zamanı 223-cü Azərbaycan atıcı diviziyasının həlak olmuş döyüşçülərinin xatirəsinə həsr olunmuş tədbirdə salamlayıram.

Qafqaz xalqları arasında mehriban münasibətlər misilsiz tarixi sərvətdir. Bu, elə bir böyük nemətdir ki, hətta həmvətənlər, vahid ölkənin vətəndaşları olmayanda da bizi tarixi qarşılıqlı hörmət, mehriban qonşuluq ənənələri birləşdirir. Müdriklik bundadır ki, xalqlarımız ortaq tarixi keçmişimizdə qarşılıqlı münasibətlərimizə xas olan yaxşı nə varsa hamısını qayğı ilə qoruyub saxlasınlar və inkişaf etdirsinlər.

Biz 1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin bayram edilməsi ərəfəsində bu tarixi reallıqları xüsusi qiymətləndiririk. Biz ortaq keçmişimizdə öz torpaqlarımızı birlikdə müdafiə etmişik. Bu gün məscidlərimizi, dini ocaqlarımızı birlikdə qururuq, dinc gələcəyimizin qayğısına da birlikdə qalmalıyıq. Məsələn, Qafqazda Qarabağ problemi özünün beynəlxalq hüquq əsasında, sülh yolu ilə ədalətli həllini gözləyir. Biz, Qafqazın dini liderləri Tanrıya dualar oxuyuruq ki, Yer kürəsinin heç bir yerində heç vaxt müharibələr olmasın, bizim evimiz Qafqazda həmişə sülh, əmin-amanlıq bərqərar olsun, bunun naminə mümkün olan hər şeyi edirik. Təəssüf ki, bu gün də faşizmi yaşadan qüvvələr var. Hazırda bəzi yerlərdə insanlara zülm edən Qaregin Njdeyə abidə qoyulur. Bu cür hallara qarşı biz birlikdə mübarizə aparmalıyıq.

Çoxmillətli və çoxkonfessiyalı dövlət kimi Rusiyanın böyüklüyü, ilk növbədə, onun xalqların mənəvi-dini dəyərlərinə və tarixi ənənələrinə yüksək münasibəti və dərindən bağlı olması ilə səciyyələnir. Bugünkü tədbir buna gözəl nümunədir.

Şimali Osetiya-Alaniyada, Vladiqafqaz şəhərinin mərkəzində Qafqazda özünün memarlıq quruluşuna görə nadir olan məscidlərdən birinin - Azərbaycan xalqının şanlı oğlu tərəfindən osetin xalqına hörmətin əlaməti, Azərbaycan və osetin xalqlarının dini birliyinin rəmzi olaraq inşa etdirilmiş Muxtarov məscidinin minarələri məğrurcasına ucalır. Mozdokda qardaş torpağı azad etmiş azərbaycanlı döyüşçülərin xatirəsinə obelisk ucaldılıb. Budur həqiqi dostluq və qardaşlıq yardımı nümunəsi, böyüməkdə olan nəsil üçün gözəl örnək. Budur, bu gün biz faşizmə qarşı döyüşlərdə həlak olanların xatirəsini anmaq üçün Şimali Osetiya torpağında toplaşmışıq. Əminəm ki, bu cür görüşlər təkcə mövcud qardaşlıq, dini əlaqələrin möhkəmlənməsinə deyil, həm də bu əlaqələrin xalqlarımızın, ümmətimizin rifahı naminə genişlənməsinə xidmət edəcək. Bizim həmrəyliyimiz faşizmə qarşı müharibədə həlak olmuş bütün insanların xatirəsinə gözəl töhfədir. Allah onların ruhunu şad eləsin! Şəhidlərimizin yeri cənnət olsun! Amin!

❖ ❖ ❖

Sonra Azərbaycanın **Baş Nazirinin müavini Şahin MUSTAFAYEV** çıxış edərək dedi:

- İcazə verin, sizi ürəkdən salamlayım və Rusiya tərəfinə səmimi qəbula və bu tədbirin yüksək səviyyədə təşkilinə görə dərin minnətdarlığımı bildirim.

Azərbaycan Respublikası MDB çərçivəsində humanitar əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir. Bu baxımdan ölkələrimizin mədəni dəyərlərinin və ortaq tarixi yaddaşımızın qorunub saxlanılması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında Böyük Vətən müharibəsində həlak olanların xatirəsini əziz tuturlar və dövlət müharibə veteranlarına böyük qayğı göstərir. 9 May - Qələbə Günü Azərbaycanda hər il yüksək səviyyədə qeyd olunur.

Məlum olduğu kimi, 2020-ci il Müstəqil Dövlətlər Birliyində 1941-1945-ci illər Böyük Vətən müharibəsində "Qələbənin 75 illiyi" elan edilib. Bu baxımdan bugünkü tədbirin keçirilməsi Azərbaycan tərəfi üçün xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan xalqı faşizm üzərində ümumi qələbəmizə misilsiz töhfə verib. Azərbaycanın 600 mindən çox oğlu və qızı Böyük Vətən müharibəsinin cəbhələrində rəşadətlə döyüşüblər, onların yarısı cəbhələrdə qəhrəmancasına həlak olub. Göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 170 mindən çox əsgər və zabit müxtəlif orden və medallarla təltif olunub. Bütün müharibə boyu Azərbaycan həyati əhəmiyyətli neft məhsullarının cəbhəyə əsas tədarükçüsü olub.

*Ardı 6-cı səh.*

# Şimali Osetiya-Alaniyada Böyük Vətən müharibəsində canlarından keçmiş azərbaycanlıların xatirəsinin anım mərasimi olub

## Azərbaycan nümayəndə heyəti anım mərasimində iştirak edib



Əvvəli 5-ci səh.

Neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü.

Faşist Almaniyasının Şimali və Cənubi Qafqazın, o cümlədən Bakının neft mədənlərinin ələ keçirilməsi üzrə "Edelveys" planı var idi. Bakı nefti olmadan sovet ordusu qələbə üçün çox zəruri olan yanacaqdan məhrum ola bilərdi.

Böyük Vətən müharibəsi zamanı Azərbaycanda beş milli diviziya formalaşdırılıb. 223-cü Azərbaycan atıcı diviziyası SSRİ Müdafiə Xalq Komissarlığının 1941-ci il 14 oktyabr tarixli əmri ilə Zaqafqaziya cəbhəsində formalaşdırılıb. Diviziyanın hissələri Azərbaycanda formalaşıb. Bu diviziya yaradılması üçün sözsüz ki, komandir - general mayor Heybət Atamoğlan oğlu Heybətova borcludur.

223-cü Azərbaycan atıcı diviziyası əvvəlcə Qudermesdən Xəzər dənizinə qədər ikinci eşelonda müdafiə mövqeyini tutub, 1942-ci ilin dekabrında isə Mozdok şəhərindən şərqə doğru birinci eşelona irəli çəkilib. Diviziyanın şərq istiqamətində zəfər yürüşü də buradan başlayıb. Azərbaycanın bu atıcı diviziyası Avropanın faşizmdən azad edilməsində böyük rol oynayıb. Diviziya Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Macarıstan, Avstriya və Çexoslovakiya ərazilərində gedən ağır döyüşlərdə iştirak edib.

Ümumilikdə 223-cü atıcı diviziya 3600 kilometr döyüş yolu keçib. Onun minlərlə döyüşçüsü orden və medallarla təltif edilib, iki nəfərə isə Sovet İttifaqı Qəhrəmanı adı verilib. Bu tarixi faktların hamısı yaşlı nəslə yaxşı məlumdur, lakin bizim gənc nəsil də onları bilməlidir.

Bu gün bəzi ölkələrdə həmin müharibə haqqında həqiqətlərin təhrif olunması cəhdləri göstərilir, kimlərsə tarixi yalan əsasında yenidən yazmağa cəhd edir. Bu, yolverilməzdir. Ona görə biz etirazımızı bildirməli və bununla bağlı fikirlərimizi söyləməliyik. Bu gün faşist ideologiyası bəzi yerlərdə yenidən baş qaldırır. Biz buna yol verə, biganə qala bilmərik.

Təəssüf hissi ilə vurğulamaq istərdim ki, Azərbaycan xalqı XX əsrin sonlarında yenidən təcavüzkar faşizmin təzahürləri ilə üzləşib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan Respublikasının ərazilərinin 20 faizi Ermənistan Respublikasının işğalı altındadır, Dağlıq Qarabağın azərbaycanlı əhalisi isə etnik təmizləməyə məruz qalıb, bir milyondan çox azərbaycanlı yaşadığı tarixi yerlərdən zorla didərgin salınıb, qaçqın və məcburi köçkünə çevrilib.

Qeyd etmək lazımdır ki, bütün sivil dünyanın faşistlərin qəhrəmanlaşdırılmasına qarşı çıxdıqları bir vaxtda MDB məkanında, xüsusən Ermənistan Respublikasında faşizmin qəhrəmanlaşdırılmasına cəhdlər göstərilir. Yerevanın mərkəzində faşist cəlladı və xain, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyanın altı metrlik heykəli qoyulub. MDB ölkələrindən olan veteran qrupları Ermənistan rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə qəti etirazlarını bildiriblər.

Rusiyanın Xarici İşlər Nazirliyi öz hesabatında onun Üçüncü Reyxlə cinayətkar əlaqələrini qeyd edib. Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun şəxsində Rusiyanın vicdanlı və cəsur vətəndaşları bu faktla bağlı qəti etirazlarını ifadə ediblər.

Çıxışımın sonunda faşist Almaniyası üzərində qələbədə Rusiya və Azərbaycanın birgə səylərinin əhəmiyyətini bir daha qeyd etmək, bunun xalqlarımızın birgə mübarizəsinin və sarsılmaz dostluğunun şərəfli dövrü olduğunu xüsusi vurğulamaq istəyirəm. Barışmaz düşmənlə döyüşlərdə göstərilmiş və möhkəmlənmiş bu hisslər əsrlər boyu yaşayacaq.

❖ ❖ ❖

**Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli HƏSƏNOV** çıxış edərək dedi:

- Əvvəlcə, 223-cü Azərbaycan atıcı diviziyasının xatirəsinə həsr olunmuş bugünkü tədbirdə iştirakınıza görə hamınıza təşəkkür etmək istərdim. Həmçinin bu bərəkətli torpaqda olduğumuz ilk dəqiqələrdən bizə göstərilən səmimi qəbula və qonaqpərvərliyə görə Şimali Osetiya-Alaniya Respublikasının rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

Bizi əlamətdar hadisə - Böyük Vətən müharibəsində Qələbənin 75-ci ildönümündən cəmi yarım il ayırır. Həmin illərin qəhrəmanlıq hadisələri əvvəlki kimi yaddaşlardan silinmir. Əksinə, atalarımızın və babalarımızın faşist Almaniyası ilə amansız döyüşlərdə göstərdikləri igidliyə görə qürur hissi ildən-ilə güclənir. Bu müharibədə Sovet İttifaqının başqa millətlərinin nümayəndələri kimi, azərbaycanlılar da öz ölkələrinin müdafiəsinə qalxdılar və təcavüzkarın darmadağın edilməsinə layiqli töhfələrini verdilər. Bizim əsgər və zabitlərimiz demək olar ki, bütün cəbhələrdə, o cümlədən Şimali Osetiyanın müdafiəsində rəşadətlə döyüşüblər. 1942-ci ilin ikinci yarısında məhz burada 223-cü atıcı diviziyanın da iştirak etdiyi qanlı döyüşlər başlayıb. Diviziya 86 faizinin azərbaycanlılar olduğu əsgər və zabitlərinin böyük bir hissəsini Şimali Qafqazın müdafiəsi uğrunda döyüşlərdə itirib. Yeri gəlmişkən, onların əksəriyyətinin 20 yaşı da olmayıb. Böyük Vətən müharibəsində həlak olmuş bütün döyüşçülərin ruhu şad olsun.

Məlumdur ki, İkinci Dünya müharibəsi illərində 223-cü diviziya Rumıniya, Bolqarıstan, Yuqoslaviya və Macarıstan ərazilərində gedən döyüşlərdə iştirak edib. Yuqoslaviyanın azad olunmasında döyüş xidmətlərinə görə ona "Belqrad" fəxri adı verilib. Ümumilikdə diviziya 3600 kilometr döyüş yolu keçib, düşmənin 25 mindən çox canlı qüvvəsini, 30 təyyarəsini, 100-dən artıq tankını məhv edib. Diviziyanın minlərlə döyüşçüsü orden və medallarla təltif olunub, onların ikisi isə ən yüksək mükafata - Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Ümumilikdə müharibə illərində Azərbaycan 600 mindən çox oğul və qızını cəbhəyə yollayıb. Onların təxminən yarısı canlarını faşist Almaniyası və onun müttəfiqləri üzərində qələbə uğrunda qurban verib. İşğalçılarla döyüşlərdə göstərdikləri rəşadətə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabit isə müxtəlif orden və medallarla təltif edilib.

Ölkənin yanacaqla təmin edilməsində də Azərbaycanın əvəzsiz rolu olub. Müharibə illərində neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi bizim respublikanın payına düşürdü. Mübaliğəsiz demək olar ki, Bakı nefti olmadan sovet ordusu düşmənə qalib gələ bilməzdi. Məhz ona görə Hitler Azərbaycanın neft yataqlarının ələ keçirilməsinə xüsusi əhəmiyyət verirdi. Lakin sovet əsgər və zabitlərinin, o cümlədən 223-cü atıcı diviziyanın şəxsi heyətinin qəhrəmanlığı sayəsində bu planı həyata keçirmək ona müyəssər olmadı.

Tarixin ən dağıdıcı və qanlı müharibəsinin başa çatmasından 75 ilə yaxın vaxt ötür. Təəssüf ki, son illər bəzi ölkələrdə müharibənin dərsləri unudulur, nasistlərin və onların əlaltılarının qəhrəmanlaşdırılması cəhdləri göstərilir. Məsələn, bir neçə il əvvəl Ermənistan paytaxtında Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyanın altı metrlik heykəli ucaldılıb. 2012-ci ildə isə Krasnodar diyarındakı Armavir şəhərinin erməni icması erməni Apostol kilsəsinin ərazisində ona xatirə lövhəsi qoyub. Onun Üçüncü Reyxlə fəal əməkdaşlıq etdiyi, Qızıl Ordunun hissələrinə qarşı döyüşən diversiya qrupu və bütöv bir erməni batalyonu yaratdığı məlumdur. Njdenin əsas şüarı belə olub: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Hesab edirəm ki, postsovet məkanında bu cür cinayətkarların qəhrəmanlaşdırılması cəhdlərinə yer olmamalıdır. Həm Yerevandakı abidə, həm də Armavirdəki xatirə lövhəsi sökülməli, onların təşəbbüskarları və təşkilatçıları isə cəmiyyətin bütün təbəqələri tərəfindən qəti şəkildə qınanmalıdır.

Bu baxımdan faşist işğalçıları və onların əlaltıları ilə döyüşlərdə həlak olmuş azərbaycanlı döyüşçülərin xatirəsinə abidə qoyulması xüsusi hörmətə və dərin minnətdarlığa layiqdir. Şübhəsiz ki, bu heykəl Azərbaycan və osetin xalqları, bütövlükdə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasındakı dostluğun daha bir rəmzidir.

Müstəqilliyini bərpa etdikdən sonra Rusiya ilə mehriban qonşuluq əlaqələrinin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin ən mühüm istiqamətlərindən biri olub. Sevindirici haldır ki, ikitərəfli əlaqələrimiz bütün istiqamətlərdə - siyasətdən humanitar sahəyədək inkişaf edir. Biz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik, iqtisadi-ticari və mədəni sahələrdə uğurlu qarşılıqlı fəaliyyət göstəririk, energetika və nəqliyyat sektorlarında birgə layihələr həyata keçiririk. Regionlararası əməkdaşlıq da ildən-ilə inkişaf edir. Rusiya Federasiyasının 70-dən çox subyekti Azərbaycanla iqtisadi-ticari və humanitar əlaqələr yaradıb. Onların arasında sizin respublika da var. 2015-ci ildə Azərbaycan və Şimali Osetiya-Alaniya hökumətləri arasında iqtisadi-ticari, elmi-texniki və mədəni əməkdaşlığa dair Saziş imzalanıb. Bu sənəd çərçivəsində müxtəlif sahələrdə əhəmiyyətli layihələr həyata keçirilir.

Bildiyiniz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin şəxsən dəstəyi ilə Vladiqafqazda XX əsrin böyük neft sənayeçisi və mesenatı Murtuza Muxtarovun inşa etdirdiyi məscid bərpa olunub. Qeyd etmək xoşdur ki, bizim ənənəvi dostluğumuzun və qardaşlığımızın təcəssümü olan bu memarlıq incisi Şimali Osetiyanın mədəni-mənəvi mərkəzlərindən biridir.

Sonda vurğulamaq istərdim ki, Azərbaycan gələcəkdə də həm Şimali Osetiya, həm də bütövlükdə Rusiya Federasiyası ilə əməkdaşlığın dərinləşdirilməsi və genişləndirilməsi niyyətindədir. Əminəm ki, biz birgə səylərlə ikitərəfli əlaqələrimizi yeni, daha yüksək səviyyəyə qaldıra biləcəyik.

❖ ❖ ❖

Anım tədbirində çıxış edən digər natiqlər də Böyük Vətən müharibəsində qələbənin qazanılmasında xalqımızın rolundan danışıblar. Bildirilib ki, müharibə zamanı 223-cü diviziya böyük qəhrəmanlıq yolu keçib, düşmənə ağır zərbələr vurub. Müharibədə həyati əhəmiyyətli neft məhsullarının - benzinin 80 faizi, motor yağlarının 90 faizi məhz Azərbaycanın payına düşürdü. Bu isə qələbənin qazanılmasında Azərbaycanın rolunun bariz nümunəsidir.

# Azərbaycan nümayəndə heyəti Rusiyanın Şimali Osetiya-Alaniya Respublikasının rəhbəri ilə görüşüb

Noyabrın 25-də Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyası Şimali Osetiya-Alaniya Respublikasının rəhbəri Vyaçeslav Bitarov ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Vyaçeslav Bitarov Azərbaycan və Şimali Osetiya xalqları arasında münasibətlərin daha da yaxşılaşdırılması üçün davamlı işlər görüldüyünü deyib. Bildirib ki, uzun illər qonşuluq şəraitində yaşayan xalqlarımız arasında dostluq münasibətləri var.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə nümayəndə heyətinin tərkibində həm dövlət rəsmilərinin, həm də ölkəmizdəki müxtəlif konfessiya rəhbərlərinin iştirak etdiklərini deyib. Qeyd edib ki, bu amil Azərbaycanda mövcud olan multikulturalizmin əyani sübutudur.



Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov vurğulayıb ki, Azərbaycan ilə Rusiya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Bu əlaqələrin əsas istiqamətlərini iki ölkənin prezidentləri müəyyənləşdirir və xalqların qarşılıqlı maraqları nəzərə alınır.

Səfər çərçivəsində Azərbaycan Prezidentinin şəxsi yardımı sayəsində Vladiqafqazda yenidən bərpa olunan Muxtarov məscidi də ziyarət olunub. Azərbaycan nümayəndə heyətinə məlumat verilib ki, hazırda məscidin ətrafında abadlıq işləri davam etdirilir. Nümayəndə heyəti həmçinin Alaniya Tarix Muzeyində olub.

# Şimali Osetiya-Alaniya Müsəlmanları Ruhani İdarəsinin 25 illiyinə həsr olunan tədbir keçirilib

## Tədbirdə Azərbaycan nümayəndə heyəti də iştirak edib

Noyabrın 25-də Vladiqafqazda Şimali Osetiya-Alaniya Müsəlmanları Ruhani İdarəsinin 25 illiyinə həsr olunan tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan nümayəndə heyəti ilə bərabər, Rusiya Federasiyası subyektlərinin dini rəhbərləri, dövlət rəsmiləri və ictimai xadimlər iştirak ediblər.

Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını iştirakçılara çatdırıb. Bildirib ki, ötən 25 ildə Şimali Osetiya-Alaniya Respublikası Müsəlmanları Ruhani İdarəsinin fəaliyyətini uğurlu hesab etmək olar. Qafqazın din xadimlərinin qardaşlıq əlaqələri bölgə müsəlmanlarının daha da yaxınlaşmasına, regionda sülhə və sabitliyə, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edir. Qafqaz müftiləri Bakıda İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin şəxsi qonağı statusunda iştirak ediblər. Vladiqafqazda Muxtarov məscidinin bərpa edilməsi ilə bağlı bizim Əlaqələndirmə Mərkəzi adından Prezident İlham Əliyevə müraciət edəndə dövlət başçısı bu çağırışa ona xas olan yüksək diqqətlə yanaşdı. Bu gün biz bu yüksək səviyyədə diqqətin şahidiyik.







Bu yaxınlarda bütün Qafqaz müftiləri Dünya dini liderlərinin II Bakı Sammitində iştirak ediblər. Bu, Qafqazda xoş ənənəyə çevrilib. Qarşılıqlı xeyirxah hisslər və münasibətlər bundan sonra da mehriban qonşuluq, həqiqi qardaşlıq məcrasında inkişaf etməlidir. Rəhbərlərimizin xalqlarımız arasında qarşılıqlı səmimi münasibətlərin inkişafı naminə səyləri istər Azərbaycanda, istərsə də Rusiyada səmimi əks-səda doğurur.

"Biz noyabrın 24-də 1942-ci ildə Şimali Osetiyanın Mozdok bölgəsinin azad edilməsi zamanı 223-cü Azərbaycan atıcı diviziyasının həlak olmuş döyüşçülərinin xatirəsinə həsr olunmuş tədbirdə iştirak etdik. Biz ortaq keçmişimizdə öz torpaqlarımızı birgə müdafiə etmişik, dinc gələcəyimizin qayğısına da birlikdə qalmalıyıq. Biz, din xadimləri, ölkələrimizin rəhbərlərinin dəstəyinə arxalanaraq xalqlarımızın və müqəddəs dinimizin layiqli və təhlükəsiz gələcəyinin təmin edilməsi işinə mümkün töhfəmizi verməliyik. Son illər Yaxın Şərqdə baş verən dəhşətli hadisələr baxımından bu məsələ xüsusilə aktualdır. Əminəm, ekstremizmə, radikalizmə, təkfirçiliyə yalnız dövlətlərin, ictimai və siyasi xadimlərin, dini birliklərin və dindarların birgə səyləri ilə müqavimət göstərmək olar" deyə Şeyxülislam Allahşükür Paşazadə qeyd edib.

Sonra Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Şimali Osetiya-Alaniya müftisi Hacımurad Qatsalovun region ölkələri üzrə dinlərarası münasibətlərin inkişafında xüsusi rolu olduğunu deyib. Əlavə edib ki, Hacımurad Qatsalov dinlərarası və millətlərarası münasibətlərə, konfessiyalararası dialoqa böyük töhfələr verib.

Əli Həsənov müfti Hacımurad Qatsalovun Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi sahəsində səmərəli fəaliyyətinə görə Prezident İlham Əliyevin sərəncamına əsasən "Dostluq" ordeni ilə təltif edildiyini bildirib.

Prezidentin köməkçisi Əli Həsənov ordeni Hacımurad Qatsalova təqdim edib.

Tədbir bədii hissə ilə davam edib.

# Prezident Administrasiyasının şöbə müdiri Təhlükəsizlik məsələlərinin tədqiqi üzrə Cenevrə Mərkəzinə videomüsahibə verib

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Təhlükəsizlik məsələlərinin tədqiqi üzrə Cenevrə Mərkəzinə videomüsahibə verib.

AZƏRTAC xəbər verir ki, müsahibədə H.Hacıyev Azərbaycanın xarici siyasət prioritetlərindən danışaraq, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsinin əsas vəzifələrdən biri olduğunu bildirib. Bununla bərabər Azərbaycanın xarici siyasət gündəliyində qonşu ölkələrlə və dünya dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın inkişafı, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və çoxtərəfli diplomatiyanın əhəmiyyətini qeyd edən H.Hacıyev ölkəmizin təşəbbüskarı olduğu "Bakı Prosesi" barədə məlumat verib. Çoxtərəfli diplomatiyaya toxunan H.Hacıyev ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Qoşulmama Hərəkatına sədrliyini diqqətə çatdırıb.




Regional təhlükələrdən danışan H.Hacıyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, işğal olunmuş ərazilərdə Azərbaycanın mülki əhalisinə qarşı törədilmiş etnik təmizləmə barəsində məlumat verərək münaqişənin həll edilməsi yollarını qeyd edib. O bildirib ki, münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrində tələb olunduğu kimi, Ermənistan qoşunları Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmalıdır.

H.Hacıyev videomüsahibədə həmçinin digər regional risk və təhdidlər barəsində də danışıb.

Müasir beynəlxalq münasibətlər sistemi haqqında suala cavabında H.Hacıyev qanunun aliliyi və beynəlxalq hüququn norma və prinsiplərinə hörmət edilməsinin vacibliyini vurğulayıb.

V i d e o m ü s a h i b ə y ə https://youtu.be/caEoormTtQ0 keçidi vasitəsilə baxmaq olar.

# Fransa-Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf edir

Noyabrın 25-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov Fransa parlamentinin deputatı Karolin Janvienin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Səməd Seyidov Fransanın AŞ PA-dakı yüksək səviyyəli təmsilçiliyindən söhbət açıb. O, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın parlamentdəki fəaliyyəti dönəmində Fransa-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupuna rəhbərlik etdiyini, o zamandan bu ölkə ilə münasibətlərin daha da inkişaf etdiyini vurğulayıb. Qeyd edilib ki, bu gün Fransa-Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf edir. Ölkəmizdə hazırda fransızdilli orta məktəb və universitet fəaliyyət göstərir.

Fransa parlamentinin deputatı Karolin Janvie səmimi görüş üçün təşəkkür edib. O, Azərbaycana Avropa Komissiyasının Tərəfdaşlıq Proqramı üzrə gəldiklərini, bu səfərin Şərq Tərəfdaşlığı və Avropa qonşuluq siyasəti çərçivəsində hazırlanacaq hesabata görə tanışlıq məqsədi daşıdığını dilə gətirib. Azərbaycanın zəngin tarixinə, Bakının qədim arxitekturasına heyran qaldıqlarını vurğulayıb. Qonaq ölkəmizin sürətlə inkişaf etdiyini, Azərbaycan hökumətinin öz vətəndaşlarının sosial vəziyyətinə çox diqqət ayırdığından məmnun qaldıqlarını vurğulayıb.

Söhbətdə deputatlar qonaqları maraqlandıran suallara ətraflı cavablar veriblər.

# VƏTƏN SEVDALILARI, DÖNÜKLƏR VƏ SATILMIŞLAR

**PREZİDENT İLHAM ƏLİYEV:** *“Biz bu tarixi yaddan çıxarmamalıyıq və gənclər bu tarixi bilməlidirlər. Bugünkü reallıqları düzgün təhlil etmək, bu reallıqlara düzgün qiymət vermək üçün biz bu acı dövrü yaddan çıxarmamalıyıq. Elə etməliyik ki, gənclər də bunu bilsinlər, hesab etməsinlər ki, bugünkü inkişaf, bugünkü tərəqqi göydən düşüb. Bilsinlər ki, biz buna qanımız, canımız bahasına nail olmuşuq. Biz tariximizin ən rüsvayçı səhifələrini də vərəqləməliyik. Ona görə ki, o rüsvayçı dövr təkrarlanmasın”.*

*Əvvəli 1-ci səh.*

**Amma o da baxır adamına, onun mənəvi dünyasına və fərdi keyfiyyətlərinə.**

*Ananı və Vətəni sevməmək - bu, mümkündürmü?!*

*Vətənə düşmənçilik etmək necə?!*

*Bəs belə övladlar tapılarsa, onda onlara nə ad vermək olar, yaxud necə bəraət qazandırasan?!*

❖ ❖ ❖

Vətəndə kimsə sənə yamanlıq edə bilər!

Vətəndə haçansa, hansı formadasa haqsızlıqla üzləşə bilərsən!

Hansısa məmurun, insanın hikkəsinin, yaxud əməlinin, məkrinin qurbanına çevrilmək də təsadüf edilən haldır.

Amma buna görə Vətəndən üz çevirmək, ondan qisas almaq necə?

Məntiqlidirmi, doğrudurmu?!

**Fərdin günahını Vətənin ayağına yazmaq ədalətlidirmi?!**

## VƏTƏN SEVDALILARI

Azərbaycan Xalq Cümhuriyyəti qurulanda ölkədə cəmi 102 ali təhsilli adam olub.

Onun 62-si Müsavat Partiyasının üzvü idi.

Qalan ziyalılarımız isə Qori Müəllimlər Seminariyasını bitirmişdi (intellektual potensialımıza özəl məktəblərdə oxumuşlar da daxil idi).

**Savad, bilik və intellekt sahiblərinin belə azlığına baxmayaraq, vətən övladları XX əsrin əvvəllərində mümkün olmayanı gerçəkliyə çevirdilər!**

**Azərbaycan adında müstəqil dövlət yaradaraq onu dünyaya tanıtdılar və qəbul etdirdilər!**

❖ ❖ ❖

*Həmin 102 insan Rusiya və Avropada təhsil almışdı.*

*Nə Avropada, nə də Qori Müəllimlər Seminariyasında təhsil Azərbaycan dilində deyildi!*

*Diqqət yetirək: özgə dildə, özgə prinsiplər və tələblər əsasında oxusalar da, mahiyyətcə dəyişmədilər!*

**Azərbaycanlı olaraq qaldılar!**

**Vətənlərini, millətlərini daha da çox sevdilər!**

**Pula yox, xalqlarına, dövlətlərinə xidmət yolunu tutdular!**

*Sona qədər, yorulmadan, bütün varlıqları ilə, heç nədən qorxub çəkinmədən, ruhdan düşmədən!*

*Avropadan və Rusiyadan ən yaxşı fikir və düşüncələri, ideya və qaydaları, işıqlı və mütərəqqi olanları doğma Vətənə gətirdilər ki, insanlar burada daha rahat, asudə, firavan yaşasınlar!*

*Elmli və savadlı, geniş dünyagörüşlü, müasir təfəkkürlü, gözüaçıq, yeniliyə meyilli olsunlar!*

Qurduqları dövlət kənar təsirlərin nəticəsində iflasa uğrasa da, yenə əqidələrindən dönmədilər!

Ölkədə qalanlar xalqa xidmət yolunu tutdular: sonda nəsibləri repressiya - həbsxana, sürgün, güllələnmə olsa da!

Mühacirət edənlər Vətənə dönüklük göstərmədilər: satqınlıq etmədilər, Azərbaycana asi çıxmadılar!

**Ehtiyac, sıxıntı içində yaşasalar da, doğmalarına, əzizlərinə həsrət qalsalar da, dözdülər, ümidlərini itirmədilər!**

**Mübarizələri Azərbaycanı “qırmızı müstəmləkəçilərdən” xilas etmək, Vətəni azad və müstəqil görmək uğrunda oldu!**

**Azərbaycana qarşı çıxanlara boyun əymədilər, kimdənsə muzd alıb əqidələrini dəyişmədilər, Azərbaycan xalqının maraqlarını daim uca tutdular!**

**Vətən həsrəti ilə dünyadan köçərkən dillərinin son sözü yenə Azərbaycan, Vətən oldu!**

*Onlar vətənsevənlər, millətsevənlər, azadlıqsevənlər - Vətən sevdalıları idilər!*

*Ona görə bu gün də ürəklərdə və tarixin şərəfli səhifələrində yaşayırlar!*

*Hamısının adını çəkmək mümkün olmasa da, az bir qismini yad edək:*

*Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Məhəmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağaoğlu, Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli...*

## DÖNÜKLƏR VƏ SATILMIŞLAR

İnsanlar dünyaya eyni şəkildə gəlsələr də, hərə bir cür gedir!

Hər insana gördüyü işə, tutduğu əmələ görə qiymət verilir!

Həm sağlığında, həm də dünyasını dəyişəndən sonra.

Pis əməlinə görə Allah da, dövlət də günahkarı cəzalandırır!

**Həyatda elə əməl və cinayət var ki, bağışlana bilir: əvvəl, ya müəyyən dövrdən sonra.**

**Eləsi də var ki, onu nə Allah bağışlar, nə də dövlət!**

**Bunlar Vətənə dönük çıxmaq, Vətəni satmaq, dövlətə və xalqa xəyanətdir!**

❖ ❖ ❖

Dövlətin gördüyü işdən, hansısa siyasətindən narazı qalmaq, atılan addımları bəyənməmək demokratik cəmiyyətdə adi və normal hal sayılır.

Müxalif mövqedə dayanmaq, iqtidara qarşı demokratik qayda və prinsiplər əsasında mübarizə aparmaq - bu da başadüşüləndir.

*Amma dövlətə düşmən mövqedə dayanmaq, yaxud dövlətə düşmənçilik edənlərin əllərində alətə çevrilmək - bu nə demokratiyadır, nə başadüşüləndir, nə də müxalifətçilik!*

*Özü də həm ölkənin çölündə, həm də içində!*

**Avropada təhsil alanlar, Avropa mədəniyyətinə və qabaqcıl ictimai fikrinə yiyələnənlər Vətəndən didərgin düşüb yenidən Avropada yaşamaq məcburiyyətində qaldıqda, azərbaycanlı olduqlarını bir an belə unutmadılar, Vətən sevgisi, Vətən təəssübü heç zaman onları tərk etmədi!**

**Bu gün isə Avropada yaşamaq eşqilə müxtəlif üsul və vasitələrlə ora gedib oturum alanların bir qismi Vətənə düşmən münasibəti bəsləyirlər!**

Sanki damarlarındakı Azərbaycanlı qanı da dəyişib!

Yaxşı, tutaq ki, Azərbaycan pisdir, burada yaşamaq istəmirsən, odur ki, çıxıb getmisən!

**Get də!**

*“Avropa demokratiyasından” gen-bol bəhrələn, yağ-bal içində yaşa!*

*Səni yolundan saxlayan, yaxud zorla geriyə qaytaran var?*

*Daha Azərbaycandan nə istəyirsən?!*

**Gərək çörəyini keçmiş vətəninə düşmənçilikdən qazanasan?**

**Gərək antiazərbaycançı şəbəkənin əlində Vətəninə qarşı mübarizə alətinə çevriləsən?**

**Gərək Azərbaycanı söydüyünə görə aldığın qrant hesabına yaşayasan?!**

Axı özgə millətlər sənin kimi etmir!

Əksinə, onlar diaspor hərəkatı yaradaraq Vətənlərinə dayaq olmağa çalışırlar!

Sizdən fərqli olaraq hətta ölkələrinin yalan, saxta, ayıb işlərini belə gizlətmək üçün yalanlar quraşdırıb yayırlar!

**Yaxşı, köməyin başına dəysin, düşmənçiliyin nədir?!**

**Axı od olsan belə, yalnız özünü yandırarsan!**

**Sizlər və sizin kimilər bugünkü müstəqil və qüdrətli Azərbaycana nə edə bilərsiniz?**

**Hətta yelə dönsəniz belə, ondan yan keçəcəksiniz!**

❖ ❖ ❖

Filosoflar deyirlər ki, hadisə mahiyyətin təzahürüdür!

Çox doğru buyururlar!

Əli Kərimlinin əməlləri elə əvvəldən öz mahiyyətinə uyğun olub:

- Ə.Elçibəyin sağ əli oldu, sonra onu satdı;
- AXC-nin başına keçmək üçün dəfələrlə bu təşkilatı parçalayıb dağıtdı;
- Özündən “hörmətli” kim var idisə, didərgin saldı, ya da başqa vasitə ilə axırına çıxdı;
- Müavinlərinin üstünlüyünü görən kimi, onları bir-bir ləkələyərək təşkilatdan perik saldı;
- Aldığı qrantları çox zaman (mümkün olan kimi) gizlincə yeyərək heç kəsə bildirmədi;
- Özünə də, ailəsinə və övladlarına da vaxtında “gün ağladı”, böyür-başını isə demokratiya uğrunda mübarizə adı ilə acyalavac saxladı!

*Amma Əli Kərimlinin düz söz deyən, obyektiv danışan vaxtı da olub!*

*25 may 1993-cü ildə, Prezident Aparatında keçirilən məşhur müşavirədə!*

Çox “silahdaşlarını” qabaqlayaraq özü dövlət katibi işləyən vaxtda!

**Əli Kərimli həmin müşavirəni unutmaq və unutdurmaq istəsə də, biz yadına salırıq:**

- “Xalqın böyük narazılığına səbəb olan bir qüsurumuz da iqtisadi sahədə cinayətkarlığın baş alıb getməsidir. İqtisadi sahədə cinayətkarlıq elə bir vüsət alıb ki, dövlət əmlakının açıq-aşkar mənimsənilməsi, qeyri-qanuni yollarla xaricə satılması, həmin vəsaitin xaricdə saxlanılması və bir sözlə, dövlət əmlakının talan edilməsi adicə hala çevrilib”.
- “İqtisadiyyatın bütün sahələrində cinayətkarlıq iri miqyas alıb və hətta ayrı-ayrı cinayət faktları göstərir ki, hüquq mühafizə orqanlarının da müəyyən vəzifəli şəxsləri daxil olmaqla artıq dövlət orqanlarının daxilində müəyyən cinayətkar təbəqələr formalaşmaqdadır”.
- “Bu gün Azərbaycanın maddi sərvətləri qaçaqmalçılıq yolu ilə talan olunur. Respublikanın on minlərlə iribuynuzlu mal-qarası, minlərlə texnikası və digər maddi sərvətləri sərhəddən qaçaqmalçılıq yolu ilə keçirilir. Bu, respublikanın iqtisadiyyatına sarsıdıcı zərbə vurur”.
- “Respublikada bütövlükdə nəinki qanunçuluq, hətta icra intizamı xeyli dərəcədə aşağıdır. Prezident fərman və sərəncamlarının icrası qənaətbəxş səviyyədə deyil. Bəzən elə ab-hava yaradırıq ki, qanunsuzluq, özbaşınalıq, hakimiyyətsizlik demokratiya ilə eyniləşdirilir. Çox təəssüf ki, hətta fərmanlar icra olunduğu təqdirdə belə istənilən nəticəni vermir. Qarşıya qoyulan məqsədə nail olunmur”.

**Heç gör beləsinə də inanar, onun dalınca düşərlər?!**

*Doğrudur, bunları cavanlar bilməsələr də, yaşlılar, xüsusən AXC-Müsavat cütlüyünü iqtidarda görənlər, ötən əsrin 90-cı illərinin əvvəllərini yaşayanlar yaxşı bilirlər!*

*Üstəlik, “it dalınca düşən”lərin nə tapdıqlarını da babalarımız neçə əsr bundan qabaq söyləyiblər.*

❖ ❖ ❖

## ÖZÜNÜ MÜXALİFƏT ADLANDIRAN ANTİMİLLİ VƏ TAMAMİLƏ RƏZİL OLMUŞ QORXAQ DƏSTƏ

**ABŞ Konqresi zamanın ən böyük ədalətsizliklərindən birini etdi: “erməni soyqırımı”nı tanıdı.**

**Heç bir konqresmenin görmədiyi, şahidi olmadığı “hadisə” barədə qərar çıxarıldı!**

**Nə tarixi faktlarla maraqlanan oldu, nə arxivlərdəki materiallara baxan, nə də əsl həqiqəti axtaran!**

*Türkiyədən hayıf çıxmaq, qisas almaq üçün bunu tez-tələsik, həm də ədalətsiz etdilər!*

*Azərbaycan ərazisinin 20 faizini işğalda saxlayan, Xocalı soyqırımını törədən, 20 min azərbaycanlını şəhid edən, faşist ideologiyasını yaşadan, vəsf edən erməniləri “soyqırımı qurbanları” kimi qəbul etdilər.*

Bu ədalətsizlik Türkiyəyə, deməli, həm də Azərbaycana qarşı törədilən haqsızlıq bütün xalqımızı, hər birimizi ağrıtdı!

**Bircə Əli Kərimlidən və ətrafından, radikal müxalifətdən başqa!**

**Özlərini görməzliyə, korluğa qoydular!**

**Özlərini eşitməzliyə, karlığa qoydular!**

**Özlərini bilməzliyə, qanmazlığa qoydular!**

**Amma əsl həqiqətin necə olduğunu görürlər də, bilirlər də!**

*Qorxdular ki, bir söz desələr, ABŞ-dakı ağalarının xətrinə dəyər!*

*Qorxdular ki, etiraz etsələr, əlləri dollar qrantından çıxar!*

*Qorxdular ki, qulaqlarını dartarlar ki, həddinizi bilin, yoxsa sizləri daha “demokrat sayıb” müdafiə etmərik!*

*Əslində antimilli ünsürlərin bu qorxaq susqunluğu xalqa və millətə xəyanətin bir növüdür!*

Hələ bir üzləri də var ki, mitinqə çıxmaq istəyəndə maraqlarını qorumadıqları xalqdan dəstək umurlar!

**Heç xalq satılmışlara dəstək verərmi?!**

Azərbaycan xalqı doxsanıncı illərdə gördüklərini və sizlərin iqtidar dövrü əməllərinizi unutmayıb!

“Azərbaycan Saatı”, “Turan TV”, “Azerfreedom TV”, “Meydan TV”, “Osmanqızı TV”, habelə xaricdə oturan və xaricdən maliyyələşdirilən neçə-neçə saytlar yorulmadan və dayanmadan Azərbaycana qarşı kin-küdurət, çirkab püskürürlər.

**Hamısının “qəhrəmanları”, “danışan dilləri” də azərbaycanlılardır!**

**Necə azərbaycanlıdırlar, onu bir Allah bilir!**

*Onları gecə-gündüz danışdıranlar (“hürdürənlər” demirəm) isə azərbaycanlı deyillər!*

*Heç pullarını da Azərbaycan manatı ilə ödəmirlər!*

*Bir də satılmışlara nə fərqi hansı valyutadır!*

*Təki pul verən olsun, satmağa isə nəsə tapacaqlar!*

❖ ❖ ❖

Bu gün Azərbaycanın kifayət qədər düşmənləri var!

Bu gün Azərbaycanın sərvətlərindən pay umanlar çoxdur!

Bu gün Azərbaycanın müstəqil siyasət yeridərək gündən-günə güclənməsindən narahatlıq keçirənlər var!

Bu gün Azərbaycanın sabit və inkişaf edən ölkəyə çevrilməsindən yuxusunu qaçıranlar da çoxdur!

**Kifayət qədər düşmən olduğu bir zamanda özümüzün də özümüzə düşmən kəsilməyimiz kimə gərəkdir?**

Yəqin ki, düşmənlərimizə, bir də onlara satılanlara!

Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti qurucularına qismət olmayanlar bu gün bizə nəsib olub!

23 ay əziyyət çəkənlər sonra nələr gördülər, hansı müsibətlərə düçar oldular!

Bugünkü Azərbaycan isə tarixinin ən qüdrətli məqamını yaşayır!

**Yaxşı, bu 28 ildə qazanılanların qədrini biz bilməsək, kim biləcək?!**

*Kimin mövqeyində dayanmalıyıq: Vətən sevdalılarının, yoxsa dönüklərin və satılmışların?!*

*Vətənpərvər insanlar üçün, Azərbaycan xalqı üçün bu sualın cavabı çoxdan bəllidir!*

Milçək bir şey olmasa da, könül bulandırır - demişlər!

**Bəxtiyar SADIQOV**

# 2020-ci ilin dövlət büdcəsi davamlı inkişafa zəmin yaradır

Cənubi Qafqazın lideri olan Azərbaycan Respublikası müstəqillik tarixinin ən qüdrətli dövrünü yaşayır. Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasını böyük müdrikliklə həyata keçirən Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamız son 16 ildə sosial-iqtisadi inkişaf baxımından ortaya mükəmməl nümunə qoyub, beynəlxalq miqyasda söz sahibi olan nüfuzlu dövlətə çevrilib.



Son dövrlərdə isə respublikamız inkişafının tamamilə yeni mərhələsinə qədəm qoyub. Həyata keçirilən islahatlar 2019-cu ilin ötən dövründə ölkənin davamlı inkişafını təmin edərək müsbət makroiqtisadi nəticələrin əldə edilməsini şərtləndirib. Bu baxımdan sona yaxınlaşan 2019-cu il Azərbaycanda iqtisadi yüksəliş, xüsusən qeyri-neft sektorunun və kənd təsərrüfatının inkişafı baxımından əlamətdardır. Belə ki, ilin ötən dövründə iqtisadiyyatın yüksələn temp üzrə artımı davam edib və qeyri-neft sektoru üzrə bütün sahələrdə 2018-ci illə müqayisədə artım əldə olunub. Statistik göstəricilərə əsasən, bu dövrdə iqtisadiyyatın qeyri-neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 3,5 faiz artıb. O cümlədən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 7,3 faiz artım qeydə alınıb.

İqtisadiyyat Nazirliyinin proqnozlarına əsasən, bu meyillərin 2020-ci ildə də davam etməsi gözlənilir. Bu proqnoza əsasən, gələn il ölkədə ÜDM-in real iqtisadi artımı 2,4 faiz olmaqla 82,7 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in artımı 3,3 faiz olmaqla 54,2 milyard manat təşkil edəcək.

Bu günlərdə Milli Məclisdə müzakirə olunan “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” qanun layihəsi və büdcə zərfinə daxil olan digər məsələlər respublikamızda gedən inkişaf proseslərinə uyğun hazırlanıb. Öncə onu qeyd etmək istərdim ki, son illərdə respublikamızın dövlət büdcəsi də iqtisadi inkişafla mütənasiblik təşkil edərək sürətlə artıb. Hazırda Qafqazda bütün sahələrdə liderlik edən Azərbaycan dövlət büdcəsinin gəlir və xərclərinə görə də birincidir. Bunun nəticəsidir ki, dövlət büdcəsinin tərtibi zamanı ölkə üçün vacib məsələlərin maliyyələşdirilməsinə daha çox diqqət yönəldilib. Sosial və investisiyayönümlülüyünə üstünlük vermək, iqtisadi və sosial islahatları dəstəkləməklə dövlətin müdafiə qabiliyyətini daha da gücləndirmək, iqtisadi, enerji, ərzaq və ekoloji təhlükəsizliyi stimullaşdırmaq, idxaldan asılılığı minimuma endirmək, regionların dinamik sosial-iqtisadi inkişafını təmin etmək dövlət büdcəsinin diqqəti çəkən tərəfləridir.

Yeni iqtisadi islahatların nəticəsi olaraq 2019-cu ildə nail olduğumuz uğurlar 2020-ci ilin dövlət büdcəsinin də artımla tərtib olunmasına imkan yaradıb. Layihə hazırlanarkən Prezident İlham Əliyevin dövlətimizin inkişafı üçün müəyyən etdiyi strateji xəttə və prioritet vəzifələrə uyğun olaraq sosial məsələlərin həllinə, əhalinin yaşayış və məşğulluq səviyyəsinin artırılmasına, ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsinə, regionların və sahibkarlığın inkişafına xüsusi diqqət yetirilib. Ona görə layihədəki gəlir və xərclərlə bağlı proqnozları məqbul hesab etmək olar. Büdcə hesablamalarında neftin qiymətinin 55 dollar həddində götürülməsini xüsusi vurğulamaq istərdim. Bu, bizim iqtisadi və maliyyə sektorlarımız üçün səfərbəredici amildir.

Dövlət büdcəsinin gəlirləri 24 milyard 134 milyon 500 min manat proqnozlaşdırılır. Bu ÜDM-in 29 faizi həcmində olmaqla, 2019-cu ilin proqnozu ilə müqayisədə 966,5 milyon manat və yaxud 4,2 faiz çoxdur. Büdcənin xərcləri isə 26 milyard 913,7 milyon manat (ÜDM-də xüsusi çəkisi 32,3 faiz), proqnozlaşdırılır ki, bu da 2019-cu ilə nisbətən 1 milyard 723,7 milyon manat və ya 6,8 faiz çoxdur.

Xüsusilə qeyd etmək istərdim ki, 2020-ci ildə sosialyönlü xərclərdə əhəmiyyətli artımlar təmin ediləcək. Belə ki, 2019-cu ilin mart və sentyabr aylarında əməkhaqlarının, pensiyaların, sosial müavinətlərin və təqaüdlərin artımını nəzərdə tutan 2 mərhələ üzrə sosial paketlər təsdiqlənmişdir. Bu zəmində minimum əməkhaqqının təxminən 2 dəfə artırılaraq 130 manatdan 250 manata, eləcə də minimum pensiyaların 72 faiz artırılaraq 116 manatdan 200 manata çatdırılması bu sahədə atılmış mühüm addımlardandır. Ona görə də gələnilki büdcədə sosial xərclərin çəkisi 37 faiz artmışdır. Bu da onu bir daha təsdiq edir ki, Azərbaycanın dövlət büdcəsi sosialyönümlüdür və Prezident İlham Əliyevin yürütdüyü siyasətin mərkəzində məhz insan amili dayanır.

İnsan kapitalının inkişafı, əmək məhsuldarlığının artırılması üzrə tədbirlər də büdcə siyasətinin əsas istiqamətlərindən biri olaraq qalacaq. Bu əsasda, təhsil islahatlarının davam etdirilməsi, məktəbəqədər təhsilin maliyyə təminatı, habelə ali məktəblərə dövlət sifarişi əsasında tələbə qəbulunun daha da genişləndirilməsi məqsədilə müvafiq maliyyə təminatı ayrılacaq. Belə ki, növbəti ildə elm xərclərinə 193,7 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2019-cu illə müqayisədə 57,4 milyon manat və ya 42,1 faiz çoxdur. Gələn il üçün təhsil xərclərinə isə 3 milyard 155,8 milyon manat vəsait ayrılmışdır. Bu da 2019-cu ilə nisbətən 873,6 milyon manat və ya 38,3 faiz çoxdur.

Aqrar sektora dövlət qayğısının genişləndirilməsi, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi və dövlət büdcəsindən birbaşa subsidiyaların verilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, əhalinin əsas ərzaq məhsulları ilə özünütəminin təşkili, dünya bazarlarında rəqabətədavamlı, ölkənin daxili tələbatında əhəmiyyət kəsb edən məhsulların istehsalının artırılması və çeşidinin genişləndirilməsi üçün 2020-ci ilin dövlət büdcəsində maliyyə bazası yaradılmışdır.

Konkret ifadə etsək, 2020-ci ilin dövlət büdcəsində aqrar sfera üçün 921 milyon manat ayrılıb. Bu da 2019-cu illə müqayisədə təxminən 85 milyon manat çoxdur. Bu vəsaitdən kənd təsərrüfatı tədbirləri üçün 447,4 milyon manat, baytarlıq tədbirləri üçün 35,4 milyon manat, meliorasiya, irriqasiya və suvarma sistemlərinin maliyyə təminatı üçün 426 milyon manat, kənd təsərrüfatı üzrə təcrübə, tətbiqi tədqiqatlar və tədbirlər üçün 12,2 milyon manat vəsait proqnozlaşdırılır. Kənd təsərrüfatı tədbirləri üçün nəzərdə tutulan vəsaitin 5 milyon manatı heyvanların və bitkilərin sığortalanması ilə bağlı xərclərə, 330 milyon manatı kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması ilə bağlı xərclərə, 7,3 milyon manatı fitosanitar və toxum nəzarəti, bitki sortlarının qeydiyyatı ilə bağlı xərclərə yönəldiləcək.

Yeni subsidiya mexanizminin tətbiqinə müvafiq olaraq fermerlərə kənd təsərrüfatı istehsal vasitələrinin alınmasına görə verilən əkin, 1-ci və 2-ci reproduksiyalı toxum və tinglərin satışına görə verilən toxum, yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması məqsədilə süni mayalanma yolu ilə alınan hər bir sağlam buzova görə verilən heyvan, hər arı ailəsinə görə verilən arı, yaş baramanın hər kiloqramına görə verilən barama subsidiyalarının, habelə lizinqə verilən və lizinq yolu ilə satılan texnikalara, suvarma sistemləri dəstinə və damazlıq heyvanlara dövlət büdcəsinin vəsaiti hesabına güzəştlərin tətbiqi, kənd təsərrüfatı sahəsində dövlət proqramlarının və digər tədbirlərin maliyyələşdirilməsi məqsədilə müvafiq məbləğdə vəsait proqnozlaşdırılır. Bütün bunlar bir daha dövlətin aqrar sferaya olan yüksək diqqətinin bariz nümunələridir.

Ölkədə kənd təsərrüfatının inkişafı ilə bağlı yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, suvarma sahələrinin genişləndirilməsi və digər meliorasiya tədbirlərinin maliyyə təminatı üçün 2020-ci ilin dövlət büdcəsində əlavə olaraq 112,9 milyon manat vəsait nəzərdə tutulması da olduqca təqdirəlayiqdir.

Deputatı olduğum seçki dairəsinin əhatə etdiyi Maştağa, Nardaran, Bilgəh və Zabrat qəsəbələrində son illər büdcə vəsaiti hesabına sosial obyektlərin tikintisi və təmiri, asfalt yollar çəkilməsi, abadlıq işlərinin görülməsi üçün çox böyük işlər görülmüş, bu qəsəbələrin siması xeyli dəyişmişdir. Bununla belə həyat inkişafdadır və zaman-zaman bir sıra məsələlərə yenidən baxmaq zərurəti yaranır.

Hazırda bu qəsəbələrdə sakinlərin əsas xahişlərindən biri məktəblərdə şagird sıxlığının aradan qaldırılmasıdır. Son vaxtlar Bakı ətrafı qəsəbələrdə əhalinin sıxlığından irəli gələrək bəzi məktəblərdə tədris üç növbəli aparılır. Məsələn, 10-15 il əvvəl Maştağa qəsəbəsində əhalinin sayı 50 min nəfərdən artıq idisə, indi bu rəqəm 80 mini ötüb. Ona görə Milli Məclisdə büdcə müzakirələrində qaldırdığım məsələlərdən biri şagird çoxluğu ilə əlaqədar tədrisi 3 növbədə həyata keçirən məktəblər üçün yeni korpusların tikintisi barədə oldu. İnanırıq ki, hökumət bu məsələni nəzarətdə saxlayacaq.

Sakinlərin başqa bir xahişi qəsəbədaxili yolların yenidən qurulması barədədir. Dövlət başçısının tapşırığı ilə bu sahədə olan problemlərə birdəfəlik son qoyulacaq. Bu il oktyabrın 17-də Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədovu qəbul edən Prezident İlham Əliyev qəsəbədaxili yollara da mütləq fikir vermək lazım olduğunu qeyd etmiş, Kürdəxanıda yaradılmış gözəl nümunənin bütün qəsəbələrdə öz əksini tapmasının vacibliyini bildirmişdi. Noyabrın 20-də isə dövlət başçısı “Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının, həmçinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” sərəncam imzalamışdı. Sərəncama əsasən, Zabrat və Maştağa da daxil olmaqla Sabunçu rayonunun 4 qəsəbəsində avtomobil yollarının, su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üçün 6 milyon manat vəsait ayrılmışdı. Bu sərəncam həmin qəsəbələrin sakinləri tərəfindən böyük razılıqla qarşılanmış və onlar cənab Prezidentə minnətdarlıqlarını bildirmişlər.

Təkliflərimdən biri də Zabrat qəsəbəsində mədəniyyət evinin inşası ilə bağlıdır. Çünki bu qəsəbədə mədəniyyət evi demək olar ki, yoxdur. Vaxtilə fəaliyyət göstərmiş bir mədəniyyət evi uzun illərdən bəri bağlıdır. O cümlədən Gənclər evinin inşası qəsəbədə gənclərin asudə vaxtlarının səmərəli keçirmələrinə imkan verər.

Təxminən il yarımdır ki, Maştağa qəsəbəsindəki 7 saylı xəstəxananın binasında əsaslı təmir işləri başlayıb. Təmir işlərinin sürətlənməsi və gələn ilin əvvəllərində xəstəxananın istifadəyə verilməsi qəsəbə sakinlərinin xahişidir.

Bütövlükdə Azərbaycanın əsas maliyyə sənədi olan dövlət büdcəsi 2020-ci ildə də ölkə iqtisadiyyatının davamlı inkişafına, icra olunan dövlət proqramlarının reallaşdırılmasına zəmin yaradır. Ən əsası dövlət büdcəsinin göstəriciləri belə bir qənaət formalaşdırır ki, iqtisadi sferada hər il yaranan keyfiyyətcə yeni situasiya bütün sahələrdə inkişafın davamlı olmasına yol açır.

***Eldar QULİYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini, iqtisad elmləri doktoru, professor.***

# *Siyavuş NOVRUZOV:* “Azərbaycanın Birinci vitse-prezidentinin Rusiyaya səfəri iki ölkə arasında strateji tərəfdaşlığın inkişafına mühüm töhfədir”



“Cənubi Qafqaz regionunun lider ölkəsi olan Azərbaycan yüksək beynəlxalq nüfuza, müsbət reputasiyaya malikdir. Dünyada böyük etimad qazanan ölkəmiz müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Eyni zamanda, Azərbaycan regional və qlobal təhlükəsizliyə fundamental töhfələr verir, beynəlxalq miqyasda əməkdaşlığın dərinləşməsində və inteqrasiyanın intensiv xarakter daşımasında mühüm rol oynayır. Ölkəmizin təşəbbüsü və liderliyi ilə reallaşdırılan transmilli enerji və nəqliyyat-kommunikasiya layihələrinin səmərəli geostrateji nəticələri bunun bariz nümunəsidir. Bir sözlə, praqmatik, çoxvektorlu və milli maraqlara əsaslanan müstəqil xarici siyasət kursu Azərbaycanın ikitərəfli və çoxtərəfli münasibətlərinin davamlı inkişafını, respublikamızın beynəlxalq mövqeyinin mütəmadi olaraq möhkəmlənməsini şərtləndirir”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov KİV-ə açıqlamasında bildirib.

Siyavuş Novruzov qeyd edib ki, bütün bu reallıqların qanunauyğun nəticəsi kimi, istər regional, istərsə də qlobal miqyasda mühüm təsir imkanları və mexanizmlərinə malik olan müstəqil milli dövlətlər, eləcə də beynəlxalq münasibətlər sistemində güc mərkəzləri kimi çıxış edən ölkələr tərəfindən Azərbaycanın dünya siyasətində fəal rolu, həyata keçirilən praqmatik strateji kursu yüksək qiymətləndirilir, respublikamızla müxtəlif sahələri əhatə edən əlaqələrin inkişafına böyük əhəmiyyət verilir. Bu baxımdan Rusiya Federasiyasının Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verməsi qeyd edilməlidir. Öz növbəsində, Azərbaycanın xarici siyasət kursunda da Rusiya Federasiyası ilə qarşılıqlı faydalı münasibətlər mühüm yer tutur.

### Rusiya-Azərbaycan münasibətləri çoxşaxəli xarakter daşıyır, hər iki ölkənin milli-strateji maraqlarına cavab verir

Mühüm məqamlardan biri budur ki, qarşılıqlı səfər və görüşlər iki ölkə arasındakı münasibətlərin inkişafına əhəmiyyətli töhfələr verir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri bu baxımdan mühüm əhəmiyyətə malikdir. Birinci vitse-prezident Mehriban Əliyeva bəhs olunan səfər çərçivəsində keçirdiyi görüşlər zamanı qeyd edib ki, Azərbaycan Rusiya ilə qarşılıqlı münasibətlərə müstəsna dərəcədə böyük əhəmiyyət verir: “Ölkələrimizi möhkəm, qədim dostluq və mehriban qonşuluq əlaqələri birləşdirir. Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi, həmçinin hər iki tərəfin birgə səyləri sayəsində bu gün münasibətlərimiz strateji tərəfdaşlıq kimi xarakterizə olunur. Fəal siyasi dialoq mövcuddur. Azərbaycan və Rusiya prezidentləri mütəmadi olaraq görüşlər keçirirlər. Bu görüşlər, demək olar ki, bütün sahələrdə münasibətlərin inkişafına güclü impuls və dinamizm verir”.

İki ölkə arasında əlaqələr çoxşaxəli xarakter daşıyır. Eyni zamanda, iqtisadi sahədə də əməkdaşlığın inkişaf dinamikası məmnunluq doğurur. Başqa sözlə, ticari-iqtisadi sahədə əlaqələr müsbət dinamikaya malikdir, uğurla inkişaf edir. Əmtəə dövriyyəsinin davamlı olaraq artması isə iqtisadi-ticari əlaqələrin səmərəliliyini göstərən mühüm faktlardandır. Hər iki tərəfin təsdiq etdiyi “Yol xəritələri”nin reallaşdırılması da, heç şübhəsiz, qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsi, bütün sahələrdə inteqrasiyanın intensiv xarakter daşıması baxımından böyük önəm daşıyır. Ən əsası, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir, qeyri-neft məhsullarının idxalı üzrə birinci yeri tutur. Əmtəə dövriyyəsində ötən il 19 faiz artım olub və 2,6 milyard ABŞ dolları təşkil edib. Bu ilin 9 ayında isə artım 24 faizə çatıb. Azərbaycan iqtisadiyyatına yatırılan Rusiya sərmayələrinin həcmi 4,9 milyard dollardır, Azərbaycan Rusiyaya 1,2 milyard dollar sərmayə qoyub.

Hazırda Azərbaycanla Rusiya arasında 140-a yaxın dövlətlərarası və hökumətlərarası müqavilə və saziş qüvvədədir. Ötən il 2024-cü ilədək olan dövr üçün Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə imzalanan proqram sənədi özündə 5 “yol xəritəsi”ni ehtiva edir ki, buraya da ticarətin və qarşılıqlı sərmayələrin həcminin artırılması, nəqliyyat potensialının inkişafı, birgə müəssisələrin yaradılması, rəqəmsallaşma sahəsində, büdcə-vergi sektorunda təcrübə mübadiləsi, həmçinin humanitar əlaqələr daxildir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiya Federasiyasına səfəri zamanı diqqət mərkəzində olan məsələlərdən biri də humanitar və təhsil sahəsində əməkdaşlıq olub. Bu gün məmnunluq hissi ilə qeyd edə bilərik ki, iki ölkə arasında humanitar əlaqələr uğurla inkişaf edir. Xüsusilə də təhsil sahəsində intensiv təmaslar mühüm əhəmiyyətə malikdir. Azərbaycanda 338 məktəbdə tədris rus dilində aparılır, 14 ali məktəbdə rus dilində bölmələr var, 50 məktəbdə Təhsil Nazirliyinin rus dilinin intensiv tədrisi pilot layihəsi uğurla həyata keçirilir. Bununla yanaşı, Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları Azərbaycanda uğurla fəaliyyət göstərir. Eyni zamanda, 2019-cu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birgə həyata keçirilməsinə başlanıb.

### Rusiya-Azərbaycan Regionlararası Forumu müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsinə zəmin yaradan nadir platformadır

Azərbaycan ilə Rusiya arasında münasibətlərin yüksələn xətlə inkişafına mühüm töhfələr verən əhəmiyyətli amillərdən biri regionlararası əlaqələrin intensiv xarakter daşımasıdır. Dövlət başçılarının siyasi iradəsi əsasında regionlararası forumların keçirilməsi müstəsna əhəmiyyətə malikdir. Forum işgüzar dairələr arasında birbaşa ünsiyyətin qurulmasını, qarşılıqlı investisiya layihələrinin genişləndirilməsini, yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından olduqca səmərəli platformadır. Birinci vitse-prezident Mehriban Əliyevanın səfəri zamanı Moskvada keçirilən X Azərbaycan-Rusiya Regionlararası Forumu da əməkdaşlığın genişlənməsi baxımından çox mühüm əhəmiyyətə malikdir. Forumda iştirak edən Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi: “Regionlararası əməkdaşlıq bizim ikitərəfli münasibətlərimizin mühüm tərkib hissəsidir. Azərbaycan Rusiya Federasiyasının 70-dən çox subyekti ilə iqtisadi əlaqə saxlayır. Regionlararası forumların keçirilməsi yaxşı bir ənənəyə çevrilib və regionlararası əlaqələrin genişlənməsi işində mühüm rol oynayır. Keçən ilin sentyabrında Bakıda bundan əvvəlki forumun açılışında iki dövlətin başçılarının iştirakı regionlararası əməkdaşlığa ali səviyyədə əhəmiyyət verilməsinə dəlalət edir. Budəfəki forum çərçivəsində rəqəmsallaşma, kənd təsərrüfatı, turizm sahələrində, humanitar sahədə ikitərəfli qarşılıqlı fəaliyyətin perspektivləri ətraflı müzakirə edilib. Ümidvaram ki, əvvəlki illərdə olduğu kimi, bu forumun da nəticələri bizim ikitərəfli münasibətlərin möhkəmlənməsinə öz töhfəsini verəcək”.

Hazırda iki ölkənin ayrı-ayrı regionları arasında əlaqələr kifayət qədər yüksək səviyyədədir. Azərbaycanın və Rusiyanın regionları arasında əlaqələrin intensivləşməsi və yeni istiqamətləri əhatə etməsi üçün hər iki ölkənin müvafiq qurumları tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Yeni ölkələrimiz arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün kompleks işlər görülür. Rusiya Federasiyasında Azərbaycanın ticarət nümayəndəliyinin yaradılması, Həştərxanda Azərbaycan Biznes Mərkəzinin, Bakıda Rusiya İxrac Mərkəzinin nümayəndəliyinin açılması, qarşılıqlı ticarət missiyalarının həyata keçirilməsi və şirkətlərin ölkələrimizdə keçirilən beynəlxalq sərgilərdə iştirakı belə tədbirlərdəndir. Bunlarla yanaşı, qarşılıqlı investisiya qoyuluşu sahəsində də fəal əməkdaşlıq həyata keçirilir. Tərəflər ticarət və investisiya qoyuluşu sahələrində əməkdaşlığın davam etdirilməsində maraqlıdırlar. Bu kontekstdə Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar şuraları da əhəmiyyətli rol oynayır, həmçinin sənaye, energetika, turizm, nəqliyyat, kənd təsərrüfatı, İKT və digər sahələrdə geniş əməkdaşlıq imkanları mövcuddur. Beləliklə, Rusiya və Azərbaycanın regionları, işgüzar dairələri və təşkilatları arasında praktik əməkdaşlığın genişlənməsində əsas rol Rusiya-Azərbaycan Regionlararası Forumuna məxsusdur.

### Mehriban xanım Əliyevanın “Dostluq” ordeni ilə təltif edilməsi onun Rusiya-Azərbaycan dostluq münasibətlərinin möhkəmlənməsinə yönəlmiş fəaliyyətinə verilən yüksək qiymətdir

Nəticə etibarilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafına öz töhfəsini verəcək. Yeri gəlmişkən, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü zamanı da bu məsələlər diqqət mərkəzində olub. Görüş zamanı Vladimir Putinin Rusiya-Azərbaycan münasibətlərinin inkişafı və möhkəmləndirilməsində göstərdiyi xidmətlərə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya “Dostluq” ordenini təqdim etməsi xüsusi qeyd edilməlidir. Bu, Mehriban xanım Əliyevanın fəaliyyətinin beynəlxalq müstəvidə yüksək dəyərləndirilməsinin daha bir bariz nümunəsidir. Sirr deyil ki, Mehriban xanım Əliyeva ölkəmizi beynəlxalq miqyasda layiqincə təmsil edən, öz fəaliyyəti ilə Azərbaycanın davamlı inkişafına müstəsna töhfələr verən ictimai-siyasi xadim kimi tanınır. Onun fəaliyyəti həm ölkə miqyasında, həm də beynəlxalq müstəvidə olduqca yüksək qiymətləndirilir. Bunun göstəricisidir ki, Mehriban xanım Əliyeva indiyədək mədəniyyətin təbliği və beynəlxalq mədəniyyət mübadiləsi, elm, səhiyyə, idman, təhsil, texnologiya və ekologiyanın inkişafı işinə verdiyi töhfəyə, həmçinin ictimai, sosial və mədəni həyatda fəal iştirakına, cəmiyyətin dinamik inkişafına verdiyi mühüm töhfələrə, mədəniyyətimizin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə müxtəlif nüfuzlu beynəlxalq mükafatlara layiq görülüb. Təltif olunduğu çoxsaylı nüfuzlu beynəlxalq mükafatlar - Fransanın “Şərəf legionu” ordeni, UNESKO-nun “Qızıl Motsart” medalı, Rusiyanın Yüzillik Mesenatları Beynəlxalq Xeyriyyə Fondunun “Yaqut xaç” ordeni, “II dərəcəli Müqəddəs Meləksima Knyaginya Olqa” ordeni və digərləri onun dünyadakı nüfuzunun göstəricisidir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiya Federasiyasının dövlət mükafatı - “Dostluq” ordeni ilə təltif edilməsi isə onun Rusiya-Azərbaycan dostluq münasibətlərinin möhkəmlənməsinə yönəlmiş fəaliyyətinə verilən yüksək qiymətdir.

# Azərbaycan multikulturalizminə həsr olunmuş növbəti kitab çapdan çıxıb



Noyabrın 25-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə maliyyə dəstəyi ilə nəşr olunan “Azərbaycan multikulturalizmi. Etnik müxtəliflik xəzinəsi” kitabının təqdimat mərasimi keçirilib. İngilis dilində nəşr edilən kitabda Azərbaycanda yaşayan etnik xalqların mədəniyyətindən bəhs olunur.

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimindən əvvəl Azərbaycan Pedaqoji Universitetinin 4-cü kurs tələbəsi Kənan Məmmədovun ssenarisi əsasında hazırlanan “Şərqin tolerantlıq qapısı” adlı qısametrajlı film nümayiş olunub.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov tədbiri açaraq multikulturalizmin cəmiyyətdə mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, xalqları birləşdirən mədəniyyətin formalaşmasına töhfə verdiyini bildirib. Azərbaycanın multikulturalizm ənənələrindən danışan icraçı direktor nəşrin əhəmiyyətini qeyd edib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov bildirib ki, Azərbaycan dünyada multikulturalizmin ən çox inkişaf etdiyi ölkələrdən biridir. Multikulturalizmin Azərbaycanın dövlət siyasətinin bir hissəsi olmaqla bərabər, həm də xalqımızın həyat tərzinə çevrildiyini qeyd edən şöbə müdiri deyib: “Azərbaycanda müxtəlif xalqların, dinlərin nümayəndələri əsrlər boyu dinc və mehriban şəraitdə yaşayıblar. Ulu Öndər Heydər Əliyev deyirdi ki, Azərbaycan müxtəlif millətlərin, xalqların dinc və yanaşı yaşadığı ölkədir. Bir çox fərqli mədəniyyətlərin birgəyaşayış tərzini özündə əks etdirən multikulturalizm cəmiyyətdəki etnik müxtəlifliyin tənzimlənməsinin ən uğurlu modelidir. Mədəni müxtəlifliyin qorunması ilə əlaqədar UNESKO-nun 2001-ci il noyabrın 2-də qəbul etdiyi Bəyannamədə belə bir fikir yürüdülür ki, mədəni müxtəliflik məhz yaradıcılığın, inkişafın mənbəyidir”.

Etibar Nəcəfov həmçinin bildirib: “Elə dövlətlər var ki, onlar dini və mədəni müxtəlifliyin əleyhinə çıxır, ölkələrində başqa millətlərin yaşamasını istəmirlər. Belə ölkələrdən biri də mənfur qonşumuz Ermənistandır. Hələ ötən əsrin 30-cu illərində burada Qaregin Njde adlı qatı millətçi fəaliyyət göstərirdi və o, Böyük Vətən müharibəsi illərində faşist Almaniyası ilə ittifaqa girmişdi. Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən iclasında çıxışında belə bir insana abidə qoyulmasını kəskin surətdə pislədi”.

Azərbaycan dövlətinin və xalqının etnik müxtəlifliyə, multikulturalizmə müsbət baxdığını, onu dəstəklədiyini vurğulayan Prezident Administrasiyasının şöbə müdiri yeni kitabın da bunu təsdiqlədiyini qeyd edib.

Sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, bu kitab Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir. O deyib: “Düşünürəm ki, bu kitab təcavüzkar və işğalçı Ermənistana qarşı informasiya müharibəsində ən yaxşı silahlardan biri olacaq. Biz bu istiqamətdə bütün imkanlardan istifadə etməliyik. Dünyada 8 milyard insan var, lakin 50 milyonluq yalnız 25 xalq mövcuddur ki, onlardan da biri Azərbaycan xalqıdır”. BBMM kimi, Mənəvi Dəyərlərin Təbliği Fondunun da mütəmadi olaraq kitablar nəşr etdirdiyini, tariximizin, mədəniyyətimizin dünyaya çatdırılması, təbliğ olunması üçün mühüm işlər görüldüyünü bildirən dövlət komitəsinin sədri deyib ki, Dünya dini liderlərinin II Bakı Sammitinin Bakıda keçirilməsi ölkəmizin tolerantlıq məkanı olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyevin sammitdə çıxışı dini liderlər tərəfindən maraqla qarşılandı və onlar ölkəmizdə tolerantlığın, multikulturalizmin hökm sürdüyünün əyani şahidi oldular. Mənəvi və dini dəyərlərin təbliği və qorunmasının daim diqqət mərkəzində olduğunu deyən M.Qurbanlı kitabın elektron versiyasının yayılmasının önəmini diqqətə çatdırıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov qeyd edib ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və fond artıq ikinci ildir birgə layihələr həyata keçirir. O, nəşrin əhəmiyyətindən danışaraq ingilis dilində çap edilən kitabın Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün yaxşı vasitə olduğunu vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev çıxışında bildirib ki, islam dini bütün insanları birliyə çağırır. Dövlət başçısının ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinə hər zaman diqqət və qayğı göstərdiyini diqqətə çatdıran sədr müavini hər il müxtəlif dinlərin nümayəndələrinin Ramazan süfrəsinə dəvət olunduqlarını və birgə nahar etdiklərini deyib.

Sonra çıxış edənlər - AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, professor Maisə Rəhimova, Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov, İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov, ölkəmizdəki kürd icmasının ağsaqqalı Əhmədе Həpo, Alban-Udi Xristian İcmasının rəhbəri Robert Mobili, Mifodiy Ata və başqaları Azərbaycanda mövcud olan multikultural ənənələrdən danışıblar.

Sonda kitabın müəllifləri Dövlət İqtisad Universitetindəki Multikulturalizm Mərkəzinin rəhbəri, professor Məhəbbət Paşayeva və BBMM-in Analitika şöbəsinin məsləhətçisi Araz Qurbanov nəşrin ərsəyə gəlməsində göstərilən dəstəyə və köməyə görə minnətdarlıqlarını ifadə ediblər.

# Bakı Dövlət Universitetinin 100 illiyinə həsr olunan Məzun Forumu keçirilib




Noyabrın 25-də Bakı Konqres Mərkəzində Bakı Dövlət Universitetinin (BDU) 100 illiyinə həsr olunan Məzun Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, forumun əsas məqsədi “Universitet - məzun” münasibətləri sistemində inteqrasiya proseslərinin inkişafı, Azərbaycanda təhsilin, elmin və milli mədəni dəyərlərin xaricdə tanıdılması, beynəlxalq təhsil və elmi əməkdaşlığın gücləndirilməsi, karyera qurmaq üçün BDU daxilində mütərəqqi metodların formalaşdırılması və inkişafı üçün insan resurslarının inkişaf etdirilməsidir.

Tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Bakı Dövlət Universiteti (BDU) Azərbaycanda bir çox ali təhsil ocaqlarının və elmi müəssisələrin, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasında baza rolunu oynayıb. Ölkənin ictimai-siyasi həyatında BDU və onun məzunları hər zaman fəal iştirak ediblər. Ötən 100 il ərzində universitetin 180 minə yaxın məzunu olub.

“İnanıram ki, forum təcrübə mübadiləsinə və yeni əməkdaşlıqların qurulmasına töhfə verəcək. Bizim məzunlarımız öz universitetlərinin daha da inkişaf etməsi üçün səylərini əsirgəməməlidirlər” deyə rektor Elçin Babayev qeyd edib.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev çıxışında vurğulayıb ki, Bakı Dövlət Universiteti həmişə Azərbaycanın ən qabaqcıl universiteti olub. Fəxr edirəm ki, mən də bu universitetin tələbəsi olmuşam. Təhsil aldığım 5 il ərzində universitetdə bilik əldə etmişəm, həyat dərsi keçmişəm. Bu gün bura toplaşmaqda məqsədimiz universitetin bizə verdiklərinin bəhrəsinin müəyyən bir hissəsini doğma universitetimizə qaytarmaqdır.

Forum çərçivəsində “Qloballaşan dünyada universitetlərin rolu: yeni çağırışlar və gözləntilər” mövzusunda iclas keçirilib. İclasda Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, Tarix fakültəsinin 1977-ci il məzunu Hicran Hüseynova, Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, BP-nin Azərbaycan-Gürcüstan-Türkiyə üzrə vitse-prezidenti, Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin 1999-cu il məzunu Bəxtiyar Aslanbəyli, TTK Molekulyar biologiya laboratoriyasının müdiri (Kembric, Böyük Britaniya), Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin 1985-ci il məzunu Qərib Mürşüdov, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri, Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin 2002-ci il məzunu Leyla Abdullayeva, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Əliyev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin 1999-cu il məzunu Arye Qut, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov və digərləri çıxışlarında qloballaşan dünyada universitetlərin yeri və roluna diqqət çəkib, həyatın müxtəlif sahələri kimi təhsil mühitinin də çağırışlarla üzləşdiyini qeyd edərək gələcək inkişafa hesablanmış addımlar atılmasının zəruriliyini bildiriblər. Universitetin keçdiyi ötən 100 il ərzində Azərbaycanın intellektual potensialının formalaşmasında, milli-mənəvi dəyərlərin qorunmasında, müxtəlif sahələr üzrə yüksəkixtisaslı kadrlar hazırlanmasında mühüm rol oynadığını vurğulayıblar. Universitetin gələcək inkişafı istiqamətində fikir və təkliflərini səsləndiriblər.

Məzun Forumu öz işini “Bakı Dövlət Universiteti məzunlarının gələcək birgə fəaliyyət istiqamətləri” mövzusunda iclasla davam etdirib. İclasda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri, Hüquq fakültəsinin 2005-ci il məzunu Ülvi Mehdiyev, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) prezidenti vəzifələrini icra edən, Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin 2007-ci il məzunu Yusif Abdullayev, Almaniyanın Humbolt Universitetinin kafedra müdiri, Şərqşünaslıq fakültəsinin 1979-cu il məzunu Eva Mariya Aux, “İrs” və “Azerbaijan Airlines” jurnallarının baş redaktoru, Jurnalistika fakültəsinin 1991-ci il məzunu Musa Mərcanlı, Türkiyənin Akdeniz Universitetinin professoru, Kimya fakültəsinin 1980-ci il məzunu Tərlan Məmmədov forumun məzunlara birgə fəaliyyət istiqamətində gözəl imkan yaradacağına əmin olduqlarını bildiriblər.

İclasda BDU-nun müxtəlif ölkələrdən olan məzunları arasında akademik, elmi, texnoloji və biznes sahələrində əməkdaşlıqlarını möhkəmləndirmək üçün “Beynəlxalq Məzun Assosiasiyası” yaradılıb. İclas mövzu istiqamətində maraqlı müzakirələrin aparılması ilə başa çatıb.

Sonda rektor Elçin Babayev BDU məzunlarına forumda iştirakları, çıxışları və maraqlı təklifləri üçün təşəkkürünü bildirib. Qeyd edib ki, Məzun Forumu təcrübə mübadiləsi və yeni əməkdaşlıqların qurulması üçün əlverişli platformadır.

Xatırladaq ki, forumun 300-dən çox iştirakçısı arasında Bakı Dövlət Universitetinin Azərbaycan, Amerika, Avropa, Yaxın Şərq, Asiya, MDB və dünyanın digər regionlarından olan məzunları, müxtəlif təşkilatların və birliklərin nümayəndələri var.

# Dövlət sərhədindən buraxılış məntəqələrindəki mövcud vəziyyətlə əlaqədar xidməti müşavirə keçirilib

Noyabrın 25-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəhbərliyinin, DSX Sərhəd Nəzarətinin vəzifəli şəxslərinin və sərhəd nəzarəti məntəqələrinin rəislərinin iştirakı ilə dövlət sərhədindən buraxılış məntəqələrində mövcud vəziyyətlə əlaqədar xidməti müşavirə keçirilib.

DSX rəisi general-polkovnik Elçin Quliyev xidməti müşavirədə çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə görülmüş işlər nəticəsində son illər xarici ölkələrlə sosial-iqtisadi münasibətlərin inkişafı, qarşılıqlı faydalı ticarət əlaqələrinin genişləndirilməsi və ölkəmizə turizm axınının artması ilə əlaqədar dövlət sərhədindən buraxılış məntəqələrindən keçən şəxslərin və nəqliyyat vasitələrinin sayının ciddi artımı şəraitində DSX-nin sərhəd nəzarətinin xidməti fəaliyyətinin daha da gücləndirilməsinin mühüm əhəmiyyət kəsb etməsini vurğulayıb.

Müşavirədə dövlət sərhədindən buraxılış məntəqələrinin fəaliyyətinin statistik göstəricilərində müsbət dinamikanın müşahidə olunması, bu nailiyyətlərin qazanılmasında həyata keçirilmiş islahatların və struktur dəyişikliklərinin mühüm rol oynaması vurğulanıb. Belə ki, cari ildə 15 milyon 612 min 117 şəxs (2018-ci illə müqayisədə 11 faiz çox) və 1 milyon 960 min 403 nəqliyyat vasitəsi (12 faiz çox) dövlət sərhədindən buraxılıb. Saxta və özgəsinə məxsus sənədlərlə dövlət sərhədindən keçməyə cəhd edən 505 nəfər, axtarışda olduğuna görə 4458 nəfər saxlanılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqları əsasında DSX əməkdaşlarının sosial-məişət vəziyyətinin gücləndirilməsinin, şəxsi heyətin pul təminatının artırılmasının, sərhəd nəzarəti məntəqələrinin hərbi qulluqçuları üçün əlavə maliyyə vəsaitlərinin ayrılmasının sərhədçilərin xidmətinə ən yüksək səviyyədə göstərilən ali diqqət və qayğının ifadəsi olması bildirilib.

Sərhəd nəzarəti məntəqələrinin fəaliyyətində əldə olunmuş nailiyyətlərin qorunub saxlanılmasının və daha da artırılmasının mühümlüyü xüsusi vurğulanıb.

Sərhəd nəzarətinin vəzifəli şəxslərinin məruzələri, o cümlədən dövlət sərhədindən keçən şəxslər və nəqliyyat vasitələri üzərində sərhəd nəzarətinin keçirilməsi müddətlərinin maksimal azaldılması və sürətli keçidinin təmin olunmasına dair təklifləri dinlənilib, xidməti fəaliyyətin təkmilləşdirilməsi məsələləri müzakirə edilib.

Dövlət sərhədindən buraxılış məntəqələrində etik davranış qaydalarının və vətəndaşların hüquqlarının pozulması, onlara qarşı kobudluq edilməsi, korrupsiya hallarına və xidməti pozuntulara qarşı ciddi mübarizə aparılması, təkcə cari il ərzində xidmətlərində yol verdikləri nöqsanlara görə 55 hərbi qulluqçunun sərhəd nəzarəti sahəsindən kənarlaşdırılması qeyd olunub.

Xidməti müşavirədə DSX-nin Sərhəd Nəzarətinin “Şıxlı” sərhəd nəzarəti məntəqəsinin rəisi, polkovnik-leytenant Gündüz Qafarov xidməti fəaliyyətində yol verdiyi nöqsanlara görə vəzifəsindən kənarlaşdırılıb.

Müşavirənin sonunda normativ-hüquqi aktların və rəhbər sənədlərin tələblərinə riayət olunması, dövlət sərhədindən buraxılış məntəqələrində xidmətə nəzarətin daha da gücləndirilməsi istiqamətində əlavə tapşırıqlar verilib.

***“Azərbaycan”***

# Akademik Arif Paşayev Xarkov Aviasiya İnstitutunun fəxri adları ilə təltif edilib





Ukraynanın N.Y.Jukovski adına Milli Aerokosmik Universitetinin Xarkov Aviasiya İnstitutunun rektoru, professor Nikolay Neçiporuk, Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski, "Azərbaycan Hava Yolları" QSC və "Silk Way" aviaşirkətinin prezidentlərinin müşaviri, akademik Dmitri Kiva, eləcə də universitetin və səfirliyin bir qrup nümayəndəsi "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) nəzdindəki Milli Aviasiya Akademiyasında (MAA) olublar.

AZAL-ın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfər zamanı qonaqlar "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov və Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevlə görüşüblər.

Görüş zamanı Ukrayna Milli Aerokosmik Universitetinin və Azərbaycan Milli Aviasiya Akademiyasının elm və təhsil sahələrində həyata keçirdikləri inkişaf strategiyasının aktual məsələləri, eləcə də tədris müəssisələri arasında əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Görüşdə professor N.Neçiporuk Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevə N.Y.Jukovski adına Ukrayna Milli Aerokosmik Universitetinin Xarkov Aviasiya İnstitutunun "Fəxri elmlər doktoru" və "Fəxri professor" attestatlarını təqdim edib.

N.Neçiporuk bu fəxri adların Ukrayna Milli Aerokosmik Universitetinin Elmi Şurasının müvafiq qərarları əsasında Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevə elmin və təhsilin inkişafına verdiyi töhfəyə, aviasiya texnikasının diaqnostikasında müasir metod və vasitələrin tətbiq olunmasına, aerokosmik sahə üçün mütəxəssis hazırlığında görülən işlərə görə verildiyini qeyd edib.

Görüş zamanı həmçinin Ukrayna Milli Aerokosmik Universiteti və Azərbaycan Milli Aviasiya Akademiyası arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Sonra ukraynalı qonaqlar Azərbaycan Milli Aviasiya Akademiyasının infrastrukturu, elmi-praktik və tədris-təcrübə bazası ilə tanış olub, müəllim və tələbələri ilə görüşüblər.

# Rusiya Hökumətinin Sədri Dmitri Medvedev AZƏRTAC da daxil olmaqla MDB ölkələri xəbər agentliklərinin rəhbərləri ilə görüşüb



MDB ölkələri informasiya agentliklərinin rəhbərləri noyabrın 25-də Moskvada Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Medvedevlə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Rusiyanın TASS agentliyinin baş ofisində keçən görüş MDB Ölkələri İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) XXVII iclası çərçivəsində baş tutub. AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov da görüşdə iştirak edib.

Rusiya Hökumətinin Sədri Dmitri Medvedev görüşdə qeyd edib ki, İnformşura MDB ölkələrini birləşdirir və vahid informasiya məkanı dövlətlər arasında əlaqələrin inkişafı üçün vacib amildir. "Sizin agentliklər arasında olan münasibətlər bir sıra təşkilati məsələləri həll etməyə imkan verir. Əsas məsələ informasiyanı operativ şəkildə almaq, ölkələrimizdə baş verən hadisələr barədə doğru-dürüst məlumat verməkdir" deyə Dmitri Medvedev bildirib. Rusiya Hökumətinin Sədri qeyd edib ki, insanların təhrif olunmuş məlumatlar alması bir çox anlaşılmazlıqların yaranmasına səbəb olur. O, həmçinin feyk xəbərlər məsələsinə toxunaraq dövlət agentlikləri kimi etibarlı xəbər mənbələrinin rolunun bu baxımdan müstəsna əhəmiyyətə malik olduğunu vurğulayıb.

Görüşdə Rusiyanın TASS agentliyinin baş direktoru Sergey Mixaylov sözü AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanova verərək gələn il AZƏRTAC-ın 100 yaşını qeyd edəcəyini bildirib. Aslan Aslanovun Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri zamanı Prezident Vladimir Putin və Dmitri Medvedev ilə görüşlərinin nəticələri barədə verdiyi sualı cavablandıran Hökumət Sədri qeyd edib ki, görüşlərdə ikitərəfli əlaqələrin demək olar bütün aspektləri müzakirə edilib. Dmitri Medvedev danışıqların iqtisadiyyat, sosial və humanitar sahələri əhatə etdiyini və səfərin uğurlu olduğunu söyləyib.

Rusiya Hökumətinin Sədri Belarusun BelTA agentliyinin baş direktorunun sualını cavablandırdıqdan sonra görüş başa çatıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Erməni təxribatının "Sumqayıt ssenarisi"

***Əvvəli 1-ci səh.***

Separatçı, millətçi, terrorçu erməni və ermənipərəst qüvvələr tərəfindən Sumqayıtda tüğyan etmiş iğtişaşlar nəticəsində müxtəlif millətlərdən ölənlər olmuşdur. Bu iğtişaşları araşdırmaq üçün SSRİ Baş Prokurorluğu tərəfindən 18/55461-88 nömrəli xüsusi cinayət işi açılmış, 444 nəfər adam məhkəmə qarşısında cavab verməli olmuş, onlardan 400 nəfəri 10-15 sutka təcridxanalarda saxlanılmış, bir neçəsi uzunmüddətli həbs cəzasına, 1 nəfəri - Əhməd İman oğlu Əhmədov isə ən yüksək cəzaya - ölüm cəzasına məhkum olunmuş və bu hökm tez-tələsik yerinə yetirilmişdir.

1989-cu ilin sentyabr ayında ermənilər Sumqayıtda törədilmiş hadisələrlə bağlı geniş mətbuat konfransı keçirdilər. Daşnakların "Quşamatyan" adlanan tarix-maarifçilik cəmiyyətinin Ermənistan Jurnalistlər İttifaqı ilə birlikdə Yerevanda təşkil etdikləri həmin konfransda 300 nəfərdən çox adam - alimlər, tarixçilər, yazıçı və publisistlər, mətbuat nümayəndələri, hüquqşünaslar iştirak etmişdilər. Ermənilər bu konfransın materiallarını bir çox xalqların dillərində, o cümlədən rus dilində 50 min tirajla "Sumqait... Qenosid... Qlasnost..." adlanan kitabda nəşr etdirib dərhal anti-Azərbaycan təbliğat maşınına ötürmüşdülər. Sumqayıtlı alimlər Həsən Sadıqov və Ramazan Məmmədovun "Sumqayıt: milli əsarət, ya milli səxavət?" kitabında verilən məlumata görə, konfransda çıxış edən Ermənistan parlamentinin deputatı, filologiya elmləri doktoru Suren Zolyan hadisələrə siyasi rəng verərək demişdir: "Sumqayıt hadisələri 70 il Sovet Azərbaycanında hökm sürmüş milli əsarət siyasətinin təbii təzahürü idi".

Sumqayıtda törədilmiş hadisələr barədə Sovet İttifaqının və xarici ölkələrin mətbuatında dərc olunmuş, dünyanın kütləvi informasiya vasitələrində, radiolarda, televiziya kanallarında səslənmiş materialların əksəriyyəti erməni mövqeli, birtərəfli, qərəzli xarakter daşımışdır. İnformasiya müharibəsində erməni tərəf ölçüyəgəlməz dərəcədə fəallıq göstərmiş, azərbaycanlılar haqqında böhtan xarakterli yalanlar yaymağa müvəffəq olmuşdur.

## Niyə ermənilər öz təxribatları üçün Sumqayıtı seçdilər?

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bir sıra məsələlərlə yanaşı, Sumqayıt hadisələrinə də aydınlıq gətirildi və onun başvermə səbəbləri araşdırıldı. Məhz bundan sonra ermənilərin əsl siması üzə çıxdı. Məlum oldu ki, Sumqayıt hadisələri əvvəlcədən planlaşdırılmış ssenari əsasında həyata keçirilib. Ermənilər əslində bununla gələcəkdə həyata keçirəcəkləri digər faciələri ört-basdır etmək niyyəti güdürdülər.

Sumqayıt hadisələrinin başvermə səbəbləri araşdırılarkən ortaya belə bir sual çıxır: ermənilər öz təxribatlarını həyata keçirmək üçün niyə məhz bu yolu seçdilər? Cavab məlumdur: ölkəmiz əleyhinə güclü ideoloji mübarizə aparmaq, habelə soydaşlarımızın indiki Ermənistandan zorla qovulmalarının səbəblərini ört-basdır etmək. Onlar belə bir ssenarini beynəlxalq aləmdə Azərbaycan haqqında mənfi rəy formalaşdırmaq məqsədilə reallaşdırdılar. Xəyanətkar qonşularımız dünyaya əvvəlcədən guya azərbaycanlıların Sumqayıtda yaşayan ermənilərə qarşı zorakılıq etdiklərini, təzyiqlər göstərdiklərini planlaşdırılmış formada təqdim etməyə can atırdılar. Halbuki əslində insanları qətlə yetirənlər elə ermənilərin özləri idi.

Təəssüf ki, respublikamız həmin dövrdə güclü informasiya blokadasına alınmışdı. Dünyaya birbaşa çıxışımız olmadığından əsl həqiqətləri beynəlxalq aləmə çatdıra bilmirdik, xarici aləmdən təcrid olunmuşduq. Azərbaycanın digər bölgələrində baş verən iğtişaşlar da "Krunk" təşkilatının gizli dəstəyi ilə hazırlanmış məxfi əməliyyatların tərkib hissəsi idi. Sov.İKP MK-nın birinci katibi Mixail Qorbaçovun, akademik Aqanbekyanın, digər yüksək vəzifəli ermənilərin, habelə SSRİ Dövlət Təhlükəsizlik Komitəsi əməkdaşlarının da bu işdə xüsusi rolu vardı.

O vaxtlar şəhərin icra qurumlarının, hüquq mühafizə orqanlarının fəaliyyəti SSRİ rəhbərliyi tərəfindən ciddi şəkildə nəzarətə götürülmüşdü. Şəhər prokuroru İsmət Qayıbovun və digər səlahiyyət sahiblərinin hadisələrə qarışmağa ixtiyarı yox idi. SSRİ Prokurorluğunun xüsusi istintaq qrupu, Dövlət Təhlükəsizlik Komitəsinin nümayəndələri şəhərə ezam olunmuşdular. Hadisələr baş verərkən soydaşlarımızın qeyri-qanuni həbs edilmələri, ölüm cəzasına məhkum olunmaları məhz bu amillərlə bağlı idi. Şəhərə əvvəlcədən çəkiliş və terrorçu qrupların göndərilməsi, xarici müşahidəçilərin dəvət edilməsi bu hadisələrin məqsədyönlü şəkildə düşünülmüş planın tərkib hissəsi olduğunu göstərirdi.

O vaxt Sumqayıtda bir qrup adam istədiyi özbaşınalığı edir, aidiyyəti təşkilatlar isə seyrçi münasibət göstərirdilər. Səriştəsiz rəhbərlərin bu cür hərəkətləri onların şəhərdə fəallığını daha da artırdı. Şəhər partiya komitəsinin birinci katibi Cahangir Müslümzadə həmin vaxt məzuniyyətdə olduğundan hadisələrə vaxtında və lazımi reaksiya verilmədi. Yalnız bir gün keçdikdən sonra Mərkəzi Komitənin səlahiyyətli nümayəndələri şəhərə gəldilər. Erməni təbliğat maşını baş verənləri lentə köçürərək dünyaya çatdıranda yerli təşkilatlar çaşbaş qalaraq, nələrin baş verdiyini heç müəyyənləşdirə də bilmirdilər. Hadisələr şəhərdə keçmiş SSRİ-nin hüquq mühafizə orqanlarının səlahiyyətli nümayəndələrinin gözü qarşısında baş verir, onlar isə bunun qarşısını almaq barədə belə heç düşünmürdülər.

Ermənilər Sumqayıtı əbəs yerə hədəf seçməmişdilər. Həmin ərəfədə minlərlə soydaşımız Ermənistandan - öz ata-baba yurdlarından qaçqın düşmüşdü. Soydaşlarımız Sumqayıta pənah gətirərkən burada gizli erməni təxribatçıları fəaliyyət göstərirdilər. Planlı şəkildə aparılan qətllər, talanlar və digər cinayət halları göstərir ki, proseslər şəhərdəki qüvvələr tərəfindən idarə edildi. Hadisələrin Moskvadan göndərilmiş yüksək səlahiyyətli şəxslərin gözü qarşısında törədilməsi onların hər şeydən məlumatlı olduğunu söyləməyə əsas verirdi.

Ümumiyyətlə, 1988-ci il fevral ayının 27-də Sumqayıtda iğtişaşlara əvvəlcədən planlaşdırılmış şəkildə start verilmişdi. İtaətsizlik baş alıb getmişdi. Hüquq mühafizə orqanları iflic vəziyyətinə düşmüşdü. Bütün silahlar onlardan alınmışdı. Nəticədə bir çox ticarət, ictimai-iaşə və məişət obyektləri dağıdılmış, maşınlar yandırılmışdı. Mitinq iştirakçılarını sakitləşdirmək qeyri-mümkün idi. Həmin anlar sovet qoşunları Sumqayıtın ayrı-ayrı məhəllə və mikrorayonlarına dislokasiya olunmuşdu. Lakin hadisələrin qarşısını almaq üçün müdaxilə edilməmişdi. Fevral ayının 28-də və 29-da şəhərdə qanlı aksiya baş vermişdi. Mart ayının 1-də isə şəhərdə komendant saatı elan olunmuşdu. İndi o günləri xatırlayanda hələ də aktuallığını itirməmiş suallarla üzləşirsən. Məsələn, sovet qoşunları niyə gözləmə mövqeyi tutmuşdu?

Mixail Qorbaçov 1988-ci il iyul ayının 18-də SSRİ Ali Sovetinin iclasında "Qoşunlar Sumqayıta bir saat gecikmişdi" fikrini söyləmişdi. Bu fikir tamamilə yalan idi. SSRİ müdafiə naziri Yazov "Sumqayıtın əks-sədası" sənədli filminin çəkiliş qrupuna verdiyi müsahibəsində bu faktı təkzib etmişdi. Filmin ssenari müəlliflərindən biri, sumqayıtlı jurnalist Eyruz Məmmədov o günləri belə xatırlayır: "Dmitri Yazov tam ciddiyyəti ilə bizə bildirdi ki, Sovet ordusu heç bir vaxt heç bir yerə gecikməyib. Baş komandanın əmri olmadan komendant saatı elan etməyə, əsgərin silah işlətməyə, güllə atmağa ixtiyarı yoxdur".

Erməni ekstremistləri məhz Sumqayıt şəhərini ona görə seçmişdilər ki, orada 10 minə yaxın yeniyetmə texniki peşə məktəblərində təhsil alırdı. Azərbaycanın müxtəlif regionlarından gələn həmin gənclərin əksəri valideyn nəzarətindən uzaq idi. Şəhərdə kriminogen vəziyyət xoşagələn deyildi.

Həmin günlər 100-dən yuxarı saqqallı və qara gödəkçə geyinmiş erməni ekstremisti Sumqayıtda idi. Əksəriyyəti "Dalğa" və "Sumqayıt" mehmanxanalarında qalırdı. Onlar əhali arasında müxtəlif şayiələr yayır, ara qızışdırır, ermənilərin evlərinə soxulmağa təşviq edirdilər. Gənclər də asanlıqla təxribata uyurdular.

Ermənistan rəhbərliyi, ideoloqları Sumqayıt hadisələrindən bir kart kimi istifadə edərək azərbaycanlıları vəhşi, quldur, qaniçən bir millət kimi dünya ictimaiyyətinə təqdim etmək üçün təbliğat mexanizmini işə saldılar. "Azərbaycanda ermənilər qırılır, qətlə yetirilir, başları kəsilir, yandırılır" və s. kimi cəfəng uydurmalar yayılırdı. Hadisələr zamanı Sumqayıta xaricdən ezam olunmuş Artaşes Qabrielyan videokamera ilə hadisələrin bəzi məqamlarını lentə alırdı, sonralar onlar montaj olunub xarici telekanallarda göstərilirdi.

Sumqayıtda baş verən hadisələrdə əsas təşkilatçılardan və icraçılardan biri Eduard Qriqoryan idi. O, iki dəfə məhkum olunmuşdu və heç yerdə işləmirdi. "Krunk"un fəal üzvü idi. İstintaq qrupunun materiallarından aydın olur ki, 1988-ci il fevral ayının ortalarında onun yaşadığı mənzilə Yerevandan bir qrup emissar gəlib. Belə ki, Qriqoryan təlimatlandırılmış, ona pul, narkotik vasitələr verilmişdi. "Paşa" ləqəbli Edik ertəsi gün ətrafına bir neçə azyaşlı yeniyetmə və gəncləri toplayıb, yaxın günlərdə bəzi əməliyyatlarda iştirak etsələr, çoxlu pul verəcəyini bildirərək onları şirnikləndirmiş və 1988-ci il fevral ayının 27-29-da Sumqayıtda iğtişaşlara rəhbərlik etmişdi.

***(ardı var)***

***"Azərbaycan"***

# Moskvada MDB İnformasiya Agentlikləri Rəhbərləri Şurasının iclası keçirilib



Moskvada Rusiyanın TASS agentliyinin təşkilatçılığı ilə MDB Ölkələri İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) XXVII iclası keçirilib.

Üzv agentliklər tərəfdaşlıq əlaqələrinin inkişafını, Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinə həsr olunan layihələri və hazırlıq işlərini müzakirə ediblər.

TASS agentliyinin baş direktoru, İnformşuranın sədri Sergey Mixaylov qələbənin gələn il qeyd ediləcək 75 illiyinə üzv agentliklərin də hazırlaşdığını, bu təntənəli hadisənin özəlliklərini nümayiş etdirən layihələr hazırlandığını diqqətə çatdırıb. O, TASS-ın bu təqvim ilə əlaqədar arxiv şəkillərdən ibarət böyük fotosərgi təşkil edəcəyini bildirib.

TASS-ın baş direktorunun birinci müavini Mixail Qusmanın təklifi ilə üzv agentliklərin də qatılacağı "Mətbuat müharibədə" adlı layihə icra olunacaq. Birgə layihə arxiv fotoları və cəbhədə informasiya işi ilə məşğul olan jurnalistlər barədə məlumatları bir yerə toplamağa imkan verəcək.

İclasda Belarusun BelTA agentliyinin baş direktoru İrina Akuloviç, Özbəkistanın UzA agentliyinin baş direktoru Abdusaid Kuçimov və digər agentliklərin rəhbərləri çıxış edərək görəcəkləri işlər barədə məlumat veriblər. İclasda MDB İcraiyyə Komitəsinin nümayəndəsi Aleksandr Zavarzin də təmsil etdiyi strukturun qələbənin 75 illiyinə hazırlığı barədə danışıb.

AZƏRTAC-ın bu əlamətdar hadisəni geniş işıqlandıracağını deyən İdarə Heyətinin sədri Aslan Aslanov Azərbaycanda da bu böyük tədbirə hazırlıq işlərinin görüldüyünü bildirib. İdarə Heyətinin sədri İnformşuranın gələn ilin martında AZƏRTAC-ın 100 illik yubileyi çərçivəsində Bakıda keçirilməsini təklif edib. Şura növbəti XXVIII iclasın Azərbaycanda təşkil edilməsini dəstəkləyib.

İclas iştirakçıları üçün TASS-ın baş ofisində ekskursiya təşkil edilib, qonaqlar xəbərlər departamenti, muzey və konfrans zalı ilə tanış olublar.

# Azərbaycanlı iş adamları "Japan Food Expo Fair" sərgisində iştirak edəcəklər

**Noyabrın 27-dən 29-dək Tokioda "Japan Food Expo Fair" (Yaponiya qida məhsulları ixracatı) sərgisi açılacaq. Üçüncü dəfə təşkil edilən sərgiyə azərbaycanlı iş adamları da qatılacaqlar.**

Bu barədə AZƏRTAC-ın Yaponiya bürosuna Bakıda fəaliyyət göstərən "Foodstaff Co.LTD" şirkətinin prezidenti Tsuyoşi Kaneda məlumat verib. Qeyd olunub ki, Yaponiya Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyinin təşkil etdiyi sərgidə 700-dək şirkətin nümayəndələrinin iştirak edəcəyi gözlənilir.

T.Kaneda əlavə edib ki, beş şirkəti təmsil edəcək doqquz nəfər iş adamından ibarət Azərbaycan nümayəndə heyəti sərgidə nümayiş olunan Yaponiya qida məhsullarının ölkəmizə idxalı imkanlarını araşdıracaq, bu məqsədlə yapon şirkətləri ilə müzakirələr aparacaq. Nümayəndə heyətinin tərkibinə Azərbaycanı təmsil edən supermarket və restoranların menecerləri daxildirlər.

Üç gün davam edəcək sərgi noyabrın 29-da başa çatacaq.

# Cari ildə Bakıda 17,1 mindən çox mənzil təbii qazla təmin olunub

**"Azəriqaz" İstehsalat Birliyinin yaydığı məlumata görə, Prezident İlham Əliyevin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" 2019-cu il 19 fevral tarixli fərmanının icrası ilə əlaqədar Bakı şəhərində bir çox binanın istismara qəbulu prosesi sürətləndirilib.**

Fərmandan irəli gələn məsələlərin operativ həlli məqsədilə "Azəriqaz" İstehsalat Birliyi tədbirlərini davam etdirir. Belə ki, bu il noyabrın 1-nə olan məlumata görə, 293 yaşayış binası üzrə 17 min 104 mənzil, oktyabrda isə 60 yaşayış binası üzrə 2504 mənzil təbii qazla təmin olunub.

# 2150 nəfər əlilliyi olan şəxs özünüməşğulluq proqramına cəlb edilib



Prezident İlham Əliyevin tapşırığına əsasən, icra edilən özünüməşğulluq proqramına cəlb olunmaq üçün müraciət edənlər arasında həssas qruplara, o cümlədən əlilliyi olan şəxslərə üstünlük verilir.

Cari ilin ötən dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən artıq 2150 nəfər əlilliyi olan şəxs kiçik ailə təsərrüfatlarını qurmaq üçün potensialları nəzərə alınmaqla həmin proqrama cəlb edilib. Həmin şəxslər üçün kiçik biznesin qurulmasına dair zəruri bilik və bacarıqlara yiyələnmələri üçün təlim kursları təşkil olunub. Onların artıq böyük hissəsi kursları bitirərək və biznes-planlarını müdafiə edərək mal və materiallar formasında aktivlərlə təmin ediliblər.

Bu il daha 500 nəfər əlilliyi olan şəxsin isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə BMT-nin İnkişaf Proqramının birgə icra etdiyi "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi çərçivəsində özlərinə dayanıqlı biznes qurmaları üçün işlər aparılır.

# Energetika sektorunun uzunmüddətli inkişaf strategiyasının hazırlanmasına dair müzakirələr aparılıb

Energetika Nazirliyində "Azərbaycan Respublikasının energetika sektorunun uzunmüddətli inkişaf Strategiyası" layihəsinin hazırlanması məqsədilə yaradılmış ekspertlər qrupunun ilk iclası keçirilib.

İclasda Avropa İttifaqının "Energetika sektorunun inkişafı məqsədilə Azərbaycan hökumətinə dəstək layihəsi"nin ilkin hesabatı təqdim edilib.

Ekspertlər qrupunun sədri, Energetika nazirinin müavini Samir Vəliyev bildirib ki, "Energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Prezidentinin 2019-cu il 29 may tarixli sərəncamında energetika sektorunun uzunmüddətli inkişaf strategiyası layihəsinin hazırlanması öz əksini tapıb. Bununla əlaqədar Avropa İttifaqının maliyyə dəstəyi ilə beynəlxalq məsləhətçi şirkət cəlb edilib. Məqsəd beynəlxalq enerji bazarlarının inkişaf meyilləri nəzərə alınmaqla 2050-ci ilə qədər inkişaf üçün "Uzunmüddətli Enerji Strategiyası" layihəsinin hazırlanmasıdır.

İclasda məsləhətçi şirkətin nümayəndəsi Teodor Qumas tərəfindən dəstək layihəsinin hesabatı təqdim edilib. Hesabat üzrə 2020-2050-ci illəri əhatə edəcək "Uzunmüddətli Enerji Strategiyası" layihəsinin hazırlanmasının strukturu və tərkib hissələri barədə fikir mübadiləsi aparılıb, enerji sektorunda karbon tullantılarının azaldılması, enerji bazarlarının iqtisadi fəaliyyəti, təchizatın təhlükəsizliyi üzrə hədəflər diqqətə çatdırılıb. Enerji tələbatında və enerji təchizatında enerji səmərəliliyi, bərpaolunan enerji mənbələrindən istifadənin artırılması və digər strateji istiqamətlər üzrə fəaliyyət və vəzifələr nəzərdən keçirilib, ekspertlər qrupunun rəy və təklifləri dinlənilib.

İclasda İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar, Kənd Təsərrüfatı nazirliklərinin, Dövlət Statistika Komitəsi, SOCAR, "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azəristiliktəchizat" ASC və digər qurumların nümayəndələri iştirak ediblər.

# Azərbaycan ekologiyası son yüz ildə

**Ekologiya ilkin məzmununa görə canlı orqanizmlərin bir-biri ilə və ətraf mühitlə qarşılıqlı əlaqələrindən bəhs edir. Bu sahə biologiyanın bəşəriyyətə töhfəsidir. Həmin elmi istiqamət təbiətin və cəmiyyətin inkişaf tarixi ilə sıx əlaqəlidir. Ona görə də bu sahənin tədqiqat istiqamətləri və kadr hazırlığı çoxsahəlidir. Tətbiqi sahələri də geniş olmaqla ətraf mühiti, təbiəti mühafizə, təbii ehtiyatlardan səmərəli istifadə məsələləri və s. bağlıdır.**



Son yüz ildə ekologiyaya baxış keçirməklə biz tarixin dərinliklərində ekologiya haqqında biliklərin zənginliyini, eyni zamanda onun sahələrinin Qərbdə və Şərqdə mövcud olan eyniliyini, fərqli cəhətlərini, ümumbəşəri xüsusiyyətlərini, özünəməxsusluğunu qismən açmağa nail olduq.

XIX əsrin sonu və XX əsrin əvvəllərində dünya elmlərinin inteqrasiyası yeni elmlərin və yeni dünyagörüşlərin formalaşmasına güclü təsir göstərirdi. Azərbaycanın elmlər sistemində ekoloji anlayışlar təbiət - cəmiyyət münasibətlərinə dair elmi ideyalarda, xüsusilə cəmiyyətin inkişafında təbii şəraitin rolunun qiymətləndirilməsində, təbiəti daha çox dəyişdirmək, kapitalist istehsal üsuluna uyğun geniş təkrar istehsalın inkişaf etdirilməsi və təbiəti mühafizə ilə əlaqədar ideyalarda müşahidə edilirdi. Bu sahədəki elmi biliklər ictimaiyyətə çox məhdud səviyyədə çatdırılırdı. Ekoloji biliklərə dair ideyaların yerli təcrübə ilə əlaqələndirilməsi ayrı-ayrı ziyalıların, xaricdə təhsil alıb gələnlərin üzərinə düşürdü. Onların bəziləri tərəfindən təbiətşünaslığın və onun sahələrinin müxtəlif istiqamətlərinə, ekoloji dünyagörüşlərinə, aqrar biliklərə dair qiymətli elmi - populyar yazılar verilirdi. Bu sahədə daha çox fərqlənən Moskva Universitetinin məzunu - Həsən bəy Zərdabi (Məlikov) idi. O, materialist, dünyagörüşlü təbiətşünasların ideyalarının əsaslarını şərh edirdi. Sonrakı mərhələdə Azərbaycan tədqiqatçıları, alimlər həmin sahəyə dair məlumatları sistemli şəkildə təhlil etməyə başladılar. Tarixçilərin fikrinə görə, XIX əsrin ortalarında və XX yüzilliyin əvvəllərinə kimi Azərbaycanın fəlsəfi və ictimai fikrinin İran, Orta və Yaxın Şərqin digər ölkələrinin mənəvi mədəniyyətlərinin yüksəlişinə böyük təsiri müşahidə edilirdi. Azərbaycanın qabaqcıl ziyalıları digər məsələlərlə yanaşı, Qərb mədəniyyətini də tərənnüm etməklə 1919-cu ildə ilk ali təhsil və elm mərkəzini, demokratik mədəniyyətin əsası olan Bakı Dövlət Universitetini yaratmışlar.

Bakı Dövlət Universitetinin yaranması ilə Avropa ölkələri alimləri, pedaqoqları arasında əlaqələr gücləndirildi. Eyni zamanda Türkiyə, İran ortaq mədəniyyətlərin öyrənilməsi ilə elmi tədqiqat mərkəzi, cəmiyyətlər yaradıldı. Onların sırasında Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyətinin təşkili mühüm əhəmiyyət kəsb etdi.

1930-cu illərin axırlarından başlayan repressiyaların 1940-cı illərə qədər davam etməsi elmi tədqiqatları yarımçıq qoydu. Azərbaycan xalqının mənəviyyatı və elmi yaradıcılığı sarsıldı. Bunlarla yanaşı, tədricən SSRİ EA Zaqafqaziya filialının Azərbaycan bölməsi, SSRİ EA Azərbaycan filialı, nəhayət, 1945-ci ildə AMEA-nın yaranması ilə Azərbaycan alimləri Antik və Şərq fəlsəfəsi, Azərbaycanda fəlsəfi fikir tarixini Bəhmənyardan, Nizamidən müasir dövrə qədər təhlil etməyə başladılar. Azərbaycan fizikşünasları, kimyaçıları, geoloqları, bioloqları, coğrafiyaşünasları, riyaziyyatçıları apardıqları tədqiqatları İkinci Dünya müharibəsində qələbələr qazanılması istiqamətinə yönəltdilər. Deyilənlər tədricən ekoloji təfəkkürün formalaşmasına təsir göstərirdi. Repressiyalara məruz qalmalarına baxmayaraq sonrakı inkişaf dövrləri göstərdi ki, Azərbaycan xalqı güclü genetik artıma və yaddaşa malikdir. Bunun nəticəsidir ki, xalqımız 1941-1945-ci illərdə böyük şücaət göstərir, Azərbaycan cəbhənin əsas strateji bazalarından birinə çevrilirdi. BDU-da və digər ali məktəblərdə tədqiqatlar, zavodlarda təcrübələr, eksperimentlər aparırdılar. Xüsusilə neft tullantılarından istifadə genişlənirdi.

XX əsrin ortalarından başlayaraq təbiəti mühafizə sahəsində yeni ideyalar və əməli fəaliyyətlər yaranmağa başladı. Ziddiyyətli dövr idi. Belə bir fikir əsaslandırılırdı ki, sosialist istehsal üsulu və istehsal münasibətləri hər şeyə qadirdir. Bu məsələ təbiət qanunlarına da şamil edilirdi. Belə bir dövrdə alimlər öz tədqiqatlarını davam etdirməli olurdular. Onlardan ən birincisi akademik Həsən Əliyev idi. Onun əmək fəaliyyətinin birinci dövründə (1930-1950) Azərbaycanın təbii şəraitinin tədqiqat sahələri istiqamətləndirilmişdir. Eləcə də meşələrin kənd təsərrüfatında məhsuldarlığa təsiri ideyaları, meşəmeliorasiyanın yaradılması, zonalar üçün ağac növlərinin seçilməsi, nəhayət, Meşəmeliorasiya İnstitutunun yaradılması ilə həyata keçirilmişdir. Burada torpaq eroziyası üzrə tədqiqatlar da aparılırdı.

H.Əliyev fəaliyyətinin ikinci mərhələsində (1950-1970-ci illərdə) elmi tədqiqatlarını davam etdirməklə məharətli elm təşkilatçısı kimi də fəaliyyət göstərmişdir. Alimin Meşə Təsərrüfatı və Aqromeliorasiya, Torpaqşünaslıq və Aqrokimya institutlarının yaradılmasında və inkişafında böyük əməyi olmuşdur. Onun təşəbbüsü ilə 1955-ci ildə keçmiş SSRİ EA sistemində ilk dəfə Respublika EA Rəyasət Heyəti yanında Təbiəti mühafizə şöbəsi yaradılmışdır. Coğrafiya İnstitutuna rəhbərlik etdiyi dövrdə bir neçə şöbə, eləcə də təbiəti mühafizə şöbəsi təşkil edilmiş, həmin istiqamətdə də yeni kompleks elmi tədqiqat işləri aparılmağa başlamışdır.

Fəaliyyətinin üçüncü mərhələsində (1970-1990) Azərbaycanda ekoloji problemlərin və təbiəti mühafizə məsələlərinin kompleks tədqiqinin əsaslarının yaradılmasına başlamışdır. Azərbaycan təbiətinin mühafizəsində meşələrin salınması və qorunmasına, meşə - meliorasiya işlərinə xüsusi önəm vermişdir. Həmin dövrlərdə 14 qoruq yaradılmışdır. Onun da 7-si Həsən Əliyevin səyi, təklifi və təkidi ilə həyata keçirilmişdir. Azərbaycan təbiətinin mühafizəsində meşələrin salınmasına və qorunmasına, meşə - meliorasiya işlərinə xüsusi önəm verilmişdir.

Həsən Əliyevin təbiətlə bağlı yaratdığı elmi məktəblərdə onun 40-a qədər elmlər namizədi, elmlər doktoru əzmlə fəaliyyət göstərmiş və uzun müddət direktor olduğu Coğrafiya İnstitutunun bütün şöbələrinin elmi fəaliyyəti ekoloji məsələlərlə əlaqələndirilmişdir.

AMEA sistemində ilk Təbiəti mühafizə şöbəsi Coğrafiya İnstitutunun nəzdində yaradılmış, ilk ekoloq təbiətşünas alimlər məhz həmin elmi tədqiqat institutunda hazırlanmışdır.

Azərbaycanda ekologiya və ətraf mühiti mühafizə sahələrində elmi tədqiqatların, tətbiqi sahələrin, kadr hazırlığının geniş miqyasda dövlət səviyyəsində idarə edilməsinə 1970-ci illərdən başlanmışdır. Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi böyük nəticələrlə müşayiət olunmuşdur. Təkcə onu demək kifayətdir ki, keçən dövrlərdə (1970-1980; 1992-2002-ci illərdə) ekologiya və ətraf mühiti mühafizə ilə əlaqədar bir çox qanunlar qəbul edilmiş, 30-a yaxın fərman və hüquqi sənədlər imzalanmışdır.

Akademik Həsən Əliyev BDU-da ekoloji təmayüllü kafedranın açılması təklifini vermişdi. Təhsil Nazirliyinin o vaxtki rəhbərliyi, eləcə də BDU-nun rektorluğu 1980-ci ildə Geologiya-coğrafiya fakültəsində Ətraf Mühitin Mühafizəsi (ƏMM) və təbii ehtiyatlardan səmərəli istifadə kafedrasının yaranmasına səy göstərmiş, həmin sahədə kadr hazırlığına başlanılmışdır. Kafedraya professor F.Hacıyev rəhbərlik etmişdir. Bir ildən sonra yüksək vəzifəyə irəli çəkilməsi ilə əlaqədar kafedraya rəhbərlik mənə həvalə olunmuşdur. Kafedra əməkdaşları ali məktəblərdə Ətraf mühiti mühafizə fənninin tədrisini BDU-da müvəffəqiyyətlə həyata keçirmişlər.

1990-cı ildə Ətraf Mühiti Mühafizə üzrə Regional Koordinasiya Şurası təsis edilmişdir. BDU-nun Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə kafedrası Zaqafqaziya respublikaları üzrə bu sahədə regional mərkəz olmuşdur. Yeganə ekoloji təmayüllü kafedra kimi təhsil sistemində elmi-metodiki mərkəzə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyev çətin illərdə respublika rəhbərliyinə qayıtdıqdan sonra ekologiya və ƏMM məsələlərinin həyata keçirilməsinə xüsusi səy göstərirdi. Eyni zamanda bu məsələlərin sosial-iqtisadi islahatlar dövründə həyata keçirilməsi təhsil sisteminin yeniləşdirilməsini tələb edirdi. 1999-cu ildə ölkədə təhsil islahatlarına başlandı, 2003-cü ildə ekoloji təhsil və ekoloji maarifləndirmə sahəsi ilə əlaqədar Prezident fərmanlar verdi. Bütün bunlar ümumi kadr hazırlığı, eləcə də ekologiya və ətraf mühiti mühafizə sahəsində mühüm əhəmiyyət kəsb etdi. 2001-ci ildə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yeni strukturda yaradılması haqqında fərman imzalandı. Tədricən "Əsrin kontraktı"nın həyata keçirilməsi ilə neft və qaz kəmərlərinin çəkilməsi və s. ekoloji təmayüllü layihələrin həyata keçirilməsi, təbii resurslardan səmərəli istifadə Azərbaycan alimlərinin fəaliyyətini daha da stimullaşdırdı.

BDU-nun Ətraf mühiti mühafizə kafedrası əməkdaşları yüksək ixtisaslı kadr hazırlamaqla yanaşı, Azərbaycan Respublikası Dövlət Təbiəti Mühafizə Komitəsinin, Dövlət Şəhərsalma və Arxitektura, Dövlət Plan Komitələrinin layihə institutları və digərləri ilə birlikdə təsərrüfat müqaviləli işlərdə və dövlət əhəmiyyətli proqramların yerinə yetirilməsində iştirak edirdilər.

İndi Azərbaycanda təbii resursların qiymətləndirilməsi və onlardan istifadənin genişləndirilməsi ilə əlaqədar dövlət səviyyəsində ətraf mühiti mühafizə və təbiəti bərpa məsələlərinə də ehtiyac yaranmışdır. Eyni zamanda Azərbaycan Respublikasında Regionların Sosial-iqtisadi inkişafına dair Prezident İlham Əliyev tərəfindən dövlət inkişaf proqramlarının həyata keçirilməsinə, insan kapitalına önəm verilməsinə, dayanıqlı inkişafın əsas prioritet kimi qəbul edilməsinə və bu sahədəki fəaliyyətin genişləndirilməsinə xüsusi önəm verilir. Ekologiya və ətraf mühiti mühafizə sahəsində fərmanların verilməsi, strateji əhəmiyyətli fəaliyyət "İlham Əliyevin uğurlu ekoloji siyasəti" adı altında ikicildlik toplum da öz əksini tapmışdır.

Müasir ekoloji anlayışların elmi və praktiki məzmunu yeni metodoloji yanaşma tələb edir. Ətraf mühiti mühafizə kafedrasının əməkdaşları bu sahədə də fəallıq göstərirlər. Onların sırasında "Ekoloji tutum" konsepsiyasının Azərbaycan şəraitinə uyğunlaşdırılması; torpaqların təsərrüfat təyinatında ətraf mühitin nəzərə alınması; əkin sahələrindən ildə iki-üç dəfə məhsul götürülməsi və s. kimi mütərəqqi ideyalar ekoloji tələblərə uyğun qiymətləndirilir. Ətraf mühiti mühafizə kafedrasının əməkdaşları son dövrə qədər bu sahə üzrə tədqiqat planına müvafiq olaraq 15 mövzu, 10-a yaxın təsərrüfat müqaviləli elmi-tədqiqat işləri, kompleks proqramlar və qrantlar yerinə yetirmişlər.

Prezident İlham Əliyevin 2010-cu ilin "Ekologiya ili" adlandırdığı ildə BDU-da Ekologiya və torpaqşünaslıq fakültəsi təşkil edilmişdir. Ekologiya və torpaqşünaslıq fakültəsinin yaradılması ilə ətraf mühiti mühafizə, təbii ehtiyatlardan səmərəli istifadə kafedrası Coğrafi ekologiya kafedrası adlandırılaraq Ekoloji kimya, Bioekologiya, Torpaqşünaslıq, Yer quruluşu və torpaq kadastrı kafedraları ilə birlikdə fəaliyyət göstərir. Bu kafedralar ekologiyanın böyük hissəsini əhatə etməklə həmin sahədə kadr hazırlığının mühüm istiqaməti kimi formalaşdırılmışdır. Ekologiya elminin sistemli inkişaf etdirilməsi və bu sahədə kadr hazırlığının müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində Ekologiya və torpaqşünaslıq fakültəsində və digər fakültələrdə qlobal və kosmik ekologiya, təkamül ekologiyası, struktur ekologiya, nanoekologiya, tətbiqi ekologiya və s. sahələrə xüsusi önəm verilməkdədir.

Coğrafi ekologiya təbiəti, sosial şəraiti, təsərrüfat sahələrini əhatə etdiyinə görə onun bir çox sahələrinin metodoloji aspektlərinin təkmilləşdirilməsində və yeniləşdirilməsində yeni istiqamətlər formalaşmaqdadır.

Müasir dövrdə ekoloji kadrlardan səmərəli istifadə nəticəsində idarəetmənin səmərəli təşkilinə, təsərrüfat sahələrinin modelləşdirilməsinə və proqnozlaşdırılmasına əlverişli şərait yaradılmış, kafedraların fəaliyyətində xarici ölkələrlə əlaqələr xüsusi yer tutmuşdur. Fakültəmizin Rusiya, Almaniya, Türkiyə, ABŞ və İranla elmi əlaqələri yaradılmışdır.

Biz qürur hissi keçiririk ki, ekologiyada böyük xidmətləri olan akademiklərdən H.Əliyev, B.Budaqov, V.Hacıyev, R.Əliyeva, professorlardan Ə.Əyyubov, Ş.Xəlilov, Q.Mustafayev, N.Mikayılov, T.İsmayılov və başqaları ilə birlikdə fəaliyyət göstərmiş və yaxşı əməkdaşlığımız olmuşdur.

***Şövqi GÖYÇAYSKİ,***
***BDU-nun professoru***

# "Neft Daşları"nın "kiçik qardaşı"

## "Palçıq Pilpiləsi" yatağı indiyədək 10 milyon tondan çox neft verib



**Xəzərin qoynunda "Palçıq Pilpiləsi" adlanan bir "qara qızıl" yatağı da var. Bakı şəhərindən 80 kilometr şərqdə yerləşir. Pirallahı adasından cənub-şərq istiqamətində 40 kilometr aralıdadır. Bu, "Neft Daşları" NQÇİ-nin istismar etdiyi iki yataqdan biridir.**

"Palçıq Pilpiləsi" Çilov adasının qurtaracağından başlanıb Neft Daşlarına çatanadək böyük bir ərazini əhatə edir. Burada suyun dərinliyi 10-25 metr arasında dəyişir, bəzi hissələrdə isə dərinlik bir qədər çox olur. Yatağın uzunluğu 10 kilometr, eni 2,5 kilometrdir. Bu ərazidə 11 özül quraşdırılıb. Əslində isə, onların sayı 14-dür. Çünki üç yerdə özüllər qoşadır.

"Palçıq Pilpiləsi"ni "Neft Daşları"nın "kiçik qardaşı" da adlandırırlar. Bu yataq 1953-cü ildə aşkarlanıb. Həmin vaxt burada fontan vuran 261 nömrəli quyu 40 ton neft hasilatı ilə istismara daxil olub. Yatağın sənaye əhəmiyyətli işlənməsinə isə 1963-cü ildən başlanıb.

İndiyədək "Palçıq Pilpiləsi" yatağında 347 quyu qazılıb. 212 quyu ləğv olunub. İstismar müddətində bu yataq 10 milyon 99 min ton neft verib. Buradan eləcə də 738 milyon kubmetr mavi yanacaq hasil edilib.

Hazırda "Palçıq Pilpiləsi"nin quyu fondunun sayı 114-dür. Onlardan 105-i fəaliyyətdə olan quyu sayılır. Yataqdan gündəlik neft hasilatı 265 ton təşkil edir.

Yataqda istismar və suvurucu quyulara nəzarət əsasən estakada və dərin özüldə aparılır. Son illərdə istismar müddətinin keçdiyinə görə və Xəzərdəki fırtınaların təsirindən estakadaların bir hissəsi sıradan çıxıb. Odur ki, indi yatağın işlənməsini davam etdirmək məqsədilə ayrı-ayrı dərin özüllərin tikilməsi və oradan maili hasilat quyularının qazılması həyata keçirilir. Son 5 ildə "Palçıq Pilpiləsi"ndə yerləşən 1295, 1304, 1183, 1284 nömrəli meydançalar əsaslı təmir olunub. Burada eləcə də 1284 və 1043 nömrəli meydançaların arasındakı estakadanın, 1146 və 1157 nömrəli dərin dəniz özüllərinin əsaslı təmiri həyata keçirilib. Bu il isə 1100, 1063, 1077 nömrəli meydançaların və 1145 nömrəli stasionar dəniz özülünün əsaslı təmiri davam etdirilib.

Qarşıdakı 5 il ərzində "Palçıq Pilpiləsi"ndə 4 yeni meydançanın tikilməsi planlaşdırılıb.

Geoloqların yəqin etdiyinə görə, "Palçıq Pilpiləsi"nin 4 milyon 671 min ton qalıq neft ehtiyatı var. Yataqda eləcə də 561 min kubmetr qalıq qaz ehtiyatı mövcuddur. Bu rəqəmlər şərhsiz də sübut edir ki, "Palçıq Pilpiləsi"nin ömrü uzun olacaq.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Sərt irada operativ reaksiya

## Ölkənin bank-maliyyə sektorunun sağlamlaşdırılması üçün hansı tədbirlər görülür

2014-cü ilin ikinci yarısından qlobal miqyasda müşahidə olunmağa başlamış maliyyə böhranı, xüsusən neftin dünya bazarında qiymətinin kəskin aşağı düşməsi dünya iqtisadiyyatının bir parçası və neft ixracatçısı olan Azərbaycana da təsirsiz ötüşmədi. Amma mobil idarəçilik sistemi, iqtisadiyyatın diversifikasiyası, neft sektorundan asılılığın aradan qaldırılması, qeyri-neft sektorunun inkişafı istiqamətində atılmış addımlar ölkəmizə qlobal iqtisadi kataklizmlərdən minimum itki ilə çıxmağa imkan verdi.

Buna baxmayaraq, məlum problemlər yaşandı və onların aradan qaldırılması kompleks yanaşma tələb edirdi. O üzdən Prezident İlham Əliyevin təşəbbüsü ilə iqtisadiyyatın müxtəlif istiqamətlərində olduğu kimi, maliyyə bazarlarında da silsilə islahatlar həyata keçirilməyə başladı. Məlumdur ki, 2015-ci ildən sonra maliyyə-bank sektorunda müşahidə olunan ən vacib məsələlərdən biri əmanətlərin banklardan kütləvi surətdə geri götürülməsi ilə bağlı idi. Həmin məqamda ölkə rəhbərliyinin hadisələrə çevik reaksiyası nəticəsində 2016-cı ildə əmanətlərin tam sığortalanması haqqında qanun imzalandı və bu, problemin qısa zamanda həll edilməsində əhəmiyyətli rol oynadı. Artıq 2017-ci ilin ikinci yarısından başlayaraq əmanətlərin banklardan geri götürülməsi prosesi dayanmışdı.

Digər tədbir: sirr deyil ki, qeyd olunan hadisələrin fonunda bank sektorunun inkişafı, kapitallaşma problemlərinin aradan qaldırılması və bu sektorun ölkə iqtisadiyyatında payının atması yöndə əsas götürülmüş institusional, hüquqi islahatlar sektorun dirçəldilməsi proseslərinin, bank-müştəri münasibətlərinin mərhələli şəkildə yeni müstəviyə keçirilməsini tələb edirdi. Məhz bu səbəbdən ölkədə bank sektorunun dayanıqlılığını təmin etmək üçün sözügedən sektora qısa vaxtda 1,9 milyard manat məbləğində kapital inyeksiyası həyata keçirildi.

Qeyd olunan dövr ərzində diqqət yetirilməli olan əsas məqamlardan biri də kreditləşmə prosesləri ilə bağlı idi. Statistik məlumatlara nəzər salaq: 2017-ci ildə bank sektorunda kreditləşmə həcmi təxminən 5 milyard, 2018-ci ildə 7,6 milyard, 2019-cu ilin ilk 9 ayının nəticələrinə əsasən 7 milyard manat olub. Ümumiyyətlə, 2018-2019-cu illərdə ölkə üzrə 14,5 milyard manat həcmində kredit verilmişdir ki, bunun da təqribən 8,1 milyard manatını biznes, 6,4 milyard manatını istehlak kreditləri təşkil edir. Təkcə 2019-cu ilin 9 ayında 3,2 milyard manat istehlak, 3,8 milyard manat həcmində biznes krediti verilmişdir. Təbii ki, belə hal ölkə rəhbərliyini razı sala bilməzdi.

Məhz bu səbəbdən oktyabrın 15-də Prezidentin yanında keçirilən iqtisadi müşavirədə qaldırılan əsas mövzulardan biri kreditləşmə, xüsusilə biznesin stimullaşdırılmasında aparıcı yer tutan sahibkarlıq subyektlərinin kreditləşməsi səviyyəsinin ürəkaçan səviyyədə olmaması, istehlak kreditlərinin biznes kreditləri ilə müqayisədə daha çox artması, bankların real sektordan daha çox istehlak kreditlərinin verilməsinə maraq göstərmələri ilə bağlı oldu. Müşavirədə dövlət başçısı haqlı olaraq ölkə iqtisadiyyatının şaxələndirilməsində bünövrə rolunu oynayan yerli sahibkarlıq fəaliyyətinin təşviq edilməsini, iş adamlarının maliyyə resurslarına çıxışını və kredit əlçatanlığının sadələşdirilməsini və bu hesaba real sektorun maliyyə vəsaitləri hesabına dəstəklənməsini vacib tapşırıq kimi aidiyyəti qurumlar qarşısında qaldırdı.

Sözügedən müşavirədən təxminən ay yarım keçib. Bu müddət ərzində ölkənin bank sektoru Prezidentin iradlarından nə nəticə çıxarmışdır? Suala cavab tapmaq üçün bu sahədə administrativ alətlərə malik Maliyyə Bazarlarına Nəzarət Palatasına (MBNP) müraciət etdik. Bildirildi ki, dövlət başçısının tənqidindəki məqamları aradan qaldırmaq üçün öncə bank sektorunun tənzimlənməsi ilə bağlı mövcud qanunvericiliyə - "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na və "Bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə kredit risklərinin tənzimlənməsi haqqında Qaydalar"a mühüm dəyişikliklər edilmiş, biznes kreditlərinin risk dərəcələri azaldılmış, məsuliyyətli borclanma vərdişlərinin formalaşdırılmasına, istehlakçıların izafi borclanmasının qarşısının alınması və onların hüquqlarının qorunmasına və bankların öz kapitallarına müvafiq biznes kreditlərinə daha çox yer ayırmalarına şərait yaradılmışdır. Bununla yanaşı, Prezidentin qeyd olunan məsələ ilə bağlı tapşırığının banklarla fəal kommunikasiya şəklində həyata keçirilməsi üçün MBNP-də Azərbaycan Banklar Assosiasiyasının, həmçinin ölkədə fəaliyyət göstərən istehlak yönümlü bankların iştirakı ilə iclas keçirilmiş, geniş müzakirələr fonunda prosesin birgə əməkdaşlıq şəraitində tənzimlənməsi və konkret fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş, bankların strateji planlarına yenidən nəzər salmaları və qısa müddətdə təkliflərin Palataya təqdim olunması qərara alınmış, biznes kreditlərinin təşviqi üçün banklar tərəfindən kredit yarmarkalarının keçirilməsi məqsədəuyğun hesab edilmişdir.

Görülən digər tədbiri də çox vacib və əhəmiyyətli hesab etmək olar. Təhlillər onu göstərir ki, Azərbaycanda fəaliyyət göstərən sahibkarlar əksər hallarda daşınmaz əmlaklarını girov qoymaqla kredit alırlar. Maraqlısı budur ki, kiçik və orta sahibkarların (KOB) aktivlərinin cəmi 22 faizi daşınmaz əmlak olsa da, onların götürdükləri kreditlər üzrə girovlarının 76 faizini daşınmaz əmlak təşkil edir. Məhz bu anormallığı aradan qaldırmaq üçün KOB-ların kreditlərə çıxış imkanlarının, maliyyə əlçatanlığının artırılması və müvafiq infrastrukturun gücləndirilməsi məqsədilə beynəlxalq praktikada qəbul olunmuş Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestri (DƏYDR) yaradılmışdır.

DƏYDR yüklülük verənlər və yüklülük sahibləri üçün bir sıra üstünlüklərə malikdir. Belə ki, adətən girov saxlayan maliyyə qurumları olan yüklülük sahibləri borcluların daşınar əmlaklarının yüklülüyü barədə vahid və ümumiləşdirilmiş məlumatların istənilən zaman "onlayn" qaydada operativ şəkildə əldə edilməsi, müştəri biznesinin daha təfərrüatlı nəzarətdə saxlanılması və müştəri dairəsinin genişlənməsi, həmçinin reyestrə daxil edilən daşınar əmlaklara tələb hüquqlarında üstünlük imkanlarına sahib olurlar. Digər tərəfdən, yüklülük verənlər üçün maliyyə resurslarına çıxış imkanları artır, maliyyə resurslarının daha ucuz və uzun müddətə cəlb edilməsində rəqabət canlanır, maliyyə paradoksu aradan qaldırılır və kredit təşkilatlarına çıxış asanlaşır. Üçüncüsü, reyestr maliyyə qurumlarına KOB subyektlərinin daşınar aktivləri barədə məlumatlar verir ki, bununla da banklar təminat predmeti kimi təqdim olunmuş əmlak barədə (yəni yüklü olub-olmadığı haqqında) məlumat əldə edir. DƏYDR, həmçinin banklara təkrar satış bazarı olan daha yaxşı təminat predmetlərini seçmək imkanı verir, iflas vəziyyətində olan sahibkarlıq subyektinin qoyduğu təminat predmetini daha asanlıqla satmaq imkanı yaradır.

MBNP-nin məlumatında o da bildirilir ki, KOB-ların kredit əlçatanlığının sadələşdirilməsi baxımından həyata keçirilmiş daha bir institusional islahat 8 bankın iştirakı ilə 2018-ci ilin fevral ayında Azərbaycan Kredit Bürosunun yaradılmasıdır. Müştərilərin kreditləri barədə məlumatları kredit təşkilatları ilə yanaşı, daha geniş mənbələrdən, o cümlədən lizinq, sığorta, kommunal xidmətlər göstərən müəssisələrdən, mobil telefon operatorlarından, borc öhdəliyi ilə bağlı digər bazalardan toplayaraq analiz edən və dolğun kredit hesabatları formalaşdıran bu ilk özəl kredit bürosu bankların anderraytinqə çəkdikləri xərcləri, onların problemli kredit portfellərini əhəmiyyətli dərəcədə aşağı salmışdır.

O ki, qaldı aqrar sektorun kreditləşməsinə, MBNP bu barədə də açıqlama vermişdir: "Son dönəmlərə qədər risklərin çoxluğu səbəbindən biznesin kreditləşməsində ən problemli sahələrdən biri kənd təsərrüfatı hesab olunurdu ki, artıq növbəti ildən ölkəmizdə yeni aqrar sığorta modeli tətbiq olunmağa başlayacaq. Yeni model sığorta risklərinin düzgün qiymətləndirilməsi nəticəsində bu sahədə dayanıqlı və effektiv fəaliyyəti təmin edəcək. Eyni zamanda, ölkəmizin müxtəlif regionlarında aqrar istehsalatın geniş yayıldığını və sahibkarların bu fəaliyyət növü ilə sıx məşğul olduğunu nəzərə alaraq, yeni sığorta modeli imkan verəcək ki, ölkəmizin bank sektoru mərkəzdən - Bakı və Abşeron ətrafından regionlara doğru inteqrasiya etsin".

Və nəhayət, ölkə başçısının birbaşa rəhbərliyi altında həyata keçirilən iqtisadi kurs, o cümlədən real sektorun maliyyələşdirilməsində səmərəliliyin artırılması istiqamətində həyata keçirilən institusional islahatlar artıq öz müsbət nəticələrini verir. Təsadüfi deyil ki, Azərbaycan artıq özünün maliyyə infrastrukturunun xarici dövlətlərə ixracını həyata keçirir. Artıq Qırğızıstan, Ukrayna, Gürcüstan kimi ölkələr Azərbaycanın bu istiqamətdəki təcrübəsini öyrənərək tətbiq etmək məqsədilə ciddi addımlar atmışlar.

Göründüyü kimi, ölkənin bank sektoru Prezident İlham Əliyevin 15 oktyabr iqtisadi müşavirədə səsləndirdiyi tənqid və iradlardakı nöqsanları aradan qaldırmaq üçün MBNP ilə birgə tədbirlər həyat keçirirlər. Lakin bu tədbirlərin nə dərəcədə səmərəli və funksional olub-olmamasını bilmək üçün müəyyən zaman lazımdır. Buna baxmayaraq, ölkədə bütün, ilk növbədə, iqtisadi sahələrdə köklü islahatların aparıldığı indiki vaxtda bank sektorunun üzərinə düşən vəzifənin öhdəsindən gəlmək üçün bütün imkanlarından istifadə edəcəyinə inanmaq istərdik. Özü də təkcə ona görə yox ki, bunu həmin islahatların təşəbbüskarı və müəllifi Prezident İlham Əliyev tələb edir. Həm də onun üçün ki, Azərbaycanın müstəqillik dövrünün indiki tarixi məqamında bank sektorunun yaxasını kənara çəkməyə, korporativ maraqlarını ölkənin sosial-iqtisadi inkişafını sürətləndirməkdən üstün tutmağa sadəcə haqqı yoxdur.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# O gün Lənkəranda ayrı aləm idi

## Rayonda III Çay, Çəltik, Sitrus Festivalı coşqulu keçdi





Azərbaycan xalqının təsərrüfat həyatında çox mühüm yer tutan el şənliklərindən biri də Məhsul bayramıdır. Xüsusən ötən əsrin 70-ci illərində fərdi və dövlət təsərrüfatları cari ilə yekun vurur, uğurları bayrama çevirirdilər. Məhsul bayramları həm də insanlarda torpağa və əməyə rəğbət formalaşdırırdı. Lənkəran bu dönəmdə ümumrespublika səviyyəsində keçirilən ilk Məhsul bayramlarına evsahibliyi etmişdir.





Rayonun kəndli-fermer təsərrüfatları indi də ciddi əmək nailiyyətləri əldə etməkdədir. Burada kənd təsərrüfatında əsas yeri çay, çəltik və sitrus meyvəçiliyi tutur. Hazırda Lənkəranın çayçılıq, çəltikçilik, tərəvəzçilik və sitrus təsərrüfatları yeni dövrün tələblərinə sürətlə uyğulaşmaqda və böyük nailiyyətlər qazanmaqdadır. Buna görə də 2017-ci ildən etibarən Lənkəranda Çay, Çəltik, Sitrus Festivalı keçirilməyə başlanılmışdır. Bu isə insanların əməyə marağını, məhəbbətini daha da artırmış, torpaqdan daha səmərəli istifadəyə və məhsul bolluğuna, insanların maddi rifah halının xeyli yaxşılaşmasına səbəb olmuşdur. Artıq 3-cü dəfə keçirilən bu festival rayonun turizm potensialını yaxşılaşdırmış, Lənkərana ölkə və dünya səviyyəsində diqqəti artırmışdır. Bunu ötən illə müqayisədə məhsul istehsalının, mal dövriyyəsinin və buraya turist axınının artımı da sübut edir.

III Çay, Çəltik, Sitrus Festivalının keçirilməsi də təkcə zəhmət adamlarının deyil, hər bir lənkəranlının, festivalda ötən illərdə də iştirak etmiş hər kəsin və internet üzərindən olan çoxsaylı tamaşaçıların da arzusunun ifadəsi oldu. Bu il də festival Lənkəran şəhərinin ən böyük məkanında - Heydər Əliyev Xatirə parkında keçirildi. Parkın giriş hissəsində Qala dekorasiyası qurulmuş, darvazanın girişində xəncər-qalxanlı, nizə-dəbilqəli iki əsgər durmuşdu.

1 saylı Uşaq musiqi məktəbinin musiqiçiləri "Cəngi" çalaraq festivala çağırış edir. Musiqi sədaları altında rəsmi qonaqlar meynana toplaşırlar. Simvolik Qala darvazasının önündə onları müxtəlif xalqların geyimlərində qarşılayan gənclər Azərbaycan, ingilis, ispan, fars, rus, ərəb, çin, fransız, alman dillərində qonaqları salamlayırlar. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov festivalın açılış nitqini söyləyir. Sonra açılış lenti kəsilir, qonaqlara şərbət verilir.

Qonaqlar Heydər Əliyev Xatirə parkına (tarixi Lənkəran Qalasının ərazisinə) daxil olurlar. Girişdə müxtəlif sitrus ağaclarının manqalları qoyulmuş, əli xonçalı qızlar durmuşlar. Xonçalarda müxtəlif sitrus meyvələri təqdim olunur. Parkın hər yerinə bayramın atributları - banerlər, butaforlar düzülmüş, bayraq lentləri vurulmuş, yaxınlıqdakı maliyyə və poçt binalarından iri pannolar, Heydər Əliyev Mərkəzinin giriş hissəsində iri limon, naringi, çay və çəltik butaforları asılmışdır. Böyük hovuzun qarşısında isə iri dekorativ məcməyidə sitrus xonçası düzəldilmişdir.

Meydanın tən ortasında nəhəng bir şar diqqəti cəlb edir. Bu şarın üzərində "III Çay, Çəltik, Sitrus Festivalı" sözləri yazılmışdır. Parkın mərkəzi hissəsində öz məhsulları ilə iştirak edən müəssisələr üçün onlarca çadır-pavilyon, 100-cən sərgi tumbası qurulmuşdur. Rəsmi qonaqlar Ümummilli Lider Heydər Əliyevin abidəsinin önünə tər gül dəstələri düzürlər. Lənkəran Mədəniyyət Mərkəzinin qızlardan ibarət "Ay lolo" rəqs ansamblı və şəhər 4, 6, 10 saylı məktəblərin şagirdlərinin iştirakı ilə "Azərbaycan çayı" rəqs kompozisiyası təqdim edilir. Sonra "Çayımızın dadı var" adlı sərgiyə baxış keçirilir. Bu pavilyonun içərisində "Yaşıl Çay Fermer Təsərrüfatı" MMC, "Tuado çay" MMC, "Sınaxs" MMC (Beta), "Lənkəran Çay 5" ASC, "Gilan Lənkəran" çay fabriki, "Sun-tea Çay fabriki" MMC və "Astaraçay" MMC öz məhsullarını təqdim edir. Pavilyonların divarına isə Lənkəranda istehsal olunan çay növlərinin adları qeyd olunmuşdur.

Çayçılıq sərgisinin sonuncu pavilyonunun önündə müğənni Rəhim Hüseynov "Çay dərən qızlar" mahnısını oxuyur. Boladi kənd Folklor Klubunun "Kinəlim" rəqs ansamblı isə bu mahnını rəqs edir. Rayonun tanınmış, qabaqcıl çayçılarına fəxri fərman və mükafatlar təqdim olunur. Burada qurulmuş çay masasının üstündə çay süfrəsi açılmışdır. Lənkəran şirniyyatçıları adından "İpək yolu" və "Alov" şirniyyat evləri də süfrədə hazırladıqları müxtəlif adda və çeşiddə olan milli şirniyyatları təqdim edirlər.

Daha bir stend-sərgidə bal və mürəbbələr təqdim olunur. Yaxınlıqda Xalçaçılıq fabrikinin xalça nümunələri düzülmüşdür. Çay süfrəsi əvvəllər əsasən xalça üzərində salınardı. Qonaqlar xalçaçılarla görüşür, onları dinləyir, arzu və təklilərini söyləyirlər. Xalça üzərində, çay süfrəsi arxasında nənələrimiz bizə nağıl danışar, nəğmə oxuyardılar. Lənkəranın məşhur "Nənələr" folklor kollektivi qonaqları salamlayaraq öz nəğmələrini təqdim edir.

Növbəti sərgi pavilyonları "Lənkəran düyüsü - dillər əzbəri" adlanır və çəltikçiliyə həsr olunub. Burada "Cənub Aqro" MMC, "Astaraçay" MMC, Girdəni və Ürgə kəndlərindən olan çəltikçilər öz məhsullarını təqdim edirlər. Pavilyonun divarına "Ənbərbu", "Haşimi", "Həsəni", "Qırmızı Ənbərbu", "Çampo", "Sədri" düyü növlərinin adları yazılmışdır. Aşpazlar bu düyülərdən 20 adda plov bişirib sərgiyə çıxarmışlar. Plov süfrəsi həm də ət və cücə ləvəngiləri ilə təqdim olunurdu. Əmək qabaqcılı olan çəltikçilərə burada fəxri fərman və mükafatlar verilir. Qonaqlar plov süfrəsinə dəvət edilir.

Lənkəranın muğam üstaları adından xanəndə İmanverdi Ağayev dövlətin muğam sənətinə göstərdiyi qayğıdan danışıb minnətdarlığını bildirir. Sonra bir muğam səsləndirilir.

Növbəti sərgi pavilyonda bağbanlar festival iştirakçılarına növbənöv sitrus meyvələrini, onların şirə və kompotlarını təqdim edirlər. Pavilyonun divarına limon, naringi, kivi, kinkan, qreypfrud, portağal, feyxoa və hallaobonq meyvələrinin adları yazılmışdır. Aşpazlar bu meyvələrdən müxtəlif maraqlı fiqurlar düzəltmişlər. Sitrus sərgisinin sonunda sitrus masası açılmışdır. Burada həmin meyvələrdən hazırlanmış şirələr, cemlər, kompotlar nümayiş etdirilir. Qonaqlar sitrus bağbanları ilə görüşüb söhbət edirlər. Tanınmış sitrusçulara fəxri fərman və hədiyyələr verilir.

ABŞ-ın Lənkəranla qardaşlaşmış Monterey şəhəri adından burada xüsusi sərgi-stend də qoyulmuşdur. Bir tərəfdə isə sitrusdan hazırlanmış saç şampunu və digər parfümeriya dəstləri düzülmüşdür. Öndə Boladi kənd rəqs ansamblı "Zəhmət süitası" adlı rəqs kompozisiyasını ifa edir.

Rəqs meydançası yaxınlığında çay, çəltik və sitrusa həsr edilmiş rəsm əsərlərinin sərgisi nümayiş etdirilir. Burada böyük monitorda Lənkəranın təsərrüfat nailiyyətlərini əks etdirən süjetlər əksini tapmışdır.

Dairəvi meydanın bir tərəfində aşpaz Qubadın mətbəx nemətləri sərgilənir. "Nəvələr" folklor qrupu öz şirin ifaları ilə festivala gələnlərin könlünü oxşayır. Sonra tanınmış müğənni Cavad Rəcəbov "Lənkəran" mahnısını oxuyur.

"Qonaq evin ruzi-bərəkətini artırır" sərgisi ilə sərgilər yekunlaşır. Bu pavilyonda "Dəniz", "4 fəsil", "Palıdlı sahil", "Palmalive", "Xan Lənkəran", "Boranı", "Xəzər-palase" və "Şah saray" hotel-restoranları festival iştirakçılarına öz zəngin nemətlərlə dölu süfrələrini təqdim edirlər. "İlhamdır rəhbər" və "İlhamla irəli" mahnılarının sədaları pərdə-pərdə yüksələrək qonaqların zövqünü oxşayır. Mahnıların ifaçıları əllərindəki bayraqları yelləyir, göyə şar uçurdurlar. Sonda fişənglər atılır, atəşfəşanlıq olur. Beləliklə, Lənkəranın tarixində qalacaq daha bir festival başa çatır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*










## Bakı Şəhər İcra Hakimiyyətinin
## "Yaşıl teatr" Bakı Konsert Kompleksi
### Mətbəə və nəşr ilə əlaqədar olan təqvimlərin, malların, işlərin və xidmətlərin satın alınması ilə əlaqədar
### *açıq tenderə dəvət edir*

**LOT - 1. Mətbəə və nəşr ilə əlaqədar olan təqvimlərin, malların, işlərin və xidmətlərin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:**
**LOT - 1: 100 AZN**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**H/H: AZ05AIIB33070019443501623105**
**VÖEN: 1700779931**
**BANK: "KAPİTAL BANK" ASC Səbail filiali**
**KOD: 200059**
**VÖEN (bank): 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T BIK: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **11.12.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **19.12.2019-cu il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **19.12.2019-cu il saat 17:15-də** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*E-şərtlər toplusunu 21.11.2019-cu il saat 17:00-dan sonra əldə edə bilərsiniz.*

***Tender komissiyası***



## Bakı Şəhər İcra Hakimiyyətinin
## "Yaşıl teatr" Bakı Konsert Kompleksi
### Təmiz Bakı layihəsi çərçivəsində təbliğat-təşviqat, maarifləndirmə işlərinin aparılması üçün çap məhsullarının alınması, videoçarxların çəkilməsi və yayılması xidmətlərinin satın alınması ilə əlaqədar
### *açıq tenderə dəvət edir*

**LOT - 1. Təmiz Bakı layihəsi çərçivəsində təbliğat-təşviqat, maarifləndirmə işlərinin aparılması üçün çap məhsullarının alınması, videoçarxların çəkilməsi və yayılması xidmətlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:**
**LOT - 1: 150 AZN**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**H/H: AZ05AIIB33070019443501623105**
**VÖEN: 1700779931**
**BANK: "KAPİTAL BANK" ASC Səbail filiali**
**KOD: 200059**
**VÖEN (bank): 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T BIK: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **10.12.2019-cu il saat 17:50-dək** və tender təklifi ilə bank təminatı sənədlərini **19.12.2019-cu il saat 17:50-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **19.12.2019-cu il saat 17:50-də** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*E-şərtlər toplusunu 21.11.2019-cu il saat 17:49-dan sonra əldə edə bilərsiniz.*

***Tender komissiyası***



## Bakı Şəhər İcra Hakimiyyətinin
## "Yaşıl teatr" Bakı Konsert Kompleksi
### 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni 2020-ci il münasibətilə Bakı şəhərinin park və meydanlarında, körpələr evi-uşaq bağçalarında tədbirlərin keçirilməsi, körpələr evi-uşaq bağçalarının bayrama uyğun bəzədilməsi işlərinin satın alınması ilə əlaqədar
### *açıq tenderə dəvət edir*

**LOT - 1. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni 2020-ci il münasibətilə Bakı şəhərinin park və meydanlarında, körpələr evi-uşaq bağçalarında tədbirlərin keçirilməsi, körpələr evi-uşaq bağçalarının bayrama uyğun bəzədilməsi işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:**
**LOT - 1: 300 AZN**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**H/H: AZ05AIIB33070019443501623105**
**VÖEN: 1700779931**
**BANK: "KAPİTAL BANK" ASC Səbail filiali**
**KOD: 200059**
**VÖEN (bank): 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T BIK: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **13.12.2019-cu il saat 10:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **24.12.2019-cu il saat 09:10-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **24.12.2019-cu il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*E-şərtlər toplusunu 25.11.2019-cu il saat 09:00-dan sonra əldə edə bilərsiniz.*

***Tender komissiyası***


# Ermənistan ordusu atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# DSX-nin hərbi hissələri arasında xidməti it təlimatçılarının və bələdçilərinin yarışları keçirilib

Dövlət Sərhəd Xidmətinin (DSX) Xidməti heyvanlar təlimatçılarının hazırlığı mərkəzində xidmətin hərbi hissələri arasında xidməti it təlimatçılarının və bələdçilərinin ikinci kinoloji yarışları keçirilib.





Yarışların keçirilməsində məqsəd xidməti it təlimatçılarının və bələdçilərinin peşəkar hazırlığını inkişaf etdirmək, dövlət sərhədinin mühafizəsində xidməti itlərlə sərhəd pozucularının axtarışı və yaxalanması, sərhəd nəzarəti məntəqələrində narkotik vasitələrin axtarışı imkanlarını genişləndirmək, həmçinin ən yaxşı praktiki vərdişlərə malik kinoloq-mütəxəssisləri və yüksək iş qabiliyyəti olan xidməti itləri müəyyənləşdirmək olub.

Kinoloji yarışlara DSX-nin Xidməti heyvanlar təlimatçılarının hazırlığı mərkəzinin, Sərhəd Qoşunlarının hərbi hissələrinin, Sərhəd Nəzarətinin sərhəd nəzarəti məntəqələrinin kinoloq-mütəxəssisləri cəlb edilib.

Kinoloji yarışlar iki müxtəlif istiqamətdə - narkotik vasitələrin axtarışı və iz axtarışı üzrə keçirilib. Yarışlarda xüsusi təlim keçmiş xidməti itlərlə nəqliyyat vasitələrində, əl çantalarında, otaqlarda narkotik vasitələrin axtarışı, sərhəd pozucusunun izlərlə təqib olunaraq yaxalanması və itaət komandaları üzrə tapşırıqlar yerinə yetirilib.

İkinci kinoloji yarışların qalibi olmuş hərbi qulluqçular təltifləndirilib, qaliblərə kubok, diplom və pul mükafatları təqdim edilib.

# Uşaqlara sevinc verək!

“Mədəniyyətin Təbliği və Sosial Təşəbbüslər” İctimai Birliyi Azərbaycan Uşaqlar Birliyinin sığınacağında məskunlaşmış kimsəsiz uşaqlara dəstək məqsədilə Bakı şəhərinə “Uşaqlara sevinc verək!” adlı bir günlük tur-aksiya təşkil edib.

AZƏRTAC xəbər verir ki, mədəni, maarifçi məzmun daşıyan əyləncəli aksiyada kimsəsiz uşaqlar İçəri şəhərdə yerləşən Şirvanşahlar sarayında olublar. Uşaqlara İçəri şəhər və Şirvanşahlar sarayı və onun tarixi haqqında ətraflı məlumat verilib. Maraqlı bir gün keçirən uşaqlar daha sonra Bakı Dövlət Sirkinin təşkil etdiyi “Water Land” adlı iki saatlıq möhtəşəm lazer və fəvvarələr şou proqramını izləyiblər. Proqramdan sonra uşaqlar hədiyyələrlə sevindirilib.



“Azərkitab”da tur-aksiya ilə bağlı təşkil olunan tədbirdə təşkilatın idarə heyətinin sədri Səbuhi Zaman göstərdikləri sosial təşəbbüsdə onlara dəstək olan şəxslərə minnətdarlığını bildirib və bu kimi xeyriyyə tədbirlərinin davamlı olacağını vurğulayıb. Dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın sosial layihələrə, xüsusən də ehtiyacı olan azyaşlı, kimsəsiz uşaqlara göstərdikləri diqqət və qayğıdan söz açıb.

Sonda təqdimatın keçirilməsi üçün şərait yaratdığına görə “Azərkitab”ın rəhbəri Misirxan Həsənova “Mədəniyyətin Təbliği və Sosial Təşəbbüslər” İctimai Birliyi adından təşəkkürnamə plaketi təqdim edilib.


## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

### açıq tender elan edir

Tender 1 LOT üzrə keçirilir.

**LOT 1: 6 ədəd UAZ-390945-520 tipli avtomaşının satın alınması**

**İştirak haqqı: 300 (üç yüz) manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma portalından əldə edə bilərlər.

**Müəssisənin adı:**
**“Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**SWIFT BIK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **16 dekabr 2019-cu il saat 17:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **25 dekabr 2019-cu il saat 11:00-dək** vahid satınalma portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **25 dekabr 2019-cu il saat 11:00-da** vahid satınalma portalında açılacaqdır.

***Tender komissiyası***



## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

### açıq tender elan edir

Tender 1 LOT üzrə keçirilir.

**LOT 1: Ayrılmış xətt tikintisinin satın alınması**

**İştirak haqqı: 1000 (bir min) manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma portalından əldə edə bilərlər.

**Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**SWIFT BIK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **13 dekabr 2019-cu il saat 17:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **25 dekabr 2019-cu il saat 11:00-dək** vahid satınalma portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **25 dekabr 2019-cu il saat 11:00-da** vahid satınalma portalında açılacaqdır.

***Tender komissiyası***



## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi

### açıq tenderə dəvət edir

- Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi üçün yumşaq inventarın satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 75.00 (yetmiş beş) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ25IBAZ38090039446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **12.12.2019-cu il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **24.12.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **24.12.2019-cu il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi

### açıq tenderə dəvət edir

- Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi üçün inventarın (jalüzlərin alınması, quraşdırılması və elektrik xəttinə qoşulması) satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 120 (bir yüz iyirmi) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ25IBAZ38090039446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **12.12.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **24.12.2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **24.12.2019-cu il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 15.11.2019-cu il tarixdə keçirilmiş LOT-1 “Bakı Metropoliteni” QSC-nin “N.Nərimanov” elektrik deposu ərazisində 25-26-27-28-29-30-cu qanovlarda, emalatxanalar binası, qazanxana binasında, “Dəmir Beton Konstruksiyalar İstehsalat Sahəsində” taxta emalı sexində döşəmənin epoksid döşəmə örtüyü ilə rənglənməsi və yük həyətində döşəmənin epoksid döşəmə örtüyü ilə rənglənməsi işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə “CMT Group” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə LOT-1 üzrə 21.11.2019-cu il tarixdə ƏDV daxil 265484,07 (iki yüz altmış beş min dörd yüz səksən dörd manat 07 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Milli Məclisin deputatı Araz Əlizadəyə bacısı

**LALƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanova əzizi

**YARMƏT YARMƏTOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Maliyyə və təminat şöbəsinin müdiri İsmayıl Aslanova qardaşı

**ŞAHLAR ASLANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlar İttifaqının İdarə Heyəti Memarlar İttifaqının İdarə Heyətinin üzvü, memarlıq üzrə fəlsəfə doktoru Rizvan Bayramova bacısı

**ZEYNƏB XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8909
Sifariş 3979
Qiyməti 40 qəpik